**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# «AZƏRBAYCANDA BEYNƏLXALQ KOMMERSİYA FƏALİYYƏTİNİN FORMALARI VƏ ONLARIN İNKİŞAF İSTİQAMƏTLƏRİ»

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Həsən-zadə Ləyaqət Etibar qızı**

**BAKI – 2019**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinin direktoru**
**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**İmza ___________________**

**« ______ » __________ 2019 il**

# «AZƏRBAYCANDA BEYNƏLXALQ KOMMERSİYA FƏALİYYƏTİNİN FORMALARI VƏ ONLARIN İNKİŞAF İSTİQAMƏTLƏRİ»

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

**İxtisaslaşmanın kodu və adı: 060411 «Kommersiya fəaliyyəti»**

**İxtisaslaşma: «Kommersiya fəaliyyəti»**

**Qrup: 900**


**Magistrant**
**(soyadı, adı və atasının adı)**
**Həsən-zadə Ləyaqət Etibar qızı**

**___________________ (imza)**

**Elmi rəhbər**
**(elmi dərəcəsi və elmi adı, S.A.A.)**
**i.e.n., dos.Əkbərov Məhərrəm Qənbər oğlu**

**___________________ (imza)**

**Proqram rəhbəri**
**(elmi dərəcəsi və elmi adı S.A.A)**
**i.ü.f.d. Nəcəfova Kəmalə Akif qızı**

**___________________ (imza)**

**Kafedra müdiri**
**(elmi dərəcəsi və elmi adı, S.A.A)**
**prof. Kəlbiyev Yaşar Atakişi oğlu**

**___________________ (imza)**


**BAKI – 2019**

# Elm andı

Mən, Həsən-zadə Ləyaqət Etibar qızı and içirəm ki, «Azərbaycanda beynəlxalq kommersiya fəaliyyətinin formaları və onların inkişaf istiqamətləri» mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

**«FORMS OF INTERNATIONAL COMMERCIAL ACTIVITIES AND THE MAIN WAYS OF THEIR DEVELOPMENT IN AZERBAIJAN»**


## ABSTRACT

**The relevance of research. The current stage of development of international business is difficult to imagine without affecting the process of internalization and globalization. The study of various forms of international commercial activity in modern conditions in Azerbaijan, as well as the prospects for their development, determines the relevance of this study.**

**Goals and objectives of the study. The purpose of the thesis is to study the organizational and economic relations in the field of international commercial activities in modern conditions of Azerbaijan, the definition of the main directions of their development and improvement.**

**Research methods. The theoretical and methodological basis of the study was the works of famous scientists and specialists in the field of world economy and international relations, international trade, globalization, internationalization of the economy and regional integration.**

**The development of the problem. Problems of development of international commercial activities were investigated in the works of domestic and foreign scientists. At the same time, much less attention was paid to cooperation and development at the international level during the processes of regionalization and globalization. An attempt has been made to fill this gap.**

**Information base of research. Information base of the research is scientific works and research of domestic and foreign scientists on this issue, as well as other official and bibliographic sources. We used the statistical database of domestic and foreign statistical agencies.**

**Practical significance. The practical significance of the study lies in the fact that the main results of the thesis can be used to determine the future course of work carried out in the field of improving international commercial activities in Azerbaijan.**

**Scientific and practical significance of the study. Studying international experience in improving the mechanisms for improving international business in the country in the context of regionalization and globalization, and increasing competition in international markets is required for Azerbaijan in order to radically reform the management system in this important area.**



**Keywords: international business, globalization, internalization, trends, developed and developing countries**

# İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **EU** | European Union |
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **RTAs** | Regional Trade Agreements |
| **UNCTAD** | United Nations Conference on Trade and Development |
| **WTO** | World Trade Organization |
| **GATT/ÜTT** | General Agreement on Tariff and Trade/Ümumdünya Ticarət Təşkilatı |
| **TMŞ** | Trans-milli şirkətlər |
| **LDCs** | Least developinq countries |
| **LLDCs** | Landlocked developinq countries |
| **SIDCs** | Small island developing states |
| **HIPCs** | Heavily indebted poor countries |
| **ATZ** | Azad ticarət zonaları |
| **AİZ** | Azad iqtisadi zonalar |
| **İƏİT** | İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı |
| **PPP** | purchasing power parity |

# MÜNDƏRİCAT

GİRİŞ ........ 4
I FƏSİL. BEYNƏLXALQ KOMMERSİYA FƏALİYYƏTİNİN MÜASİR İNKİŞAF MEYLLƏRİ, İSTİQAMƏTLƏRİ VƏ ONUN HƏYATA KEÇİRİLMƏSİNİN ƏSAS FORMALARI ........ 7
1.1. Beynəlxalq kommersiya fəaliyyətinin mahiyyəti, məzmunu və xarakterik cəhətləri ........ 7
1.2. Beynəlxalq kommersiya fəaliyyətinin müasir inkişaf meylləri ........ 13
II FƏSİL. BEYNƏLXALQ KOMMERSİYA ƏMƏLİYYATLARININ METODLARI. BEYNƏLXALQ KOMMERSİYA FƏALİYYƏTİNİN TƏNZİMLƏNMƏSİ ........ 23
2.1. Beynəlxalq kommersiya fəaliyyətində həyata keçirilən beynəlxalq kommersiya əməliyyatlarının növləri və metodları ........ 23
2.2. Beynəlxalq kommersiya fəaliyyətinin tənzimlənməsinin zəruriliyi və xarakteristikası ........ 34
III FƏSİL. BEYNƏLMİLƏLLƏŞDİRMƏ ŞƏRAİTİNDƏ AZƏRBAYCANDA BEYNƏLXALQ KOMMERSİYA FƏALIYYƏTİNİN XÜSUSSIYƏTLƏRİ VƏ ONUN İNKİŞAF PERSPEKTİVLƏRİ ........ 46
3.1. Hazırki dövrdə mövcud olan biznes-mühitin əsas tərkib hissələri və onun beynəlxalq kommersiya fəaliyyətinə təsir strategiyaları ........ 46
3.2. Beynəlmiləlləşdirmə şəraitində Azərbaycanda beynəlxalq kommersiya fəaliyyətinin həyata keçirilən formalarının inkişaf perspektivləri ........ 60
NƏTİCƏ VƏ TƏKLİFLƏR ........ 72
İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT ........ 78
Əlavələr ........ 81
Cədvəllərin siyahısı ........ 83
Şəkillərin siyahısı ........ 83
Qrafiklərin siyahısı ........ 84

# GİRİŞ

**Mövzunun aktuallığı.** Dünyada baş verən və XX əsrin ikinci yarısından daima inkişafda olan beynəlmiləlləşdirmə prosesi beynəlxalq kommersiya fəaliyyətinə indiyədək güclü təsir göstərməkdə davam edir. Müasir beynəlxalq kommersiya fəaliyyəti özlüyündə çoxsəviyyəli münasibətlər sistemi olmaqla hazırda o, müxtəlif bazis faktorlarının və keyfiyyətcə yeni olan amillərin təsiri altında spesifik xüsusiyyətlərlə xarakterizə olunur.

Azərbaycan üçün beynəlxalq kommersiya fəaliyyətinin təsiri müstəqillik qazanıldıqdan sonra daha geniş miqyaslı olmuşdur. Sosial-iqtisadi planda beynəlxalq kommersiya fəaliyyətinin vacibliyi bütün digər inkişaf amilləri ilə yanaşı ölkə inkişafı üçün mühüm əhəmiyyət kəsb edir.

İşin yazılmasından əsas məqsəd Azərbaycanda beynəlxalq kommersiya fəaliyyət inkişaf tendensiyalarının araşdırılmasından və yarana biləcək yeni keyfiyyət nəticələrin təhlil olunmasından ibarətdir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi.** Müasir dövrdə beynəlxalq kommersiya fəaliyyətinin inkişaf tendensiyaları bir sıra cəhətlərlə xarakterizə olunur ki, bunların arasında dünya mal dövriyyəsinin həcmlərinin daim artımı, əmtəə (mal) nomenklaturasının (çeşidinin) genişlənməsi və mürəkkəbləşməsi, beynəlxalq ticarətin coğrafi strukturunun dəyişilməsi, ticarət siyasətinin liberallaşması, beynəlxalq ticarətin inkişafına trans-milli şirkətlərinin təsirinin artması, firmadaxili ticarətin həcmlərinin artımı, TMŞ-in ticarət fəaliyyəti ilə birbaşa xarici investisiyaları arasında sıx əlaqələrin artması, xitmətlərlə ticarətin həcmlərinin yüksəlməsi, beynəlxalq kommersiya fəaliyyətində inkişaf etməkdə olan ölkələrin rolunun artması və onlar arasındakı ticarətin sürətli inkişafı, beynəlxalq kommersiya fəaliyyətinin regionlaşması və onun mühüm inteqrasiya qruplaşmalarında cəmləşməsi, dünya ticarətində qeyri-tarif maneələrinin çoxalması və bir sıra digər mühüm tendensiyaları qeyd eləmək olar.

Bu cür meyllərin araşdırılması və qloballaşma şəraitində onların Azərbaycan iqtisadiyyatına təsiri seçilmiş mövzunun əsas mahiyyətini təşkil edir və məsələyə bu cür yanaşma onu digər araşdırmalardan fərqləndirir.

Tədqiqat işində aparılan araşdırmalar əvvəlki ümumi yanaşmalardan özünün kompleksliliyi ilə fərqlənir, beynəlxalq kommersiya fəaliyyəti sahəsində Azərbaycanın yerinin müəyyən olunması və bu sahədə görülən işlərin müxtəlifliyindən irəli gələn xüsusiyyətlərin dərindən araşdırılması əsasında tədqiqat metodları tətbiq edilməklə maraqlı nəticələr əldə edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi bazar iqtisadiyyatı şəraitində beynəlxalq kommersiya fəaliyyəti mexanizmlərinin dərindən araşdırılmasından, bu cür fəaliyyətin respublikanın iqtisadiyyatındakı rolunun üzə çıxarılmasından, beynəlxalq ticarət fəaliyyətinin idarəedilməsinin xarakterik xüsusiyyətlərinin müəyyən olunmasından, əldə edilən nəticələr əsasında respublikada kommersiya fəaliyyətinin canlandırılması, ölkənin kommersiya müəssisələrinin dünyanın iqtisadi mərkəzləri ilə gələcək strateji əlaqələrinin inkişaf etdirilməsindən ibarətdir. Tədqiqatın vəzifələr dairəsi dissertasiya işinin strukturundan irəli gələrək araşdırılmışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti kimi problemli vəziyyəti yaradan və öyrənilmə üçün seçilmiş proses və yaxud hal, hadisə, predmeti kimi isə bu obyektin hüdudlarında olanlar nəzərdə tutulur. Bu baxımdan dissertasiya işinin predmeti bütövlükdə birja işinin mahiyyəti ilə səciyyələnilir. Tədqiqat işinin obyekti kimi bütövlükdə beynəlxalq kommersiya fəaliyyətinin təşkil olunması mexanizminin təkmilləşdirilməsi məsələsi nəzərdən keçirilir.

**Tədqiqat metodları.** Tədqiqatın alətlər bazası kimi daha səmərəli nəticə verə bilən elmi dərketmə, araşdırmalar və təhlil metodlarından, dialektik yanaşmadan istifadə olunmuşdur. Dissertasiya işində, aparılan tədqiqatın məqsədlərinə nail olunması üçün elmi dərketmənin metodları toplusundan, yəni həm ümumi elmi tədqiqat metodlarından (ümumiləşdirmə, müqayisələr metodu və s.), həmçinin, xüsusi tədqiqat metodlardan (tədqiqtaların riyazi-statistik metodlarından və digərləri) istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazası.** Tədqiqatın informasiya bazasını araşdırılan mövzunun nəzəri və praktiki məsələləri ilə məşğul olan yerli və xarici müəlliflərin elmi işləri, rəsmi və biblioqrafik mənbələr təşkil edirlər. Dissertasiya işində Azərbaycan Dövlət Statistika Komitəsunən statistik materiallarlından və xarici statistik mənbələrdən, müvafiq internet resurslardan istifadə olunmuşdur.

**Tədqiqatın məhdudiyyətləri.** Tədqiqat işində aparılan araşdırmalar göstərir ki, məsələnin bir çox vaxt ərzində elmi ədəbiyyatda və praktikada daimi diqqət mərkəzində olmasına baxmayaraq, beynəlxalq kommersiya fəaliyyəti sahəsində mövcud olan problemlərin öyrənilməsində müəyyən nəzəri-metodoloji çatışmazlıqlar da mövcuddur və bu da özünü xüsusilə də Azərbaycanın beynəlxalq kommersiya fəaliyyətində yerinin müəyyən edilməsində və ölkənin gələcək inkişaf istiqamətlərinin müəyyən olunmasında biruzə verir.

**Tədqiqiatın elmi-praktiki əhəmiyyəti.** Dissertasiya işi beynəlxalq kommersiya fəaliyyətinin müasir inkişaf meylləri, istiqamətləri və onun həyata keçirilməsinin əsas formaları, beynəlxalq kommersiya fəaliyyətinin müasir inkişaf meylləri, beynəlxalq kommersiya fəaliyyətinin tənzimlənməsinin zəruriliyi və xarakteristikası ilə bağlı olan məsələlərin araşdırılmasına həsr olunmuşdur və burada əldə olunmuş nəticələr elmi-praktiki xarakter daşıyırlar və respublikada beynəlxalq kommersiya fəaliyyətinin təkmilləşdirilməsi prosesində istifadə oluna bilərlər.

Elmi tədqiqatın nəticələri kimi əldə olunan təkliflər praktiki əhəmiyyətliliyə malikdirlər və təcrübədə istifadə oluna bilər. Digər tərəfdən, beynəlxalq kommersiya fəaliyyəti mexanizmlərinin təkmilləşdirilməsi sahəsindəki beynəlxalq təcrübənin Azərbaycanda istifadə olunması yollarının araşdırılıb tapılması, qloballaşma və regionlaşma şəraitində, beynəlxalq bazarlarda rəqabətin kəskinkəşdiyi vaxtda ölkəmiz üçün vacib əhəmiyyət kəsb edir.

**Dissertasiya işinin strukturu və həcmi.** Dissertasiya işinin həcmi 83 səhifədən ibarətdir və mündəricatdan, üç fəsildən, nəticə və təkliflərdən, ədəbiyyat siyahısından ibarətdir.

# I FƏSİL. BEYNƏLXALQ KOMMERSİYA FƏALİYYƏTİNİN MÜASİR İNKİŞAF MEYLLƏRİ, İSTİQAMƏTLƏRİ VƏ ONUN HƏYATA KEÇİRİLMƏSİNİN ƏSAS FORMALARI

## 1.1. Beynəlxalq kommersiya fəaliyyətinin mahiyyəti, məzmunu və xarakterik cəhətləri

XX əsrin ikinci yarısından başlayaraq təsərrüfat həyatının beynəlmiləlləşdirilməsi dünya təsərrüfatının inkişafının aparıcı meyllərini təşkil etmişdir. Xarici iqtisadi əlaqələr - əməyin beynəlxalq bölgüsünün bir nəticəsinə çevrilmişdir. Özünün funksional əlamətlərindən asılı olaraq xarici iqtisadi əlaqələrin aşağıdakı əsas formalarını qeyd eləmək olar: xarici ticarət, elmi-texniki əməkdaşlıq və kooperasiyalaşdırma. Xarici iqtisadi əlaqələrin ən əsas forması kimi xarici ticarət çıxış edir. Beynəlxalq kommersiya fəaliyyəti ölkənin xalq təsərrüfatının inkişafının və iqtisadi vəziyyətinin sabitləşməsinin ən bacib amilinə çevrilir. Hazırki dövrdə sənaye cəhətdən inkişaf etmiş ölkələrin elə bir sahəsi yoxdur ki, həmin sahə xarici iqtisadi fəaliyyət sferasına cəlb olunmamış olsun. Bu mövzu məhz buna görə öz aktuallığı ilə fərqlənir və çoxlu sayda müəssisələrin beynəlxalq kommersiya fəaliyyətinə cəlb olunması nəticəsində onların yolunda bu fəaliyyətin tənziçlənməsi ilə bağlı olan müxtəlif səpkidə problemlər yaranır.

Bütün ölkələrdə xarici ticarətin tənzimlənməsi – ölkələr arasındakı iqtisadi əməkdaşlığın əsas formasını təşkil edir və bu və ya digər formada dövlət tərəfindən həyata keçirilir. Bu cür tənzimlənmənin dərəcəsi ölkənin qarşıısında duran iqtisadi, sosial və siyasi məsələlərdən və dünyadakı vəziyyətdən asılı olaraq müəyyən olunur.

Respublikamızda beynəlxalq kommersiya fəaliyyətinin müasir inkişaf mərhələsi əvvəlki illərdə mövcud olan forma və metodların kökündən dəyişilməsi ilə bağlıdır. Müstəqillik əldə olunmamışdan əvvəlki illərdə müəssisələrin xarici iqtisadi əməkdaşlıqda iştirak etməsi xeyli çətin bir iş idi və bütün bu proseslər mərkəzləşdirilmiş qaydada vahid bir mərkəzdən idarə olunurdu. Hazırki dövrdə isə dövlət və yaxud xüsusi sektora aidiyyatından, təşkilati formasından, əmlakının ölçüsündən, fəaliyyət dairəsindən, mülkiyyətin tərkibindən asılı olmayaraq bütün

müəssisələr beynəlxalq iqtisadi əməkdaşlıqda fəal surətdə iştirak etmə hüququna malikdirlər.

Beynəlxalq kommersiya fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi, həmin fəaliyyətin maliyyə, valyuta, kredit, gömrük-tarif və qeyri-tarif tənzimlənməsini, ixracat üzərində nəzarətin təşkil olunmasını, idxal və ixrac olunan malların sertifikatlaşdırılması sahəsində siyasətin müəyyən olunmasını özündə cəmləşdirir. Tənzimlənmənin bütün bu istiqamətləri bir qayda olaraq mövcud qanunvericiliyə əsaslanırlar.

Beynəlxalq kommersiya fəaliyyəti dünya üzrə mövcud olan təsərrüfat əlaqələrinin əsas formalarından biridir. Öz inkişaf dinamikasına və dəyər göstəricilərinə görə bu fəaliyyət növü dünya istehsalının, kapitalın hərəkətinin və xarici iqtisadi əlaqələrin digər növlərinin artım templərini üstələyir ki, bu da müasir dünya iqtisadiyyatının ən vacib xarakteristikalarından biridir.

Kommersiya fəaliyyətinin dünya iqtisadiyyatında rolunun artması, həmçinin onun intensiv inkişafı obyektiv olaraq qloballaşma prosesi ilə  və çox sayda dünya ölkələrinin bir-biri ilə qarşılıqlı asılılığının güclənməsi ilə sıx surətdə bağlıdır. Dünya əmtəə mübadiləsinin intensivləşməsinə beynəlxalq əmək bölgüsünün inkişafında olan əhəmiyyətli irəliləyiş də mühüm imkan yaratmışdır.

Beynəlxalq kommersiya fəaliyyətində baş verən ticarət mübadiləsi sferasında beynəlxalq rejimlər və beynəlxalq sazişlər Ümumdünya Ticarət Təşkilatı (ÜTT) çərçivəsində işlənilib hazırlanmışdır ki, bu təşkilat da öz növbəsində çoxtərəfli müqavilələr bazasında fəaliyyət göstərərək bütün dünya ticarəti üzrə əsas prinsipləri və qaydaları müəyyən etmişdir. ÜTT-nin fəaliyyəti idxalat-ixracat əməliyyatlarının liberallaşdırılmasına və o cümlədən, tarif və qeyri-tarif maneələrinin aşağı salınmasına və aradan qaldırılmasına yönəldilmişdir.

İnkişaf etməkdə olan ölkələrin xarici ticarət siyasətlərinin əhəmiyyətli dərəcədə liberallaşdırılması, onlar arasında beynəlxalq kommüersiya fəaliyyətinin canlandırılması nəticəsində beynəlxalq ticarət mübadiləsi daha da artmış və bərqərar olmuşdur. Beynəlxalq kommersiya fəaliyyətinin daha sürətli inkişafına informasiya texnologiyaları və telekommunikasiya vasitələri sferasında baş vermiş

inqilab da əhəmiyyətli dərəcədə təsirini göstərmişdir.

Beynəlxalq kommersiya fəaliyyətinin inkişaf etməsinin vacib amillərindən biri də inkişaf etməkdə olan ölkələrdə ticarət sazişləri sistemlərinə əsasən idxal olunan materiallardan və komponentlərdən hazırlanmış sənaye mallarının reeksportunun əhəmiyyətli dərəcədə artımı ilə bağlıdır.

Ticarətin coğrafi bölüşdürülməsində də müəyyən dəyişkənliklər olmuşdur. İnkişafda etməkdə olan ölkələrin ticarəti daimi olaraq artmaqda davam edir, daha çox isə yeni sənaye ölkələrindən daxil olan mal axınlarının həcmləri yüksək templə artmaqdadır. Çinin, Hindistanın və Braziliyanın xarici ticarəti dinamik inkişafdadır, bu isə onları dünyanın ən iri ticarət ölkələri siyahısına daxil olmalarına imkan vermişdir (cədv.1).

**Cədvəl 1: Dünya ticarəti üzrə 2017-ci il üzrə idaxalat və ixracatın həcmləri**

| | **İdxalat/İmport** | | **İxracat/Eksport** | |
|---|---|---|---|---|
| | mlrd.ABŞ dolları | xüsusi çəki, % | mlrd.ABŞ dolları | xüsusi çəki, % |
| **Bütün dünya üzrə cəmi** | **18000** | **100** | **17779** | **100** |
| Avropa Birliyi | 2244 | 12.5 | 2259 | 12.7 |
| ABŞ | 2409.5 | 13.4 | 1546.7 | 8.7 |
| Çin Xalq Respublikası | 1841.9 | 10.2 | 2363.3 | 13.1 |
| Qonkonq | 589.9 | 3.3 | 550.3 | 3.1 |
| Hindistan | 447.2 | 2.5 | 298.4 | 1.7 |
| Braziliya | 157.5 | 0.9 | 217.8 | 1.2 |

**Mənbə:** (https://knoema.ru/atlas/topics) (20.02.2018)

Cədvəl 1-dən göründüyü kimi Çin Xalq Respublikasının (Qonkonqla birlikdə), Hindistanın və Braziliyanın payına dünya idxalatının 16,9%-i, ixracatının isə - 19,1%-i düşür.

Dünya ticarətinin strukturunda baş verən dəyişikliklər beynəlxalq kommersiya fəaliyyətinin tərkibində informasiya texnologiyaları və rabitə vasitələri xidmətlərinin xüsusi çəkisinin əhəmiyyətli artımına və eyni zamanda xammal malları və kənd təsərrüfatı məhsulunun payının azalmasına gətirib çıxarmışdır. İnformasiya texnologiyaları dövründə və xidmətlər bazarının xüsusi həcminin artdığı bir zamanda bu cür proses təbii hal kimi qəbul edilir və inkişaf etmiş dünya dövlətləri əsas diqqətlərini bu istiqamətə yönəltmişlər.

**Cədvəl 2: Yüksək texnoloji məhsulların 2016-cı il üzrə idaxalatının həcmləri, mlrd. ABŞ dolları**

| | 2016 | 2015 | 2010 | 2000 | 1990 |
|---|---|---|---|---|---|
| 1. Çin Xalq Respublikası | 496.0 | 549.8 | 406.1 | 41.7 | - |
| 2. Almaniya | 189.6 | 185.6 | 158.5 | 85.5 | 42.5 |
| 3. ABŞ | 153.2 | 154.3 | 145.9 | 197.5 | 89.5 |
| 4. Sinqapur | 126.3 | 131.0 | 127.0 | 73.9 | 15.0 |
| 5. Cənubi Koreya Respublikası | 118.4 | 126.5 | 121.5 | 54.3 | 10.9 |
| 6. Fransa | 103.8 | 104.3 | 99.7 | 58.8 | 26.9 |
| 7. Yaponiya | 92.9 | 91.5 | 122.1 | 128.9 | 66.7 |
| 8. Böyük Britaniya | 68.3 | 69.4 | 60.2 | 71.7 | 34.6 |
| 9. Malayziya | 55.6 | 57.3 | 59.3 | 47.0 | 6.1 |
| 10. İsveçrə | 54.9 | 53.3 | 42.7 | 15.9 | 9.3 |

**Mənbə:** (https://knoema.ru/atlas/topics) (20.02.2018)

Cədvəl 2-nin göstəricilərinə görə dünya İnkişafı İndikatorlarından (Word Development Indicators) yüksək texnoloji məhsulların ixracatına görə Çin və yüksək inkişafda olan digər ölkələr (Sinqapur, Cənubi Koreya, Malayziya) birinci onluq siyahısındadırlar .

Buna baxmayaraq dünya mal dövriyyəsinin böyük bir hissəsi - ixracat-idxalat əməliyyatlarının üçdə bir hissəsi – sənaye cəhətdən inkişaf etmiş aparıcı ölkələrin (ABŞ, Almaniya, Yaponiya) payına düşür və dünyanın ən iri ticarət ölkələrinin siyahısında Fransa, Böyük Britaniya, İtaliya, Kanada, Niderland, Belçika kimi ölkələr aparıcı yerləri tuturlar.

Beləliklə, beynəlxalq ticarətin və həmçinin beynəlxalq kommersiya fəaliyyətinin aşağıdakı müasir inkişaf tendensiyalarını (meyllərini) ayırmaq olar:

1. Beynəlxalq ticarətin dinamikası yüksək inkişaf tempi ilə xarakterisə olunur.

2. Xarici ticarətin ümumi artımına baxmayaraq, onun ayrı-ayrı ölkələr və regionlar üzrə dinamikası bir-birindən fərqlənir.

3. Xarici ticarət, ölkənin daxili təsərrüfatının ümumi templəri ilə müqayisədə daha tez templərlərlə artır.

4. Bir çox ölkələrin ixracat və idxalat kvotaları artmışdır.

5. Dünya ticarətinin coğrafi konfiqurasiyası müharibədən sonrakı dövrdə özünün assimmetrikliyi ilə xarakterizə olunur.

6. Beynəlxalq ticarətin əsas axını inkişaf etmiş ölkələrin qarşılıqlı ticarətinin

payına düşür.

7. Dünya ticarətinin əmtəə strukturu da dəyişməkdədir:

- beynəlxalq mal dövriyyəsinə cəlb olunan malların axını diversifikasiya olunur (şaxələnir);

- beynəlxalq ticarətdə hazır məmulatların xüsusi artmaqdadır;

- kimya məhsulları ilə satışın həcmləri artmaqdadır;

- xammal malları, yanacaq və həmçinin ərzaqla beynəlxalq ticarətin payı azalmaqda davam edir.

**Cədvəl 3: Müxtəlif iqtisadiyyatlar və ölkələr üzrə mallarla xarici ticarət, milyard ABŞ dolları ilə**

| | **İxracat** | | **İdxalat** | |
|---|---|---|---|---|
| | **2011** | **2016** | **2011** | **2016** |
| **Bütün dünya üzrə** | **15986** | **18339** | **16150** | **18416** |
| İnkişaf etməkdə olan iqtisadiyyatlar | 6988 | 7899 | 6591 | 7342 |
| İnkişaf etməkdə olan ölkələr: Afrika | 349 | 611 | 494 | 567 |
| İnkişaf etməkdə olan ölkələr: Amerika | 886 | 1111 | 932 | 1097 |
| İnkişaf etməkdə olan ölkələr: Asiya və Okeaniya | 5754 | 6178 | 5166 | 5678 |
| Keçid iqtisadiyyatı (tranzit) iqtisadiyyatları | 448 | 811 | 376 | 587 |
| İnkişaf etmiş iqtisadiyyatlar | 8550 | 9629 | 9183 | 10486 |
| **Seçmə qrup ölkələr üzrə** | | | | |
| İnkişaf etməkdə olan iqtisadiyyatlar, Çinlə birlikdə | 4891 | 6001 | 5003 | 5599 |
| İnkişaf etməkdə olan iqtisadiyyatlar, LDCs ilə | 6841 | 7697 | 6373 | 7133 |
| LDCs | 147 | 203 | 218 | 209 |
| LLDCs | 141 | 221 | 176 | 186 |
| SIDCs (UNCTAD) | 15 | 24 | 34 | 36 |
| HIPCs (IMF) | 101 | 119 | 159 | 154 |
| BRICS | 2904 | 3086 | 2374 | 2893 |
| G20 | 9691 | 10909 | 9844 | 11442 |

**Mənbə:** (UNCTAD. Handbooks of statistics. 2017. https://unctad.org/tdstat42_en.pdf) (20.02.2018)

Cədvəl 3-ə nəzər yetirsək, görərik ki, bütün dünya üzrə ixracat və eləcə də idxalatın həcmlərində inkişaf etmiş ölkələrin həcmləri və payı hələ də yüksək olaraq qalmaqdadır. Belə ki, 2011-ci ildə bu göstərici ixracat üzrə - 52.5%, 2016-cı ildə isə 53,5%, idxalat üzrə 2011-ci ildə və həmçinin 2016-ci ildə eyni bir rəqəm - 56,9% təşkil etmişdir. İnkişaf etməkdə olan iqtisadiyyatların dünyada payı ixracat üzrə 2016-cı ildə - 43,7%, keçid iqtisadiyyatı ölkələri üzrə - 2,8% təşkil etmişdir. Lakin onu da qeyd eləmək lazımdır ki, baxmayaraq ki, bu göstərici inkişaf etmiş

iqtisadiyyatlar üzrə yüksək olsa da, dinamikada onun aşağı düşmə tendensiyası nəzərə çarpır. 2006-cı ildə bu göstərici ixracat üzrə: inkişaf etmiş iqtisadiyyatlar üzrə - 58,9%, inkişaf etməkdə olan iqtisadiyyatlar üzrə isə - 37,4% olmuşdu, yəni inkişaf etmiş iqtisadiyyatların payı 2% aşağı düşmüş, inkişaf etməkdə olan iqtisadiyyatlar üzrə isə xüsusi çəki 6,3% artmışdır.

Cədvəldən göründüyü kimi, dünya üzrə ixracat və idxalatda əsas inkşaf etmiş ölkələrin (G20) həcmlərinin və payının yüksək olmasına baxmayaraq, inkişaf etməkdə olan iqtisadiyyatlar günü-gündən güclənməkdədirlər. O biri tərəfdən də, ən az inkişaf etmiş ölkələrin, LDCs (least developinq countries, 47 ölkə), dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələrin, LLDCs (landlocked developinq countries 32 ölkə, Azərbaycan da daxil olmaqla), inkişaf etməkdə olan kiçik ada dövlətlərinin SIDCs (small island developing states, UNCTAD-ın təsnifatı ilə, 57 dövlət), çox iri borcları olan kasıb ölkələrin, HIPCs (heavily indebted poor countries, Beynəlxalq Valyuta Fondunun (İMF) təsnifatı ilə, 37 ölkə) həcmləri və payları hələ də aşağıdır.

Cədvəldə göstərilən məlumatların təhlili göstərir ki, bütün dünya üzrə ixracatın həcmləri 2011-ci ilə nisbətən 114,7%, idxalatın həcmləri isə 114,0% artmışdır. Ən az inkişaf etmiş ölkələrin və dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələrin ixracatı üzrə artım göstəriciləri bu dövr ərzində müvafiq olaraq 138,1% və 156,7% təşkil etmişdir.

Beynəlxalq kommersiya fəaliyyətinin qlobal mal (əmtəə) dövriyyəsinin axınları əsasən «Şimal-Şimal» ticarəti istiqamətində gedir. Belə ki, 2016-cı ilin məlumatlarına əsasən təqribən 15,8 trilyon ABŞ dolları təşkil eləyən ümumi qarşılıqlı dövriyyənin 37%-i (üçdə birindən də çox hissəsi), yəni 5,8 trilyon dolları məhz bu istiqamətin payına düşür ki, bu istiqamətdə əsasən müxtəlif səviyyədən olan inkişaf etmiş ölkələr çıxış edirlər (şək. 1). «Cənub-Cənub» ticarəti istiqaməti üzrə, yəni nkişaf etməkdə olan və keçid iqtisadiyyatı (tranzit) ölkələrin qarşılıqlı mal dövriyyəsinin həcmi 4,3 trilyon dollar, yəni ümumi dövriyyənin dörddə birindən çoxu (27%) təşkil etmişdir. Şimal və Cənub istiqamətləri arasında qarşılıqlı mal mübadiləsi həmin ildə 5,7 trilyon dollar (36%) olmuşdur (şəkil 1).

**Şəkil 1: Global ticarət axınları 2016-cı il üzrə**




**Mənbə:** UNCTAD. Handbooks of statistics. 2017. https://unctad.org/tdstat42_en.pdf (20.02.2018)

Şəkil 1-dən göründüyü kimi, Şimal-Şimal və Şimal-Cənub istiqamətlərində beynəlxalq kommersiya fəaliyyəti daha intensiv şəkildə hərəkət edir.

## 1.2. Beynəlxalq kommersiya fəaliyyətinin müasir inkişaf meylləri

Müasir dövrdə beynəlxalq kommersiya fəaliyyəti sahəsində vəziyyət dəyişməkdədir. Bunun da əsas səbəblərindən biri də qloballaşma amilinin təsirinin güclənməsidir. Qloballaşmanın da ən əhəmiyyətli tərəfi elmi-texniki inqilabın mövcud olması və ondan yaranan alətlərin, məsələn, internet texnologiyalarının meydana çıxmasıdır.

XX əsrdə dünya təsərrüfatında dünya təsərrüfatının ənənəvi formaları üstünlük təşkil etmiş və inkişaf etmişlər ki, bunlara beynəlxalq əmək bölgüsü, transmilli şirkətlərin (TMŞ) fəaliyyəti, liberallaşdırma və bir sıra digər amillər öz təsirini göstərmiş, bu inkişafdakı dəyişmələr də əsasən beynəlxalq ticarətin dəyər həcmlərinin, əmtəə və coğrafi strukturunun genişlənməsi ilə bağlı olmuşdur.

Qeyd olunduğu kimi, hazırda vəziyyət dəyişməkdə davam edir və qloballaşma amilləri dünya ticarətinə tamamilə bağqa cür təsir göstərirlər və onu

daha çox virtual səviyyəyə «çıxarırlar». Tamamilə yeni mallar, yeni texnologiyalar, mallar və xidmətlərlə ticarətdə yeni texnologiyalar meydana gəlir. Bütün bunlar da yeni valyutaların yaranmasına, beynəlxalq kommersiya əməliyyatlarına görə aparılan hesablaşmalarda dəyişikliklərin meydana çıxmasına gətirib çıxarır. Əlavə dəyərin yaradılmasının qlobal zəncirlərində də dəyişliklər baş verir. Beynəlxalq ticarətin yeni arxitekturası formalaşır ki, bu da beynəlxalq internet ticarətin formalaşıb bərqərar olması ilə bağlıdır.

Bütün bu dəyişikliklər yaxın gələcəkdə ticarət siyasətinin dəyişilməsinə, onun yeni keyfiyyətinin yaranmasına, beynəlxalq kommersiya fəaliyyətinin həyata keçirilməsində yeni istiqamətin - «beynəlxalq ticarətin neoliberrallşdırılmasının» formalaşmasına gətirib çıxaracaqdır. Beynəlxalq kommersiya fəaliyyətində yeni mexanizmlər də yaranacaqdır ki, bunlar da tərəfləri, bir tərəfdən, kiber-fırldaqçılıqla, satıcıların və alıcıların insafsızlığı, malların göndərilmə müddəti və bir sıra digər problemlərlə  bağlı olan məsələlərin həll olunması ilə məşğul olmağa vadar edəcək, digər tərəfdən isə, aparılan yeni ticarət siyasəti yeni qaydaların yaranmasına, beynəlxalq təşkilatların, o cümlədən ÜTT-nin fəaliyyətində yeni istiqamətlərin formalaşmasına gətirib çıxaracaqdır.

Qloballaşma prosesi müasir mərhələdə dünya iqtisadiyyatının, o cümlədən beynəlxalq kommersiya fəaliyyətinin inkişafına çox böyük təsir göstərir və o da öz növbəsində beynəlxalq iqtisadi münasibətlərin formalaşmasında yeni tendensiyaları formalaşdırır. Beynəlxalq iqtisadi münasibətlərin məzmunu dəyişilir, qloballaşma amilinin təsiri nəticəsində onun yeni cizgiləri, yeni inkişaf meylləri yaranır.

Cədvəl 4-dən göründüyü kimi beynəlxalq ticarətin dəyər ifadəsi ilə həcmi 7-8 dəfə artmışdır. Bu zaman inkişaf etməkdə olan ölkələr özlərinin dəyərlə həcmlərini tədricən ixracat üzrə - 11 dəfə, idxalat üzrə isə - 13 dəfə artırmışlar. Onların payı  ixracat üzrə 29.6%-dən və idxalat üzrə 24%-dən müvafiq olaraq 43,7%-ə və 40,8%-ə dək artmışdır. Aparıcı ixracatçılar siyahısında inkişaf etməkdə olan ölkələr meydana gəlmişlər və bir çox illərdir ki, onlar öz mövqelərini möhkəm

olaraq qoruyub saxlayırlar, o cümlədən, ÇXR bir çox illərdir ki, birinci yeri tutmaqdadır.

**Cədvəl 4: Beynəlxalq ticarətin həcmlərinin dinamikası, milyard dollar**

| | İllər | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | **1980** | **1990** | **2000** | **2005** | **2010** | **2014** | **2016** |
| **İxracat/Eksport** | | | | | | | |
| **Dünya üzrə - cəmi** | **2051.1** | **3495.7** | **6452.3** | **10502.5** | **15302.1** | **19003.7** | **15986** |
| İnkişaf etməkdə olan ölkələr | 608.3 | 843.1 | 2059.5 | 3808 | 6438.4 | 8485.6 | 6988 |
| Keçid iqtisadiyyatlı ölkələr | 85.5 | 118.4 | 149.6 | 353.9 | 609.1 | 763.7 | 448 |
| İnkişaf etmiş ölkələr | 1356.3 | 2534.2 | 4343.2 | 6340.7 | 8254.6 | 9754.5 | 8550 |
| **İdxalat/İmport** | | | | | | | |
| **Dünya üzrə - cəmi** | **2091** | **3609.3** | **6654.6** | **10777.6** | **15420.5** | **18987.4** | **16150** |
| İnkişaf etməkdə olan ölkələr | 502.4 | 799.6 | 1918.0 | 3424.3 | 6020.1 | 7973.7 | 6591 |
| Keçid iqtisadiyyatlı ölkələr | 83.6 | 140.1 | 91.8 | 240.2 | 453.5 | 552.9 | 376 |
| İnkişaf etmiş ölkələr | 1505 | 2669.5 | 4644.7 | 7113.2 | 8946.9 | 10460.8 | 9183 |

**Mənbə:** (https://unctad.org/en/PublicationsLibrary/tdstat42_en.pdf) (20.03.2018)

Bunun əsas səbəblərindən biri də qloballaşma amilinin təsiri altında baş verən proseslərin mövcudluğudur.

Elmi ədəbiyyatda qloballaşma haqqında ilk dəfə olaraq T.Levitt özünün «Bazarların qloballaşması» əsərində yazmışdır ki, burada o, beynəlxalq şirkətlər tərəfindən istehsal olunan ayrı-ayrı məhsullar bazarlarının qovuşması fenomeni haqqında açıqlama vermişdir (Theodore Levitt, 1983, 92). «Qloballaşma» ifadəsindən həmçinin R.Robertson da istifadə etmişdir, o, öz məqaləsində «globality» sözündən istifadə etmiş və sonradan bu fenomeni «qloballaşma» kimi izah etmişdir. 1990-cı ildə Harvard biznes məktəbinin məsləhətçisi Keniçi Omaye «Sərhədsiz dünya» kitabını nəşr etdirmiş və burada qeyd etmişdir ki, bütün əsas proseslər qlobal bazar məkanına tabedirlər, əsas subyekt kimi isə «qlobal firmalar» çıxış edirlər (Kenichi Ohmae, 1994).

Müasir zamanda qloballaşma anlayışından sosiologiyada, mədəniyyətşünaslıqda, tarixdə, coğrafiyada, iqtisadi elmlərdə çox tez-tez istifadə edirlər.

Qloballaşma ifadəsi altında – bütün dünya ölkələrinin bir-birindən artmaqda olan qarşılıqlı iqtisadi asılılığı başa düşülür ki, bunun nəticəsində də mallar, xidmətlər və kapitalın dünya axını ilə byn sövdələşmələrin həcmi və rəngarəngliyi artır, texnologiyaların bir-birinə cəld və geniş surətdə qarışması (diffuziyası) baş verir.

Qeyd eləmək lazımdır ki, qloballaşmanın təzahürlərinə olan mövcud yanaşmalar – vahid kommunikasiya sistemlərinin inkişafı, xarici iqtisadi əlaqələrin liberallaşması, transmilli şirkətlərin fəaliyyətinin aktivləşməsi, transmilli capital axınlarının həcmlərinin və intensivliyinin artması və s. bu kimi amillərlə xarakterizə olunur.

Beynəlxalq kommersiya əməliyyatları – müxtəlif ölkələrdə fəaliyyət göstərən tərəf-müqabillər arasında qarşılıqlı faydalılıq əsasında həyata keçirilən əsas və ikinci dərəcəli (yardımçı) əməliyyatların məcmusundan ibarətdir. Əməliyyatların həyata keçirilməsindən əsas məqsəd – xarici ticarət müqavilələri və yaxud kontraktlarının bağlanılması yolu ilə rəsmiləşdirilən sövdələşmələrin reallaşdırılmasından ibarətdir.

Beynəlxalq kommersiya əməliyyatları – müxtəlif dövlətlərin nümayəndələrindən ibarət olan subyektlərin qarşılıqlı fəaliyyətinin bir növüdür və bunun nəticəsində də müqavilənin (kontraktın) predmetinin dövlət sərhədindən keçməsi baş verir. Başqa sözlə, beynəlxalq kommersiya əməliyyatları –xarici iqtisadi fəaliyyətlə bağlı olan sövdələşmənin özünün və yaxud onun bir hissəsi olan ayrı-ayrı hərəkətlərdən ibarətdir və bunlar da özünü xidmətlərin təqdim olunmasında, işlərin görülməsində, malların satılmasında və yaxud maliyyə ödənişlərində ifadə edir.

Beynəlxalq kommersiya əməliyyatlarının həyata keçirilməsi fəaliyyət subyektlərinin və obyektlərinin olmasını tələb edir. Bu cür əməliyyatların subyektləri kimi dövlət tərəfindən xarici bazara çıxış hüququ verilmiş müxtəlif şirkətlər çıxış edirlər. Beynəlxalq kommersiya əməliyyatlarının obyektləri isə özünü müxtəlif formalarda (alqı-satqı, əməkdaşlıq və s.) ifadə edən proseslər çıxış

edirlər. Fəaliyyət obyektlərindən asılı olaraq kommersiya əməliyyatlarının müxtəlif növlərini fərqləndirirlər.

Beynəlxalq kommersiya əməliyyatları əsasən üç qruplara bölünürlər:

1. Məhsulun alqı-satqısına yönəldilmiş əməliyyatlar.

2. Xidmətlərin alqı-satqısına yönəldilmiş əməliyyatlar.

3. İntellektual (əqli) fəaliyyətin nəticələrinin alqı-satqısına yönəldilmiş əməliyyatlar.

Beynəlxalq kommersiya fəaliyyəti XXI əsrdə öz-özlüyündə müqavilələr və sazişlərlə rəsmiləşdirilmiş çoxsəviyyəli münasibətlər sistemi kimi çıxış edir. Müasir kommersiya fəaliyyəti XVIII və XIX əsrlərdəkindən əhəmiyyətli dərəcədə fərqlənir. Hazırki dövrdə o, həm bazis amillərinin təsiri altında yaranmış və yeni keyfiyyət parametrlərini qazanmış, həm də yaxınlarda yaranmış spesifik xüsusiyyətlərə malikdir.

Beynəlxalq kommersiya fəaliyyətinin XXI əsrin ikinci onilliyində inkişafına xas olan meyllər toplusunu qeyd eləmək olar ki, burada bir neçə altqruplar özünü biruzə verir:

1) uzun müddət ərzində (demək olar ki, XIX əsrdən başlayaraq) fəaliyyət göstərən bazis meylləri;

2) XX əsrdə formalaşmış meyllər;

3) ancaq XXI əsrdə özünü biruzə verən ən müasir meyllər.

Meyllərin çoxsaylılığı beynəlxalq kommersiya fəaliyyətinə təsir göstərən amillərin sayının əhəmiyyətli dərəcədə olması, onların həyata keçirildiyi şəraitlərin çoxcinsliliyi və s. ilə bağlıdır.

Bazis meyllərinin nəticələrindən biri XX əsrdə biri dünya üzrə mal dövriyyəsinin ÜDM və sənaye istehsalı ilə müqayisədə daima yüksələn sürətlə artmasıdır. Lakin XXI əsrin ikinci onilliyində dünya ticarətinin dövriyyəsinin üstün artımının yavaşımışı ilə yanaşı dünya üzrə Ümumi Daxili Məhsulun da artımında yavaşımalar izlənilir (qrafik 1).

Qrafik 1=dən göründüyü kimibütün dünya üzrə ÜDM həcmləri 2008-ci ilin dünya böhranından sonra kəskin surətdə olan azalma templəri digər illər ərzndə

tədricən sabitləşmə mərhələsinə keçə bilmişdir. Artıq 2010-ci ildə artım templəri sürətlənmiş və 5,1% təşkil etmişdir. Doğrudur, 2011-ci ildən başlayaraq orta illik artım templəri göstəriciləri sabitləşmiş və bu rəqəm 2018-ci il də daxil olmaqla stabil olaraq 3,0-3,8% çivarında qalmışdır.

**Qrafik 1: Bütün dünya üzrə ÜDM-in artım templəri, %**




| İllər | Göstərici |
|---|---|
| 2007 | 1,0 |
| 2008 | 3,1 |
| 2009 | -0,8 |
| 2010 | 5,1 |
| 2011 | 3,8 |
| 2012 | 3,1 |
| 2013 | 3,3 |
| 2014 | 3,3 |
| 2015 | 3,0 |
| 2016 | 3,1 |
| 2017 | 3,2 |
| 2018 | 3,1 |
| 2019 (proqnoz) | 3,0 |
| 2020 (proqnoz) | 2,9 |

**Mənbə:** CIA World Factbook (20.03.2018)

XXI əsrin ikinci onilliyində ÜDM-in həcminə görə TOP-10-luq sırasında birinci yeri ABŞ tutmuşdur (qrafik 2). ABŞ-ın liderliyi çox nəzərəçarpan və danılmazdır, hətta 3-cü yerdən 10-cu yerə kimi ölkələrin iqtisadiyyatlarını cəmləsək belə, Amerikanın iqtisadiyyatı yenə də çox olacaqdır. Lakin, qeyd eləmək lazımdır ki, cari perspektivdə Çin ABŞ-ı yerindən tərpədə biləcəkdir ki, buna da baş verən dəyişikliklərin dinamikası və inkişaf proqnozları işarə edirlər.

Onu da qeyd eləmək lazımdır ki, Çin Xalq Respublikası alıcılıq qabiliyyəti paritetinə görə (PPP, purchasing power parity) dünyada birinci yeri tutur və 2017-ci ilin nəticələrinə görə 23,3 trilyon ABŞ dolları təşkil etmişdir; ABŞ üzrə bu göstərici 19,4 trilyon ABŞ dolları olmuşdur (https://ru.wikipedia.org/wiki).

**Cədvəl 5. ÜDM-nin həcminə görə TOP-10 ölkələr. Dünyanın nəhəng iqtisadiyyatları ÜDM ABŞ dolları ilə və qlobal yekunda pay**

| | **Beynəlxalq Valyuta Fondunun (BVF, IMF) hesablamalarına görə** | | | | **Dünya Bankının (DB, WB) hesablamalarına görə** | |
|---|---|---|---|---|---|---|
| | 2018-ci il | | 2017-ci il | | 2017-ci | |
| | mlrd.ABŞ dolları | ölkənin payı, % | mlrd.ABŞ dolları | ölkənin payı, % | mlrd.ABŞ dolları | ölkənin payı, % |
| ABŞ | 20 494 | 24,18% | 19 391 | 25,76% | 19 391 | 24,07% |
| Çin | 13 407 | 15,82% | 12 015 | 15,96% | 12 238 | 15,12% |
| Yaponiya | 4 972 | 5,87% | 4 872 | 6,47% | 4 872 | 6,02% |
| Almaniya | 4 000 | 4,72% | 3 685 | 4,90% | 3 677 | 4,56% |
| Böyük Britaniya | 2 829 | 3,34% | 2 625 | 3,49% | 2 622 | 3,26% |
| Fransa | 2 775 | 3,27% | 2 854 | 3,79% | 2 583 | 3,19% |
| Hindistan | 2 717 | 3,21% | 2 611 | 3,47% | 2 601 | 3,28% |
| İtaliya | 2 072 | 2,45% | 1 938 | 2,57% | 1 935 | 2,40% |
| Braziliya | 1 868 | 2,20% | 2 055 | 2,73% | 2 056 | 2,54% |
| Kanada | 1 711 | 2,02% | 1 652 | 2,19% | 1 653 | 2,03% |
| **10 ölkə üzrə cəmi:** | **56 845** | **67,08%** | **53 698** | **71,33%** | **53 628** | **66,48%** |
| **Dünya üzrə cəmi:** | **84 740** | | **75 278** | | **80 935** | |

**Mənbə:** Dünya Bankı: https://golos.io/ru--yekonomika/@romapush/mirovaya-ekonomika-v-cifrakh-2017-g-i-prognoz-izmenenii-na-2020-i-2030-gg
ttps://ru.wikipedia.org/wiki https://data.worldbank.org/indicator/NY.GDP.MKTP.CD?end
IMF https://www.imf.org/external/pubs/ft/weo/2018/01/weodata/weorept.aspx?sy (20.03.2018)

**Qrafik 2: ÜDM-nin həcminə görə TOP-10 ölkələr. Dünyanın nəhəng iqtisadiyyatları ÜDM ABŞ dolları ilə və qlobal yekunda pay, BVF məlumatlarına əsasən**



**Mənbə:** Dünya Bankı: https://golos.io/ru--yekonomika/@romapush/mirovaya-ekonomika-v-cifrakh-2017-g-i-prognoz-izmenenii-na-2020-i-2030-gg ttps://ru.wikipedia.org/wiki
https://data.worldbank.org/indicator/NY.GDP.MKTP.CD?end
IMF https://www.imf.org/external/pubs/ft/weo/2018/01/weodata/weorept.aspx?sy (20.03.2018)

Cədvəl 5 və bunun göstəriciləri əsasında tərtib olunmuş qrafik 2-dən göründüyü kimi, ABŞ-ın payına dünya iqtisadiyyatının təxminən dörddə biri (24,2%), pul ifadəsi ilə isə 20 trilyon dollar düşür. Ikinci yeri isə yeganə təqib edən və yaxın gələcəkdə liderliyə namizəd olan - Çin Xalq Respublikası tutur (15,8% və yaxud 13 trilyon dollar). Avropa Birliyinin iqtisadiyyatlarının cəmi demək olar




ki, həmin məbləği təşkil edə bilər, lakin bu, dövlətlər üzərində qurulan birlikdir. Əgər ancaq dövlətləri nəzərə alsaq, üçlüklərin siyahısını Yaponiya qapalayır (5,9% və yaxud 4,4 trilyon dollar).

**Qrafik 3. Dünyanın müxtəlif ölkə qruplarının ÜDM-də payı, Beynəlxalq Valyuta Fondunun məlumatlarına əsasən, 2017-ci il üzrə**

**Mənbə:** https://data.worldbank.org/indicator/NY.GDP.MKTP.CD?end

Qrafik 3-ün məlumatları göstərir ki, dünya iqtisadiyyatında aparıcı yerləri iqtisadi cəhətdən inkişaf etmiş ölkələr tuturlar və məhz buna görə də həmin ölkələr beynəlxalq kommersiya fəaliyyətində üstün paya malik olmaqla bu cür fəaliyyətin əsas istiqamətlərini müəyyən edirlər.

Bütövlükdə götürsək, inkişaf etmiş ölkələrin ÜDM-nin həcmi ilə formalaşan bazarı və inkişaf etməkdə olan ölkələrin ÜDM-nin həcmi arasındakı fərq hələ də yüksək olmaqda qalır və bunu qrafik 3-ün göstəriciləri də bir daha sübut edir.

Beynəlxalq ticarətin artım templəri 1980-ci illərdən daim yuxarıya doğru artım istiqamətində olmuşdur. Qeyd olunduğu kimi bu artım əsasən inkişaf etmiş ölkələr hesabına, 1990-cı illərin sonundan isə bazarı formalaşmaqda olan Çin Xalq Respublikasının və Asiyanın digər sıçrayışlı inkişafda olan ölkələri (Tayvan, Sinqapur, İndoneziya, Malayziya və digərləri) hesabına baş vermişdir. Sonradan buna Braziliya, Rusiya, Cənubi Afrika kimi ölkələrin inkişaflı artımı da öz xüsusi təsirini göstərmişdir.

Qrafik 4-ə nəzər salsaq görərik ki, inkişaf etmiş ölkələrin ÜDM-də xüsusi çəkisi formalaşan bazarı və inkişaf etməkdə olan ölkələrindəki göstəricilərdən fərqlənir.

**Qrafik 4:. Beynəlxalq ticarətin dünya üzrə ÜDM-də xüsusi çəkisi (1980–2016-cı illər)**




1 İnkişaf etmiş ölkələrin ÜDM-i (mübadilə məzənnəsinə görə), trilyon ABŞ dolları

2 Formalaşan bazarı və inkişaf etməkdə olan ölkələrin ÜDM-i (mübadilə məzənnəsinə görə), trilyon ABŞ dolları

3 Mallar və xidmətlərlə beynəlxalq ticarətin ÜDM-də payı (mübadilə məzənnəsinə görə), %-lə

**Mənbə:** IMF, World Economic Outlook Database, April 2017 (20.02.2019)

Qrafik 4-dən göründüyü kimi 1980-2016-cı illər ərzində inkişaf etmiş ölkələrin ÜDM artım templəri inkişafda olan ölkələrin artım templərindən az

olmasına baxmayaraq, ÜDM-in mütləq göstəriciləri hələ də çox yüksək və əlçatmaz bir səviyyədə qalmışdır.

Baxmayaraq ki, inkişaf etmiş ölkələr dünya iqtisadiyyatında mühüm yerləri tuturlar, onların artşm templəri müxtəlif onillklər ərzində xeyl aşağı düşmüşdür (cədvəl 6). Bunun əksinə olaraq inkişafda olna ölkələrin artım templəri və xüsusilə də inkişafda olan Asiya ölkələrinin artım templəri 1980-ci ildən başlayaraq onillkilər ərzində (2016-cı ilədək) 6-7% arasında olmuşdur və bu da bütün düyra üzrə ümumi göstəricidən demək olar ki, 2 dəfə çoxdur. (Qrafik 5 Əlavə 2 səh-81)

**Cədvəl 6: Müxtəlif ölkələr qruplarının onilliklər ərzində orta artım templəri, 1980-2016 illər, əvvəlki dövrə nisbətən %-lə**

| | 1980-1990 | 1991-2001 | 2002-2012 | 2013-2016 |
|---|---|---|---|---|
| 1 İnkişaf etmiş ölkələr | 3,1 | 2,8 | 1,7 | 1,8 |
| 2 Avropa İttifaqı | 2,1 | 2,1 | 2,2 | 1,7 |
| 3 İnkişafda olan ölkələr - cəmi (153 ölkə) | 3,3 | 3,8 | 6,2 | 4,5 |
| 4 MDB (12 ölkə) | 0,0 | -1,9 | 5,1 | 0,4 |
| 5 İnkişafda olan ölkələr - Asiya (29 ölkə) | 6,8 | 7,1 | 8,5 | 6,8 |
| 6 İnkişafda olan ölkələr - Avropa (13 ölkə) | 1,0 | 2,0 | 4,4 | 4,1 |
| 7 Latın Amerikası (32 ölkə) | 1,8 | 3,0 | 3,8 | 1,8 |
| 8 Bütün dünya üzrə - cəmi | 3,1 | 3,1 | 4,0 | 3,4 |

**Mənbə:** IMF, World Economic Outlook Database, April 2017/
https://www.iep.ru/files/Gaidarovskie_ chtenia/2017/bishkek/dsm_25.09.17.pdf (20.03.2018)

Cədvəl 6–ın göstəricilərindən və bunların əsasında tərtib olunmuş qrafik 5-dən göründüyü kimi, 1980-2016-cı illər ərzində inkişaf etmiş ölkələrin ÜDM artım templəri inkişafda olan ölkələrin artım templərindən az olmasına baxmayaraq, ÜDM-in mütləq göstəriciləri hələ də çox yüksək və əlçatmaz bir səviyyədədir.

# II FƏSİL. BEYNƏLXALQ KOMMERSİYA ƏMƏLİYYATLARININ METODLARI. BEYNƏLXALQ KOMMERSİYA FƏALİYYƏTİNİN TƏNZİMLƏNMƏSİ

## 2.1. Beynəlxalq kommersiya fəaliyyətində həyata keçirilən beynəlxalq kommersiya əməliyyatlarının növləri və metodları

Kommersiya fəaliyyəti vasitəsilə firmanın bazardakı digər kontragentlərlə əlaqələri həyata keçirilir. Bu cür əlaqələr xarici kontragentlərlərlə (tərəf-müqabillərlə) baş verəndə bu cür fəaliyyət beynəlxalq kommersiya fəaliyyəti kimi nəzərdən keçirilir.

Firmalar, bir qayda olaraq, beynəlxalq kommersiya fəaliyyətinin (beynəlxalq ticarətin) iştirakçıları kimi müxtəlif səbəblərdən asılı olaraq çıxış edə bilirlər:

- Fimalara öz bizneslərini həyata keçirmək üçün xaricdən xammal, mal almaq və xidmətlər göstərmək lazım gəlir ki, bütün bunları yerli istehsalçılardan əldə etmək mümükn deyildir və yaxud daha aşağı keyfiyyətdə olan xammal, mal, xidmət əldə etmək olar. Məhz bu səbəbdən də onlar idxalatçılara (import) çevrilirlər.
- Bir çox firmalar özlərinin mallarını və yaxud xidmətlərini xarici bazarda satıb mənfəət əldə etmək imkanına malik olurlar və buna görə də onlar ixracatçılara (eksport) çevrilirlər.
- Digər firmalar ixracatçı (eksport) ticarət firması və yaxud idxalat-ixracat (import-eksport) kommersantları kimi fəaliyyət göstərirlər, yəni onlar müxtəlif ölkələrdə fəaliyyət göstərən alıcılarla satıcılar arasında vasitəçilik funksiyasını yerinə yetirirlər. Bu cür hallarda onlar mənfəət əldə edə bilirlər ki, bunun da məbləği dünya bazarındakı qiymətlərdən və beynəlxalq əmək bölgüsündən asılı olaraq formalaşır.

Lakin, firmanın hansı məqsədlərə görə beynəlxalq kommersiya fəaliyyəti ilə məşğul olmasından asılı olmayaraq, bütün səbəblərin əsasında - mənfəətin əldə olunması durur ki, bunu da təkcə öz ölkəsi daxilində kommersiya fəaliyyəti ilə məşğul olmaqla əldə etmək mümkün deyildir və bunun da səbəbləri müxtəlifdir

(bu cür mallara və yaxud xidmətlərə ölkə daxilində tələbin olmaması, bazarın tam doymuş halda olması və s.).

Bütün bunlardan asılı olaraq beynəlxalq kommersiya fəaliyyətinin əsas məqsədi mənfəət əldə etməkdən ibarətdir və bu da onun mahiyyətini müəyyən edən əsas funksiyadır. Məhz bu funksiyanın həyata keçirilməsi səbəbindən beynəlxalq kommersiya fəaliyyəti həm xarici, və həm də daxili amillərin təsiri altında öz inkişafını əldə edir.

Beləliklə, beynəlxalq kommersiya fəaliyyətinin mahiyyəti – beynəlxalq ticarət əməliyyatlarının həyata keçirilməsi vasitəsilə mənfəətin əldə olunmasından ibarətdir.

Beynəlxalq kommersiya fəaliyyətinin əsas funksiyası özündə bir sıra törəmə və yaxud tabelikdə olan funksiyaları cəmləşdirir ki, onların da həyata keçirilməsi, özlüyündə beynəlxalq kommersiya fəaliyyətinin mahiyyətini tam açıqlayır. Bunlara aşağıdaki funksiyalar aid oluna bilirlər: bazarın öyrənilməsi, xarici tərəf-müqabilin seçilməsi, işgüzar danışıqlar (əməliyyatlardan qabaq yerinə yetirilən fəaliyyət), malların və xidmətlərin alqı-satqısı üzrə kontraktların (sazişlərin, müqavilələrin) bağlanılması və onların yerinə yetirilməsi funksiyaları.

Beləliklə, beynəlxalq kommersiya fəaliyyətinin məzmununu – mallar və xidmətlərlə, elmi-texniki və istehsalat əməkdaşlığının nəticələri ilə beynəlxalq mübadilənin hazırlanması və həayata keçirilməsi üzrə əməliyyatlar təşkil edirlər.

Ticarət və kommersiyaya xas olan adi problemlər ilə yanaşı, beynəlxalq kommersiya fəaliyyətində elə əlavə problemlər mövcuddur ki, bunlar da beynəlxalq kommersiya fəaliyyətinin inkişafına müxtəlif maneələr yaradır:

- kommersiyanın hüquqi bazasında fərqliliyin mövcud olması: bu da iştirakçı ölkələrin normativ sənədlərinin bir-birinə uyğun gəlməməsi ilə bağlıdır;
- valyuta məhdudiyyətləri (milli valyutaların mübadilə və konvertasiya olunması zəruriyyəti);
- bir sıra ölkələrdəki siyasə və bununla bağlı olan iqtisadi sabitsizlik;
- xammal, materiallar və məhsula olan dövlət standartlarındakı fərqlilik;

- bürokratik maneələr (sənəd dövriyyəsinin mürəkkəbləşdirilmiş sistemi, lüzumsuz formallıqlar, məmurların rüşvətxorluğu);
- gömrük maneələri (yüksək gömrük tarifləri, mürəkkəb qaydalar, vaxtın lüzumsuz olaraq itirilməsi);
- ayrı-ayrı mal qruplarının ixracatına və idxalatına kvota və lisenziyaların mövcud olması;
- dillə bağlı olan maneələr (bəzi hallarda kommersantlar tərəfindən xarici dilə yiyələnmənin aşağı səviyyədə olması);
- vaxt və məsafə - kredit riski və kontraktın yerinə yetirilməsi vaxtı.

Beynəlxalq kommersiya fəaliyyətinin subyektləri kimi fiziki şəxslər, firmalar, həmçinin dövlət tərəfindən xarici bazara çıxış əldə etmiş təşkilatlar çıxış edirlər. Müasir şəraitdə kommersiya fəaliyyətinin əsas subyektləri kimi öz fəaliyyətinə görə beynəlxalq olan trans-milli şirkətlər (TMŞ) çıxış edirlər ki, onlar da bu fəaliyyətin bütövlükdə dünya bazarındakı xarakterini və prinsiplərini müəyyən edirlər.

Beynəlxalq kommersiya fəaliyyətinin obyektləri kimi elə maddi proseslər çıxış edirlər ki, onlar özlərini mallarla, xidmətlərlə və istehsalat və elmi-texniki əməkdaşlığın nəticələri ilə mübadilənin həyata keçirilməsində biruzə verirlər.

Bu obyektlər də dünya bazarında həyata keçirilən kommersiya əməliyyatlarının növlərini müəyyən edirlər.

Kommersiya fəaliyyətində tərəflərin münasibətləri əsas müqavilələrin (malların alqı-satqısı müqavilələrinin) bağlanılması və onların icra olunması ilə məhdudlaşmır. Bir qayda olaraq, eyni bir vaxtda maliyyə, ödəniş (hesablaşma) əməliyyatları həyata keçirilir, malların (yüklərin) daşınması, qorunub saxlanılması, sığortalanması, girov qoyulması və s. müqavilələri bağlanılır.

Əsas və əlaqədar əməliyyatlar kompleksi daxili bazarda – ticarət əməliyyatları kimi, xarici bazarda isə - xarici ticarət əməliyyatları kimi adlandırılır.

Xarici ticarət əməliyyatları bir neçə növə bölünürlər:

- ixracat (eksport) əməliyyatları – bu zaman malların və xidmətlərin xaricə və

yaxud satıcıların milli ərazisi daxilində qeyri-rezidentlərə satışı həyata keçirilir;

- idxalat (import) əməliyyatları – bu zaman malların və xidmətlərin xaricdən və yaxud alıcıların milli ərazisi daxilində qeyri-rezidentlərdən alışı həyata keçirilir.

İxracat əməliyyatları altında aşağıdakılar başa düşülür və statistik olaraq nəzərdə tutulur:

- ölkədə istehsal olunmuş, emal olunmuş və yaxud çıxarılmış malların, həmçinin əvvəllər xaricdən gətirilmiş və yenidən emala məruz qalmış malların ölkədən ixracatı;
- əvvəllər idxal olunmuş və gömrük nəzarəti altında yenidən emal olunmuş malların ixracatı;
- ixracatçı ölkədə heç bir təkrar emala məruz qalmamış əvvəllər idxal olunmuş malların xaricə ixrac olunması.

Bu cür ixracat təkrar ixrac (reeksport) adlandırılır. Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə əsasən «malların təkrar ixracı - xarici malların bu Məcəlləyə və gömrük işi üzrə Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına uyğun olaraq, idxal gömrük rüsumları, vergilər alınmadan və ya qaytarılmaqla, həmçinin iqtisadi siyasət tədbirləri tətbiq edilmədən Azərbaycan Respublikasının gömrük ərazisindən ixrac olunmasından ibarət gömrük rejimidir» (Azərbaycan Respublikasının Gömrük Məcəlləsi, maddə 99). Bu cür hallarda mallar ilə və onların adlarını dəyişməmək şərtilə əlavə əməliyyatların həyata keçirilməsinə icazə verilir. Mallar istehlakçı ölkənin tələbinə əsasən reeksport üçün hazırlana bilər: xüsusi markalanma vurula bilər, qablaşdırma dəyişilə bilər və s.

Təkrar ixracın (reeksportun) predmeti kimi çox zaman beynəlxalq auksionlarda (hərraclarda) və əmtəə birjalarında satılan mallar çıxış edirlər, digər tərəfdən təkrar ixrac (reeksport) əməliyyatlarına ölkə ərazisinə idxal olunmadan həyata keçirilən əməliyyatlar da aid olunurlar. Bu qəbildən olan əməliyyatlar öz mahiyyətinə görə ölkənin ixracatına və yaxud idxalatına aid oluna bilməzlər, baxmayaraq ki, onlar gömrük statistikası tərəfindən nəzərə alınırlar. Onlar ticarət firmaları tərəfindən yerinə yetirilirlər ki, bu zaman həmin firmalar eyni bir mala

müxtəlif bazarlarda olan qiymətin fərqinə görə mənfəət əldə etmək məqsədini güdürlər.

Təkrar ixrac (reeksport) əməliyyatlarına həmçinin azad (sərbəst) zonaların və sərbəst anbarların ərazisindən malların ixracatı üzrə əməliyyatlar aid olunur ki, bunlar gömrük statistikası tərəfindən ixracat əməliyyatları kimi nəzərdə tutulurlar. Təkrar ixraca (reeksporta) ölkə ərazisində tranzit kimi daşınan mallar aid olunmurlar.

İdxalat əməliyyatlarına qanunvericilik aktlarına əsasən bu - malların sərbəst dövriyyə üçün buraxılışı kimi adlandırılır). «Malların sərbəst dövriyyə üçün buraxılışı - Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən malların bu ərazidən aparılması haqqında öhdəlik götürülmədən daimi olaraq Azərbaycan Respublikasının gömrük ərazisində qalmasından ibarət gömrük rejimidir» (Azərbaycan Respublikasının Gömrük Məcəlləsi, maddə 29).

Malların sərbəst dövriyyə üçün buraxılışına aşağıdakilar aid olunur və gömrük statistikası tərəfindən nəzərə alınırlar:

- ölkəyə birbaşa istehsalçı ölkədən və yaxud vasitəçi ölkədən olan xarici mənşəli malların şəxsi istehlak üçün, sənaye, tikinti, kənd təsərrüfatı və digərlərin müəssisələri üçün idxalı və yaxud ölkə daxilində istehlakda istifadə olunmaq üçün təkrar emal olunma vasitəsilə və yaxud ölkədən onların ixracı üçün gətirilməsi,
- azad (sərbəst) zonaların və yaxud sərbəst anbarların ərazisindən malların idxalı,
- malların gömrük nəzarəti altında təkrar emalı üçün idaxal olunması.

Buraya həmçinin elə mallar da aid olunurlar ki, onları ölkəyə təkrar emal üçün gətirib sonradan tərkibində həmin malların emal olunmuş və yaxud dəyişilməz şəklində olduğu hazır məhsul kimi ixrac edirlər(məsələn, zeytun yağının balıq konservlərinin istehsalında istifadə olunması üçün idxal olunması). Bu cür hallarda, bir qayda olaraq, idxalatçı gömrük nəzarəti altında malın təkrar emal üçün idxalı zamanı gömrük rüsumlarının ödənilməsindən azad olunur.

- əvvəllər xaricə ixrac olunmuş və yenidən emala məruz qalmamış yerli istehsal mallarının idxalı üzrə əməliyyatlar.

Bu cür idxal – malın təkrar idxalı (reimport) adlanır. Reimporta auksionda (hərracda) satılmayan, alıcı tərəfindən qüsuru tapılan və s. mallar aid olunur.

«Malların təkrar idxalı ixrac gömrük rejiminə uyğun olaraq Azərbaycan Respublikasının gömrük ərazisindən aparılmış Azərbaycan mallarının qanunla müəyyən edilmiş müddətdə gömrük rüsumları və vergilər alınmadan, həmçinin bu mallara iqtisadi siyasət tədbirləri tətbiq edilmədən geriyə gətirilməsindən ibarət gömrük rejimidir» (Azərbaycan Respublikasının Gömrük Məcəlləsi, maddə 31).

Beynəlxalq kommersiya fəaliyyətinin inkişaf etməsinin vacib ilkin şərtlərindən biri də xarici ticarət əməliyyatları əsasında mənfəət normasının (rentabelliyin) artırılmasından ibarətdir. Hər hansı bir xarici ticarət sövdələşməsi nə qədər çox mənfəət norması verirsə, beynəlxalq kommersiya fəaliyyəti də müvafiq olaraq bu istiqamətdə daha yüksək inkişafa malik olur.

Xarici ticarət əməliyyatlarının artmasına və yaxud azlmasına gətirib çıxaran amillər (faktorlar) öz növbəsində, beynəlxalq kommersiya fəaliyyətinin inkişaf amilidirlər. Xarici ticarətin əsas inkişaf amillərindən biri də kapitalın ixracıdır ki, bunların da əsasında transmilli şirkətlər meydana çıxırlar və bunlar da bir çox hallarda öz kapitalına görə milli olmaqla, fəaliyyət dairəsinə görə beynəlmiləl olurlar. Transmilli şirkətlərin beynəlxalq kommersiya fəaliyyətində oynadığı rol mühüm əhəmiyyət kəsb edir, çünki onlartın şirkətdaxili dövriyyəsinin payına bütün beynəlxalq ixracatın üdə bir hissəsi düşür.

Xarici ticarətin əsas inkişaf amillərindən digəri isə beynəlxalq kommersiya fəaliyyətinin formalarından olan azad ticarət zonalarından (ATZ) və ofşor zonalarından istifadə etməklə vergi ödənişlərini aşağı salma imkanlarının əldə olunmasından ibarətdir.

Xarici iqtisadi fəaliyyətin inkişafının bir sıra digər ümumi amillərinə aşağıdakılar aiddirlər: müxtəlif dünya ölkələrinin iqtisadi inkişafının qeyri-bərabərliyi, siyasi münasibətlərin xarakteri, elmi-texniki inkişafın müxtəlif səviyyəsi, əmək resurslarının kəmiyyət və keyfiyyətindəki kəskin fərqlilik, onların ixtisaslaşması, müxtəlif ölkələrdə tələbatın və real əmək haqqının səviyyəsi, coğrafi yerləşmənin, təbii və iqlim şəraitinin xüsusiyyətləri.

Ticarətin metodu – ticarət mübadiləsinin (tis əməliyyatının və yaxud ticarət sövdələşməsinin) həyata keçirilməsi üsuludur. Beynəlxalq ticarət təcrübəsində iki əsas ticarət metodu tətbiq olunur:

- birbaşa metod İistehsalçı ilə istehlakçı arasında birbaşa əməliyyatların həyata keçirilməsi);
- dolayı metod (əməliyyatın vasitəçinin köməyi ilə yerinə yetirilməsi).

Birbaşa ticarət metodu zamanı müəyyən maliyyə xeyiri yaranır və bu da aşağıdakılar ilə bağlıdır:

- vasitəçiyə ödənilən komissiya mükafatının məbləği səviyyəsində xərclərin azalması baş verir;
- risklər azalması və kommersiya fəaliyyətinin nəticələrinin vasitəçi təşkilatın insafsızlığından və yaxud lazımi səviyyədə olmayan səriştəliliyindən asılılığının aşağı düşməsi.

Bu metod daimi olaraq bazarda mövcud olmağa imkan verir, onun dəyişkənliyini nəzərə almağa və onlara vaxtında münasibət göstərməyə şərait yaradır. Eyni zamanda, birbaşa metoddan istifadə olunması aşağıdakıları da nəzərdə tutur:

- kommersiya sahəsində ixtisasın və böyük ticarət təcrübəsinin olması (Əks halda maliyyə xərclərin nəinki aşağı düşməyəcək, onlar daha da atra da bilərlər);
- firmanın xaricdə şaxələnmiş aparatının mövcud olması;
- iri ölçüdə ilkin kapital qoyuluşlarının olması.

Beynəlxalq ticarət mübadiləsinin yarısından çoxu ticarət vasitəçilərinin, yəni malların istehsalçılarından və istehlakçılarından asılı olmayan müstəqil firmaların, təşkilatların və fərdi şəxslərin köməyi ilə yerinə yetirilir.

Vasitəçilərin bu prosesə cəlb olunmasından əsas məqsəd xarici ticarət əməliyyatlarının effektivliyinin aşağıdakı amillərin hesabına qaldırılmasından ibarətdir:

- malların satışı zamanı operativliyin artırılması;
- vasitəçilər tərəfindən malların xarici bazardakı konyunkturunun tez bir

surətdə nəzərə alınması hesabına malların satıcı üçün əlverişli şərtlərlə satışının həyata keçirilməsi;

- malların anbardan göndərilməsi müddətinin azaldılması hesabına onların rəqabət qabiliyyətliliyinin artırılması;
- vasitəçilərin maliyyə vəsaitlərinin avanslar, kreditlər şəklində malların satış şəbəkəsinin yaradılmasına cəlb olunması;
- malın keyfiyyətinin və rəqabət xassələrinin qiymətləndirilməsi barəsində dürüst informasiyanın vasitəçilərdən əldə olunması.

Əgər vasitəçilər lazım olan mənfəətin əldə olunmasını təmin edə bilmilərsə, bu zaman onların xidmətlərindən asan surətdə imtina etmək də olar ki, bu da firmanını özünün birbaşa xarici bazara çıxışı ilə bağlı tədbirlərin görülməsindən ibarətdir.

Beynəlxalq kommersiya fəaliyyətinin həyata keçirilməsi müxtəlif formalarda baş verir ki, onlardan daha çox yayılanları aşağıdakılardan ibarətdirlər:

1. Azad iqtisadi zonalar.
2. Ofşor zonaları.
3. Azad ticarət zonaları.
4. Sərhədyanı ticarət.

Azad iqtisadi zonalar (AİZ) – bu məqsədlər üçün xüsusi olaraq ayrılmış ərazilərdıə həyata keçirilən azad sahibkarlıq zonalarından ibarətdirlər. Onlar güzəştli gömrük rejiminə, vergi və valyuta sahəsində güzəştli rejimlərə, sadələşdirilmiş viza qaydalarına və işə düzəlmə qaydalarına malikdirlər.

Azad iqtisadi zonaların formalaşması, bir qayda olaraq, aşağıdakı məqsədləri güdür:

- regionun inkişafı üçün xarici investisiyaların (sərmayələrin) axınının təşviq olunması;
- regionun ixracat potensialının inkişafının həvəsləndirilməsi;

iqtisadiyyatın, tikintinin, ticarətin, təsərrüfatın digər sahələrinin istehsalat sferalarının inkişafı üzrə xarici kapitalın iştirakı ilə birgə layihələrin həyata keçirilməsi.

Özünün funksional yönümündən asılı olaraq azad iqtisadi zonalar aşağıdakı kimi olurlar:

xarici ticarət yönümlü azad iqtisadi zonalar: burada rüsumsuz ticarət nəqliyyat xidmətləri, anbar təsərrüfatı və ixracat istehsalı ilə əlverişli olaraq uyğunlaşır;

bank və sığorta yönümlü azad iqtisadi zonalar: burada müvafiq əməliyyatlar üçün güzəştli şərtlər mövcud olur (buraya həmçinin ofşor zonalar da aiddirlər);

yüksək texnoloji yönümlü azad iqtisadi zonalar: innovatik proseslərə, yüksək texnologiyaların işlənilib hazırlanmasına və mənimsənilməsinə istiqamətlənmiş vergi limanları, texnoloji parklar və texnopolislər.

turizm-rekreasiya yönümlü azad iqtisadi zonalar (məsələn, Hurqada - Misirdə, Suz -Tunisdə);

kompleks xarakterli azad iqtisadi zonalar: bunlar əsasən material tutumlu olmayan kütləvi istehlak mallarının (toxuculuq, məişət elektronikası) istehsala istiqamətlənmişlər (xarakterik misal kimi – Sinqapur, Honkonq).

Ofşor zonaları («vergi limanları») – elə bir ərazi sayılır ki, burada ticarət qeyri-rezidentləri tərəfindən yaradılan və öz fəaliyyətini qeydiyyatdan keçdiyi ölkənin hüdudlarından kənarda yerinə yetirən şirkətlər üçün vergi güzəştləri nəzərdə tutulur.

Ofşor zonası həm ayrıca inzibati rayonlara, ştatlara, torpaqlara, həmçinin bütöv bir dövlətin ərazisinə də tətbiq oluna bilər.

Xarici sərmayəçilər üçün cəlbedici olan «vergi limanları»nın xüsusiyyətlərinə aşağıdakıları aid eləmək olar:

1. «Vergi limanları»nda mənfəət vergisi tətbiq olunmur, və yaxud onun ölçüsü 1-2%-dən artıq olmur, bəzən isə o, illik yığımla əvəz olunur (bəzi ölkələrdə onun məbləği 150-1000 ABŞ dolları çərçivəsində olur və bu da ümumi gəlirin məbləğindən asılı olmur). Gəlirlərin – dividendin, bank faizlərinin, royalti ödənişlərinin və digərlərin ölkədən çıxarılmasına görə heç bir vergi tutulmur.

2. «Vergi limanları»nda qeydiyyatdan keçmə proseduru maksimal olaraq sadələşdirilib, nizamnamə kapitalının minimal ölçüsü bir qayda olaraq təyin

olunmur, firmaların sahiblərinin adları açıqlanmır – onların adlarının açıqlanması ancaq cinayət halının (fırıldaqçılıq, narkotik maddələrin satışı və s.) baş verməsi üzrə istintaqın aparılması hallarında baş verə bilər.

3. «Vergi limanları»nda valyutanın ölkədən çıxarılmnasına heç bir məhdudiyyət qoyulmur. Fimalar sərbəst olaraq istənilən valyutada və istənilən xarici banklarda depozit hesabları aça bilərlər, heç bir məhdudiyyət qoyulmadan istənilən valyutada ödənişləri həyata keçirə və ala bilərlər.

4. Firmanın idarə olunma prosedurası sadələşdirilb. Bəzən o, şərti xarakter daşıyır –idarə olunma bu zaman firmanın sahibinin vəkalətnaməsinə əsasən katib firma tərəfindən həyata keçirilir. Bəzi «vergi limanları»nda firmanın sahibinin anonimliyi təqdim edənə səhmlərin buraxılması yolu ilə təmin oluna bilir.

5. «Vergi limanın» bir çox ölkələri vergi və gömrük qanunvericiliyinin pozuntusunu cinayət işi hesab etmirlər.

Qeyd eləmək lazımdır ki, «vergi limanları»nda aşağıdakı şərtlərə əməl olunmalıdır:

1. Bütün kommersiya əməliyyatlarını törəmə firmalar ancaq «vergi limanları»nın ərazisindən kənarda həyata keçirməlidirlər.

2. Vergi güzəştlərindən istifadə edən firmanın rəhbər işçiləri qanuna əsasən «liman»ın ərazisində yaşaya bilməzlər və öz vəzifə borclarını da yerinə yetirə bilməzlər.

Ofşor şirkətlərin bir neçə tipi vardır ki, bunlara ilk növbədə aşağıdakıları aid eləmək olar:

İnvestisiya şirkətləri

Holdinq şirkətləri

Ticarət şirkətləri

Mülkiyyət sahibliyi olan şirkətlər

Peşəkar xidmətlər göstərən şirkətlər

Gəmiçilik şirkətləri

Patent şirkətləri, müəllif hüquqları və qonorarlar üzırə şirkətlər

Bank şirkətləri

Sığorta şirkətləri.

Əgər iştirakçı ölkələr arasında gömrük rüsumları ləğv olunduqdan sonra həmin rüsumların digər üçüncü ölkələr üçün tətbiq olunmasında avtonomluq saxlanılırsa, bu zaman Azad Ticarət Zonası (Free Trade Area) halı yaranır - məsələn, Avropa azad ticarət assosiasiyası, EACT (1959).

Digər halda əgər ölkələr arasında gömrük rüsumlarının ləğv olunması digər üçüncü ölkələr üçün vahid tariflərin müəyyən olunması ilə müşayiət olunursa, bu halda Gömrük İttifaqı (Customs Union) halı yaranır - məsələn, Fransa-Monako (1865), İsveçrə-Lixtenşteyn (1923).

Sərhədyanı ticarət xarici ticarət fəaliyyətinin spesifik rejimlərindən biri sayılır və onun mahiyyəti sərhədyanı vilayətlərin regional əməkdaşlığından ibarət olur.

Sərhədyanı ticarət birinci səviyyə kimi adlandırılan qonşu regionlarla həyata keçirilir. Bəzi hallarda sərhədyanı ticarət sferasına qonşu ikinci səviyyədən olan regionlar, yəni birbaşa qonşu olmayan vilayətlər də aid olunurlar ki, bu da iqtisadi cəlbediciliklə izah oluna bilər.

Ölkələrin regional əməkdaşlığa maraq göstərmələrinə təsir göstərən amillərdən aşağıdakıları qeyd eləmək olar:

1. Saziş üzrə iştirakçı ölkələrin daxili bazarlarına daxil olma şərtlərinin yaxşılaşdırılması. Tərəflər bu zaman belə hesab edirlər ki, onlar bununla bağlanılmış dövlətlərarası sazişlərdən başqa özlərinə əlavə bazara çıxışı əldə edirlər.

2. İnvestisiya imkanlarının genişləndirilməsi

3. Sərhədyanı əməkdaşlıq sərhədyanı ərazilərin inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir, sərhədyanı rayonların inkişafındakı bəzi uyğunsuzluqların aşağı salınmasına imkan yaradır.

## 2.2. Beynəlxalq kommersiya fəaliyyətinin tənzimlənməsinin zəruriliyi və xarakteristikası

Xarici iqtisadi fəaliyyətin nizamlanması və ona ümumi rəhbərıiyin edilməsi bir qayda olaraq hökumət  tərəfindən həyata keçirilir və bu da xarici iqtisadi fəaliyyətlə bağlı olan məsələlər üzrə idarəetmə aktları, nazirlik və idarələrin xarici iqtisadi fəaliyyət sahəsində fəaliyyətlərinin əlaqələndirilməsi, hökumətlərarası danışıqların aparılması və müqavilələrin bağlanılması vasitəsilə həyata keçirilir.

Xarici iqtisadi fəaliyyətin nizamlanmasında mühüm rollardan birini Mərkəzi bank oynayır: onun tərəfindən banklararası sazişlər bağlanılır, digər dövlətlərin milli və yaxud mərkəzi bankları, beynəlxalq banklar və digər maliyyə-kredit müəssisələri  ilə münasibətlərdə dövlətin mənafelərini təmsil edir.

Qeyri-dövlət təşkilatlarından xarici iqtisadi fəaliyyətin inkişafına və onun həyata keçirilməsinə daha çox təsir göstərənlərdən biri  də ticarət-sənaye palatalarıdır. Ticarət-sənaye palataları bir qayda olaraq, qeyri-dövlət və qeyri-kommersiya ictimai təşkilatı olmaqla müəssisələrin və sahibkarların birliyini təmin edir. Ticarət-sənaye palataları hüquqi şəxs kimi fəaliyyət göstərərək ölkənin iqtisadiyyatının inkişafına, ölkənin ümumdünya təsərrüfat sisteminə inteqrasiya olunmasına, müasir sənaye və ticarət infrastrukturunun formalaşmasına, sahibkarlığın bütün növlərinin, xarici ölkələrlə ticarət və elmi-texniki əlaqələrin hərtərəfli inkişafına yardımçı olmaq məqsədini güdürlər. Xarici iqtisadi fəaliyyətin nizamlanmasına özünün fəal təsirini Ticarət-sənaye palatalarının nəzdində yaradılmış Beynəlxalq kommersiya arbitraj məhkəməsi (BKAM), Münsiflər məhkəməsi, Dəniz arbitraj komissiyası, Dispaşerlər  assosiasiyası (ing. AAA - Association of Average Ajusters, dənizdə hadisələrin, gəmi qəzaları zamanı ümumi qəzaların baş verməsini müəyyən edən təşkilat) göstərirlər.

Xarici iqtisadi fəaliyyətin dövlət nizamlanması özündə həmçinin gömrük-tarif nizamlanmasını, qeyri-tarif nizamlanmasını və yaxud ixracat və idxalatın kəmiyyətcə məhdudlaşdırılmasını, valyuta, maliyyə və kredit nizamlanmasını, ixracat nəzarətinin həyata keçirilməsini də cəmləşdirir.

Azərbaycan Respublikasında müəssisə və təşkilatların xarici iqtisadi fəaliyyətlərinin hüquqi tənzimlənməsi Mülki Məcəllə, Gömrük Məcəlləsi, valyuta nizamlanması və valyuta nəzarəti, beynəlxalq kommersiya arbitrajı, gömrük tarifləri, xarici iqdisadi fəaliyyətin dövlət nizamlanmasını özündə əks etdirən qanunvericilik aktları, bu fəaliyyət üzrə ölkə Prezidentinin fərmanları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin xarici iqtisadi fəaliyyət üzrə digər qanunvericilik aktları, həmçinin hamı tərəfindən qəbul edilmiş beynəlxalq hüququ normaları və prinsipləri və beynəlxalq müqavilələr vasitəsilə həyata keçirilir.

Beynəlxalq kommersiya fəaliyyətinin dövlət tənzimlənməsinin bir neçə metodları mövcuddur ki, bunlardan: inzibati; gömrük-tarif; iqtisadi metodları və təşkilati-hüquqi metodları xüsusilə qeyd eləmək lazımdır.

İnzibati metodlar. Hazırda mövcud olan praktikada dövlət nizamlanmasının çoxsaylı metodları mövcuddurlar – uzunmüddətli proqnozlaşdırma və orta müddətli planlaşdırma, qısamüddətli operativ nizamlanma (bütün bu nizamlamalar iqtisadi alətlərin köməyi ilə təmin olunurlar), kredit və fiskal xarakterli tədbirlər, inzibati və təşkilati-hüquqi formalı tədbirlər, bazar rəqabətinin inhizarsızlaşdırılması.

Uzunmüddətli dövlət tənzimlənməsi iqtisadiyyatın proqnozlaşdırması, proqramlaşdırması və strateji planlaşdırılması yolu ilə həyata keçirilir və rəqabət qabiliyyətli məhsulun buraxılışını təmin eləyə bilən və dünya bazarına uyğunlaşa bilən milli sahələrin inkişafında strategiyanın və prioritetlərin formalaşdırılması məqsədini güdür. Qarşıya qoyulan digər məqsədlərdən – iqtisadi artımın intensivləşdirilməsi, milli təsərrüfatın struktur yenidən qurulması və müasirləşdirilməsi, sosial problemlərin həll olunması kimi vacib məsələləri qeyd eləmək olar.

Orta müddətli dövlət tənzimlənməsi indikativ planlaşdırma vasitəsilə həyata keçirilir ki, bu da dövlətin və özəl sektorun mövqelərinin əlaqələndirilməsinə yönəldilmişdir. Bu planlaşdırma çərçivəsində hökumət prioritet sahələr üzrə məqsədləri müəyyən edərək, hər bir 3-5 il üçün lazım olan istehsal həcmlərini, kapital qoyuluşlarının ölçülərini və arzu olunan artım templərini nəzərdə tutur.

Bundan sonra isə müvafiq komissiyalarda aparıcı şirkətlərin iştirakı ilə ayrı-ayrı sahələrin inkişafı üzrə konkret proqramlar işlənib hazırlanır və bunlar da sonradan ümumi dövlət proqramınsa birləşdirilir.

Qısamüddətli dövlət tənzimlənməsi çevik və qıvraq operativ xarakter daşıyır. Bunlar – dövlətin böhranların, inflyasiyanın rəf edilməsinə, həmçinin daxili bazarın və milli mal istehsalçılarının maraqlarının müdafiə olunmasına, yönəldilmiş tədbirlərindən ibarətdir. Qısamüddətli tənzimlənmənin alətləri: vergilərdən, qiymətlərdən, kvotalardan, lisenziyalar və tariflərdən ibarətdirlər. Lisenziyalaşdırma sistemi onu nəzərdə tutur ki, dövlət, özünün xüsusi səlahiyyətli idarələri vasitəsilə müəyyən mallar üzrə xarici ticarət əməliyyatlarının həyata keçirilməsinə icazə verir və bunların və eyni zamanda kvotaların müxtəlif növləri vardır (cədvəl 7).

**Cədvəl 7: Lisenziyaların və kvotaların əsas növləri**

| Növlər | Təsviri |
|---|---|
| **Lisenziyalar** | |
| Baş lisenziya | Malların (işlərin, xidmətlərin) ixracatına və idxalatına bir il müddətinədək verilən lisenziya |
| Birdəfəlik lisenziya | Hər bir ayrıca sövdələşmə üzrə malların ixracatına və idxalatına həmin sövdələşmələrin yerinə yetirilməsi üçün lazım olan, lakin 1 ildən çox olayan müddətə verilən lisenziya |
| **Kvotalar** | |
| Qlobal kvotalar | Idxalatın dəyər və yaxud natural vahidlərdə ölçülərinin müəyyən vaxt müddətinə (illik, yarımillik, rüblük) müəyyən olunması |
| Mövsümi kvotalar | Ölkə daxilində kənd təsərrüfatı məhsullarının ən çox istehsal olunduğu müddətdə onların idxalına müəyyən olunması |
| İxracatın könüllü olaraq məhdudlaşdırılması | Idxalatçı ölkənin təşəbbüsünə əsasən ixraçatçı və idxalatçı ölkə arasında saziş: bu saziş əsasında ixracatçı ölkə müəyyən malların ölkədən çıxarılmasını məhdudlaşdırır |

Məhərrəmov A.M., Aslanov H.H.., 2008 istifadə edilərək müəllif tərəfindən tərtib olunmuşdur

Cədvəl 7-dən göründüyü kimi lisenziyalar və kvotaların növləri müxtəlif olmaqla onlardan istifadə olunması müxtəlif məqsədləri güdür. Lisenziyalar və kvotalar müəssisələrin xarici bazara çıxışı üzrə, müəyyən hallarda isə ölkədən ixracat üzrə sərbəstliyini məhdudlaşdırırlar. İdxalat zamanı gömrük rüsumlarını almaqla dövlət, xarici mallara olan qiymətlərin artması üçün ilkin şərtləri yaradır, və bununla da onların rəqabət qabiliyyətliliyini aşağı salır. İxracat zamanı gömrük

rüsumlarını almaqla dövlət, elə malların ölkəyə gətirilməsinin qarşısını almağa cəhd göstərir ki, onlara ölkənin öz istehlakçıları tərəfindən ödənilməmiş tələb mövcuddur, və yaxud da hər hansı bir səbəblərdən onların gətirilməsi arzu olunmazdır.

Dövlətin iki əsas gömrük siyasəti mövcuddur.

Himayədarlıq (proteksionizm) – daxili bazara gətirilən xarici mallarına yüksək gömrük rüsumlarının tətbiq olunması.

«Azad ticarət» siyasəti. Qeyd eləmək lazımdır ki, «azad ticarət» siyasəti idxalatın və ixracatın bütüb dünyada hərtərəfli həvəsləndirilməsinə və bu zaman gömrük rüsumlarıının minimal səviyyəsinin müəyyən olunmasına və yaxud onlardan tamamilə azad olunmasına yönəldilmişdir.

İqtisadi metodlar. Bu metodlar təsərrüfatdaxili iqtisadi proseslərə və birinci növbədə, əmtəə təklifinin formalaşdığı istehsal sferasına dolayı təsirin (bazar münasibətlri təsirinin) göstərilməsini nəzərdə tutur. Onlar iqtisadiyyatın maliyyə-kredit və bank sferaları vasitəsilə reallaşdırılırlar və bu da, faiz dərəcələrinin, güzətlər və subsidiyaların dəyişdirilməsi, həmçinin vergi sistemi, qiymət mexanizmi, gömrük alətləri, sığorta sistemi və ixracatyönümlü istehsalın həvəsləndirilməsi vasitəsilə həyata keçirilir. İqtisadi metodlar dövlət tənzimlənməsinin xarici təcrübəsində qanunvericilik bazasına əsaslanırlar.

Beynəlxalq praktikada iqtisadiyyata qısamüddətli nizamlama çərçivəsində birbaşa inzibati müdaxilə halları da məlumdur ki, bunlar bir qayda olaraq, hökumətin normativ aktlarına və yaxud idarəedilmə qərarlarına əsaslanırdılar.

Keçid iqtisadiyyatı ölkələrində təsərrüfatçılığın inzibati-amirlik sisteminə əsaslanan nizamlama da mövcuddur. Bunun əsasında – nəzarət rəqəmlərindən və tapşırıqlarından, dövlət sifarişlərindən, dövlət kreditləşdirilməsi (o cümlədən, xarici valyutada) sistemindən, kreditlərin və depozitlərin limitləşdirilməsindən, xammal və ərzağa sabit şəkildə müəyyən olunmuş qiymətlərdən istifadə olunması kimi mexanizmlər dururlar. Bu cür hərəkətlərin qanunauyğunluğu inzibati şəkildə verilən fərmanlardan, qərarlardan və qətnamələrdən irəli gəlir.

Təşkilati-hüquqi metodlar. Bunlara birinci növbədə, müxtəlif sahibkarlıq strukturlarının hüquqlarını və rəqabət qaydalarını müəyyən edən qanunvericiliq bazasında qurulmuş və antimonopoliya (inhisarçılığa qarşı) siyasəti aiddir.

İnhisarçılığa qarşı nizamlama siyasətinin mexanizmi ölkənin kiçik və orta sahibkarlığın milli maraqlarının qorunmasının vacib vasitələrindən biri kimi çıxış edir, rəqabət mühitinin inkişafını təmin edir.

Tarif metodları. Xarici ticarət əməliyyatlarının gömrük rüsumları sistemi vasitəsilə tənzimlənməsinə yönəldilmişdir. Gömrük rüsumu üç əsas funksiyanı yerinə yetirir:

fiskal – dövlət büdcəsinin doldurulması:

himayədarlıq (proteksionist) – yerli istehsalçıların qorunub müdafiə olunması:

nizamlayıcı, tənzimləyici – ölkəyə daxil olan və ölkədən xaric olunan mal axınlarının tənzimlənməsi ilə bağlı olan funksiya.

Gömtük rüsumları gömrük tariflərinə əsaslanırlar. Azərbaycan Respublikasının gömrük tarifləri Xarici iqtiadi fəaliyyətin əmtəə nomenklaturasına (XİF ƏN) uyğun olaraq sistemləşdirilmişdir və bu da öz növbəsində 1988-ci il beynəlxalq Konvensiyasına əsaslanan Əmtəələrin təsvirinin və kodlaşdırılmasının harmonizə olunmuş sisteminə əsaslanır.

Eyni zamanda qeyri-tarif sədləri də mövcuddurlar ki, bunlar da gömrük tariflərinin tətbiq olunmaması ilə bağlı olan xarici ticarətin məhdudlaşdırılması ilə bağlıdırlar.

Ümümdünya Ticarət Təşkilatı (ÜTT) çalışır ki, dünya ticarətində qeyri-tarif sədlərindən istifadə olunmasını maksimal olaraq məhdudlaşdırsın. Tariflər və ticarət üzrə Baş sazişin (GATT) 111-ci maddəsinə əsasən idxalat mallarının vergiya cəlb olunması milli rejimlər şəraitində həyata keçirilməlidir. GATT-ın XIII maddəsinə əsasən gömrük rəsmiyyəti qaydaları xarici ticarəti çətinləşdirməməlidir. «Heç bir razılığa gələn tərəf hər hansı bir istənilən razılığa gələn tərəfin ərazisindən istənilən hər hansı bir malın idxalına və yaxud hər hansı bir razılığa gələn tərəfin ərzazisi üçün nəzərdə tutulan hər hansı bir istənilən malın ixracına

heç bir qadağa tətbiq etməməlidir, əgər bu cür maın bütün üçüncü tərəf ölkələrdən idxalı və yaxud əgər bu cür maın bütün üçüncü tərəf ölkələrinə ixracı bu cür qaydada qadağan olunmayılbsa və yaxud bu cür qaydada məhdudlaşdırılmayıbsa».

İnkişaf etmiş ölkələrdə kvotalaşdırılan məhsulun bir sıra növləri digər mallarla müqayisədə daha aşağı rüsumlarla vergiya cəlb olunurlar, bu kvotadan artıq məhsula isə birləşdirilmiş tariflər tətbiq olunur ki, bunlar da tarif dərəcəsi üstəgəl tarifləşdirilmiş qeyri-tarif məhdudiyyətlərindən ibarət olurlar. Lazımi hallarda GATT/ÜTT-nin qeyri-tarif sədlərindən istifadə olunması zəruriyyəti yaranarsa, maliyyə tədbirlərinə üstünlük verilməsi tövsiyə olunur. Tarif və qeyri-tarif tənzimləmə metodları dövlətin proteksionizm siyasətinin əsasını təşkil edirlər.

Xarici iqtisadi fəaliyyətə başlayan hər bir subyekt bilməlidir ki, o, münasibətlər sferasına daxil olur və bunlar da ümumi deyil, xüsusi qanunvericiliklə nizamlanırlar. Ümumi qanunvericilik iqtisadi fəaliyyəti onun bütün növlərində və sferalarında nizamlayır. Azərbaycan iqtisadiyyatın köklü surətdə dəyişilməsi onun bazar iqtisadiyyatına keçidi ilə baş vermişdir və bu da, belə təsərrüfatçılıq sisteminə xas olan vacib əsasların: mülkiyyətin toxunulmazlığını, sahibkarlıq fəaliyyətinin tənzimlənməsinin yeni metodunu, qanunvericiliklə qadağan olunmayan istənilən hər bir fəaliyyətlə məşğul olmağa icazə verilməsini, dövlətin subyektlərin təsərrüfat fəaliyyətinə müdaxilə etməsinin yol verilməzliyini və s. təsbit eləyən qanun çərçivəsində baş verir. Bu və ya digər əsasnamələr Azərbaycan Respublikasının Mülki və gömrük məcəllələrində, investisiya fəaliyyəti, müəssisələr və sahibkarlıq fəaliyyəti haqqında, səhmdarlar cəmiyyəti, maliyyə-sənaye qrupları, istehlakçıların hüquqlarının qorunması, standartlaşdırma, məhsulun və xidmətlərin sertifikatlaşdırıması və s. bir sıra qanunlarda təsbit olunmuşlar.

İqtisadiyyatda dəyişikliklərin baş verməsi həmçinin xarici iqtisadi sferada da köklü dəyişikliklərə gətirib çıxarmışdır: xarici ticarətə monopoliyanın olmasının aradan götürülməsi, beynəlxalq kommersiya fəaliyyətində bütün hüquqi və fiziki şəxslərə iştirak etmə hüququnun verilməsi, daxili valyuta bazarının təşkil olunması, xarici sahibkarlığın inkişaf etdirilməsi, dövlətin nəzarətedici

funksiyasının gücləndirilməsi, beynəlxalq kommersiya fəaliyyətinin iqtisadi metodunun genişləndirilməsi və i.a.

Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya olması milli qanunvericiliyin beynəlxalq standartlara uyğun gəlməsi amili ilə sıx surətdə bağlıdır. Beynəlxalq kommersiya fəaliyyətinin hüquqi tənzimlənməsi – bu cür fəaliyyətin həyata keçirilməsinə əsaslanan normativ aktlrın məcmusundan (toplusundan) ibarətdir. Bu toplu aşağıdakılarda təqdim olunmuşdur:

Azərbaycan Respublikası tərəfindən imzalanmış beynəlxalq hüquq və nomaları, Azərbaycanın digər ölkələrlə beynəlxalq müqavilələri;

beynəlxalq kommersiya fəaliyyəti üzrə milli qanunvericilik, qanunlar, məcəllələr, həmçinin qanunvericilik aktları.

Müəssisələr özlərinin ixracat-idxalat əməliyyatlarını həm birbaşa, həmçinin də xarici iqtisadi təşkilatlar vasitəsilə həyata keçirirlər. Bu cür təşkilatlara aiddirlər: işgüzarlıq əməkdaşlığı üzrə assosiasiyalar; ticarət evləri; ticarət-sənaye palatası və s. Xarici iqtisadi fəaliyyət kontaktlar əsasında yerinə yetirilir ki, qanunvericiliyə əsasən bunlar yazılı formada rəsmiləşdirilirlər. Sövdəıəşmə ya bir sənədin tərtib olunması və imzalanması yolu ilə, ya da ki, məktublarla, teleqamlarla mübadilə etmə yolu ilə. Xarici iqtisadi kontrakt müəyyən ardıcıllıqla yerləşmiş bir neçə bölmədən ibarət olmaqla müəyyən hüquqi atrubutlara malikdir ki, onlarsız həmin kontraktlar özlərinin hüquqi qüvvəsini itirmiş hesab olunurlar və digər tərəfdən isə, həmin kontraktdan irəli gələn hüquqlara malik olurlar.

Azərbaycan, demək olar ki, qısa bir tarixi dövr ərzində xarici iqtisadi əlaqələrdə yüksək açıqlıq və şəffaflıq səviyyəsinə çıxmışdır. Hazırki dövrdə o, beynəlxalq mübadilə məqsədlərinə özünün ÜDM-nin yarısından çox bir hissəsini yönəltmişdir. 2017-ci ildə respublika üzrə xarici iqtisadi dövriyyənin həcmi 22,6 milyard dollar, o cümlədən 8,8 milyard dollar idxalat, 13,8 milyard dollar idxalat, təşkil etmişdir ki, bu da Ümumi Daxili Məhsulun (70,1 milyard manat və yaxud 40,75 milyard ABŞ dolları və yaxud 36,11 milyard avro) 55,4%-ni təşkil etmişdir. Ölkənin ticarət və valyuta rejimləri son illər ərzində əhəmiyyətli dərəcədə liberallaşdırılmışdır. Dövlət xarici iqtisadi əməliyyatlar üzərində inhisarçılıqdan

imtina etmiş və malların və xidmətlərin axınlarını dünya birliyi tərəfindən qəbul olunmuş alətlər vasitəsilə tənzimləyir. Milli valyutanın cari əməliyyatlar üzrə daxili və xarici dönəmliyi tətbiq olunub: rezidentlər və qeyri-rezidentlər bu cür əməliyyatlar çərçivəsində sərbəst olaraq manatı xarici valyutalara və əksinə çevirə bilirlər. Xarici sərmayədarlar Azərbaycanın maliyyə bazarına buraxılmışlar, onlar özəlləşdirmə prosesində də iştirak edə bilərlər.

Beləliklə, Azərbaycan XXI əsrdə öz iqtisadiyyatının artmaqda olan açıqlığı şəraitində özünün iqtisadi təhlükəsizliyinin təmin olunması problemi ilə üzləşmişdir. Beynəlxalq kommersiya fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi təkcə himayə edilməsini və həvəsləndirməni deyil, həmçinin milli maraqların təmin olunmasına nəzarətin, iqtisadi təhlükəsizliyin təşkil olunmasını nəzərdə tutur.

İqtisadi təhlükəsizliyin lazım olan səviyyədə saxlanılmasının təmin edilməsi ölkənin xarici iqtisadi siyasətinin strateji vəzifələrindən birinə çevrilmişdir. İqtisadi təhlükəsizlik kimi iqtisadiyyatın və dövlət idarəçiyinin elə bir vəziyyəti başa düşülür ki, bu zaman, milli maraqların qorunmasına zəmanət verilir, siyasətin sosial yönümlülüyü, daxili və xarici proseslərin hətta ən əlverişsiz şəraitində belə ölkənin lazımi müdafiə potensialı təmin olunur.

Beynəlxalq kommersiya fəaliyyətinin dövlət tənzimlənməsinin təkmilləşdirilməsi yollarını müəyyən edərkən burada dövlətin strateji inkişaf istiqamətində oynadığı rolu xüsusilə qeyd eləmək lazımdır. Lakin bu, heç də xarici ticarət fəaliyyəti sahəsində dövlətin inhisarına qayıtma kimi qələmə verilə bilməz, əksinə, söhbət ancaq dövlətin təşkiledici və nəzarətedici funksiyalarının möhkəmləndirilməsindən gedə bilər.

Bundan başqa, ixracat və idxalatın əmtəə strukturunun optimallaşdırılması üçün tədbirlər kompleksi lazımdır. Strateji perspektivdə vacib məsələlərdən biri ixracat və idxalatın strukturunun şaxələnməsindən (diversifikasiyası) ibarətdir. Onu iki müstəvidə həll etmək lazımdır: birincisi, ölkənin ixracatında qeyri-neft sektoru məhsullarının və xidmətlərin payının artırılması xətti ilə; ikincisi,

tərkibində xaricdən alınan komplektləşdiricilərinin olduğu məhsulların yerli istehsal ilə əvəzlənməsi praktikasının tədricən tətbiq olunması yolu ilə.

İdaxlat strategiyasına gəldikdə isə qeyd eləmək lazımdır ki, idxalat istənilən hər hansı bir iqtisadiyyatın normal fəaliyyət göstərməsi üçün lazımdır və onun milli iqtisadiyyatın qalxmasına yardımçı olması üçün idxalatın əmtəə strukturu da optimallaşdırılmalıdır.

İxracatın dövlət tənzimlənməsi üzrə tədbirləri arasında ixracat yönümlü müəssisələr üçün vergi-kredit güzəştlərinin müəyyən olunmasını, dövlət kreditlərinin verilməsinə və sığortalanmaya zəmanətin verilməsini, idxalatçılaın məlumatlandırılması və məsləhətləndirilməsinin yaxşılaşdırılmasını, marketinq və texniki yardımış göstərilməsini, nəqliyyat tariflərinin təkmilləşdirilməsini xüsusilə qeyd eləmək lazımdır. Bu zaman onu da xüsusilə qeyd eləmək lazımdır ki, ixracat kompleksinin yüksək texnologiya sektiorunun investisiya dəstəklənməsinin maliyyələşdirilməsinin əsasən xarici deyil, daxili mənbələr hesabına həyata keçirilməsi zəruri məsələlərdən biridir.

Daha sonra, dövlətin xarici iqtisadi əlaqələrin inkişaf etdirilməsində və həyata keçirilməsində rolunun qaldırılması, birinci növbədə isə tənzimləmə zamanı tarif və qeyri-tarif metodlarından operativ qaydada və effektiv olaraq istifadə olunmasını təmin etmək lazımdır.

Xarici ticarətdə valyuta nəzarətinin daha da gücləndirilməsi vacib məsələlərdən biridir. Buraya birinci növbədə, kontraktlar üzrə qiymətlərinin dünya qiymətləri ilə müqayisədə aşağı salınması nəticəsində ölkənin iqtisadiyyatının aldığı itkiləri aid etmək olar. Xarici iqtisadi əlaqələrin effektivliyinin təmin olunmasına və onalrın ümummilli maraqlara uyğunluna dövlət tərəfindən nəzarətin gücləndirilməsi vacib məsələlərdən biridir.

Azərbaycanın xarici ticarətinin inkişaf perspektivlərindən biri də ölkənin qlobal nəqliyyat sisteminə inteqrasiya olunması və respublika iqtisadiyyatının nəqliyyat potensialının reallaşdırılmasıdır. Bunun üçün respublika ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin rəqabət qabiliyyətliliyinin təmin olunması, nəqliyyat xidmətlərində rəqabətli tarif siaysətinin tətbiq olunması, tranzit

yüklərinin qeydiyyatı nrosedurlarının sadələşdirilməsi, keçid məntəqələrinin inkişaf etdirilməsi, yüklərin tranziti üzrə beynəlxalq qaydaların işlənib hazırlanması zamanı Azərbaycanın maraqlarının təmin olunması, maraqlı tərəflərlə nəqliyyat dəhlizlərinin yaradılması və fəaliyyət göstərməsi haqqında sazişlərin bağlanılması kimi tədbirlərin görülməsi vacib məsələlərdən biridir.

Qeyd eləmək lazımdır ki, bu sahədə son illər mühüm işlər görülmüşdür. Müxtəlif neft və qaz kəmərləri ilə yanaşı, Bakı-Tbilisi-Qars dəmir yol xətti İpək yolu layihəsinin reallaşdırılmasında atılan mühüm və uğurlu addımlardan biri kimi qeyd oluna bilər.

Qloballaşma və beynəlmiləlləşdirmə proseslərinin təsiri altında beynəlxalq kommersiya sövdələşmələrinin və əməliyyatlarının normativ nizamlanma sisteminin təkamülü baş verir. Bu zaman hüquqi dövlət tənzimçiləri ilə yanaşı trans sərhəd ticarət münasibətlərinin nizamlanmasının qeyri-dövlət mexanizmləri meydana çıxır. Xüsusi rolu da özlərinin yaranması ilə dövlətlə heç bir əlaqəsi olmayan nizamlayıcılar oynayırlar ki, bunlar da beynəlxalq biznes-birliklərinin normativ yaradıcılığı ilə bağlı olan fəaliyyətlərinin nəticəsi kimi formalaşırlar.

Hazırda kompleks beynəlxalq ticarət normativ sistemi kimi meydana çıxmış normativ tənzimləyicilərin münasibətlərinin strukturunda əhəmiyyətli dərəcədə mürəkkəbləşmə izlənilir. Bunun tərkibində iki əsas normalar bloku ayrılır:

1) beynəlxalq ticarət münasibətlərinin ayrı-ayrı seqmentlərinə xidmət göstərən müxtəlif sistemli və sahəvi mənsubiyyətli hüquqi normalar (əsasən kolliziya-hüquq normaları (mənafe toqquşmaları ilə bağlı olan), həmçinin ayrı-ayrı maddi-hüquqi normalar;

2) beynəlxalq ticarət münasibətlərini nizamlayan qeyri-hüquqi normalar («transmilli hüquq», «subhüquq», «formulyar hüquq», lex mercatoria və s.).

Bu cür yanaşma zamanı dövlətin və ya onun orqanlarının norma yaradıcılığının və yaxud hüquqi tətbiq fəaliyyətinin nəticələri ilə (məsələn, beynəlxalq müqavilə və yaxud milli qanunvericilik normaları, dövlət məhkəmələrinin qərarları və s.) müqayisədə, işgüzar dövriyyənin öz iştirakçıları və yaxud onları birləşdirən təşkilatlar arasında yaranan vəziyyətləri (adi qaydalar,

müqavilə şərtləri, arbitraj praktikası) bir-birindən ayırmaq lazımdır. Bunlara aşağıdakıları aid eləmək olar:

- qeyri-hökumət təşkilatları tərəfindən kodlaşdırılan vahid tipli qaydalar toplusu (İnkoterms, Sənədli akkreditivlər və inkasso üzrə unifikasiya olunmuş qaydalar kimi);
- ticarət assosiasiyaları tərəfindən işlənilib hazırlanmış ayrı-ayrı mal növlərinə aid nümunəvi kontraktlar;
- gəmilərin fraxtlanması (icarəyə götürülməsi) üzrə nümunəvi (oxşar) müqavilələr,
- dəniz ticarəti daşınmalarında istifadə olunan agent sazişlərinin və digər müqavilələrin nümunələri (gəmi sahiblərinin assosiasiyası və digər təşkilatlar tərəfindən işlənib hazırlanır);
- davranış kodeksləri (Beynəlxalq ticarət palatası tərəfindən hazırlanmış Beynəlxalq reklam praktikası kodeksi və Beynəlxalq franşiza assosiasiyası tərəfindən hazırlanmış Franşiza sənədlərinin yerinə yetirilməsi zamanı davranış kodeksi);
- adi qaydalar;
- əvvəlcədən qoyulmuş qaydalar və adətlər;
- beynəlxalq kommersiya arbitrajı praktikası və s.

Elmi məkanda öz mənşəyinə görə qeyri-dövlət xarakteri daşıyan normalar konqlomeratı müxtəlif cür adlandırılır: («transmilli» və yaxud «kvazi-beynəlxalq» hüquq, «paraleqal hüquq sistemi» («paraleqal hüquq»), «yaşıl hüquq», «direktiv hüquq», «deklarativ hüquq», «proqramlaşdıran hüquq», «qeyri-mükəmməl hüquq» və s.

Bu cür səpkidən olan sənədlər bir qayda olaraq, ümumi olaraq hamı tərəfindən beynəlxalq kommersiya fəaliyyətində qəbul olunmuş ticarət adət-ənənələrinin özünün mövcudluğuna heç bir təsir göstərmirlər. Eyni zamanda isə adət-ənənənin yazılı şəkildə təsbit olunması, onların adi qaydalara çevrilməsinə gətirib çıxarır.

Belə bir aktlardan biri, Beynəlxalq Ticarət Palatası tərəfindən işlənib hazırlanmış ticarət terminlərinin şərhi üzrə Beynəlxalq qaydalardır (International Rules for the Interpretation of Trade Terms), və yaxud qısaca olaraq. İnkoterms (Incoterms). Bu qaydalar beynəlxalq alqı-satqı müqavilələrinin bağlanılması zamanı istifadə olunan və bütün dünyada geniş tətbiq olunan vacib sənədlərdən biridir. Hazırda demək olar ki, heç bir müqavilə İnkotermsin müəyyən termininə istinad olunmadan həyata keçirilmir. İnkoterrms hazırda ticarət adət-ənənələri (beynəlxalq ticarət adət-ənənələri) toplusu kimi nəzərdən keçirilə bilər.

İnkoterms özünəməxsus struktura malikdir və normaların bu cür yerləşməsini heç bir digər sənəddə görmək mümkün deyildir. Belə ki, 2010-cu il redaksiyasında sonuncu İnkoterms özündə 11 termini cəmləşdirir ki, bunlar da 2 qrupa bölünüblər: 1) birinci qrup yeddi termindən ibarət olmaqla, onlar seçilmiş daşınma üsulundan və bir və yaxud bir neçə nəqliyyat növünün istifadə olunmasından asılı olmayaraq istifadə olunurlar (EXW, FCA, CPT, CIP, DAP, və DDP terminləri); 2) ikinci qrupa ancaq dəniz və daxili su nəqliyyatı üçün nəzərdə tutulan terminlər daxil edilmişdir; bu zaman malın göndərildiyi və alıcı tərəfindən malın daşındığı məntəqə limanlardan ibarətdirlər (FAS, FOB, CFR və CIF terminləri). Hər bir 11 bazis göndərmə şərtlərində satıcı ilə alıcının öhdəlikləri göstərilmişdir. Bu cür məzmuna malik olmaqla, özünün struktur xüsusiyyətlərinə və fərdililiyinə görə bu sənəd – unikal, bənzərsiz bir sənəd kimi qəbul oluna bilər.

İndiki şəraitdə beynəlxalq kommersiya fəaliyyətinin tənzimlənməsi yeni bir istiqamətdə öz reallaşmasını tapıb ki, bu da İnternet texnologiyalarından istifadə olunmasına daha çox diqqət yetirilməsi və bu beynəlxalq kommersiya fəaliyyətinin daha çox virtual səviyyəyə keçməsi ilə bağlıdır. Bütün bunlar öz təzhürünü ilk növbədə, işgüzar kommersiya əməliyyatlarının keçirilməsi zamanı məlumatların ötürülməsi və mübadiləsi zamanı qlobal elektron şəbəkələrindən istifadə olunması ilə bağlı olan məsələlərdə göstərir.

## III FƏSİL. BEYNƏLMİLƏLLƏŞDİRMƏ ŞƏRAİTİNDƏ AZƏRBAYCANDA BEYNƏLXALQ KOMMERSİYA FƏALIYYƏTİNİN XÜSUSSIYƏTLƏRİ VƏ ONUN İNKİŞAF PERSPEKTİVLƏRİ

### 3.1. Hazırki dövrdə mövcud olan biznes-mühitin əsas tərkib hissələri və onun beynəlxalq kommersiya fəaliyyətinə təsir strategiyaları

Beynəlxalq ticarət XXI əsrdə müqavilələr, kontraktlar və sazişlərlə rəsmiləşdirilmiş çoxsəviyyəli mürəkkəb bir münasibətlər sistemini təmsil edir. Müasir beynəlxalq ticarət XVIII və XIX əsrdə baş verənlərdən əhəmiyyətli dərəcədə fərqlənir. Hazırki dövrdə o, elə spesifik xüsusiyyətlərlə xarakterizə olunur ki, bunlar da həm yeni keyfiyyət parametrləri əldə etmiş, həm də yaxınlarda əmələ gəlmiş bazis amillərinin təsiri altında yaranmışlar.

XXI əsrin ikinci oniiliyində beynəlxalq ticarətin inkişafına xas olan meyllərin (tendensiyaların) elə bir toplusunu ayırıb göstərmək olar ki, burada aşağıdakı bir neçə altqrup daha aydın və dəqiq nəzərə çarpır:

1. çox uzun bir dövr ərzində (demək olar ki, XIX əsrdən) fəaliyyət göstərən bazis meylləri;

2. XX əsrdə formalaşmış meyllər;

3. mövcudluğu ancaq XXI əsrdə müəyyən olunmuş ən müasir dövrdəki meyllər.

Meyllərin çoxsaylılığı beynəlxalq ticarətə təsir göstərən amillərin özlərinin çoxlu sayda mövcudluğu ilə, onun baş verdiyi şəraitlərin müxtəlif cinsliliyi və s. ilə bağlıdır. Hər bir bu altqrup özünəməxsus xüsusiyyətlərə, bu cür meyllərin formalaşmasının müxtəlif səbəblərinə, özünün kəmiyyət və keyfiyyət göstəriciləri ilə təsdiqlənən beynəlxalq ticarətdəki xüsusiyyətlərinə malikdirlər.

1. Bazis meylləri elə obyektiv qüvvələrin təsirini əks etdirirlər ki, onlar beynəlxalq ticarətin daima güclənən inkişaf prosesinə immanent (xas olan) qüvvələrdirlər.

1.1. Bu cür vacib meyllərdən biri iki yüzillikdən əvvəl özünü çox aydın təzahür etməyə başlamışdır və bu da – dünya üzrə mal dövriyyəsinin daima irəliləyən artımıdır. Aydındır ki, «istinasız qaydalar olmur» və dünyada baş verən

iqtisadi və maliyyə böhranları və digər silkələnmələr çox və yaxud az bir uzunmüddətli dövrə bu meyllərin hərəkətini zəiflədirlər. Lakin, bütövlükdə XX əsrin ikinci yarısı və yeni yüzilliyin birinci oniiliyi ərzində beynəlxalq ticarət üzrə ÜDM-in və sənaye istehsalının artım templəri ilə müqayisədə qabaqlayıcı artım templəri müşahidə olunur. Məsələn, dünya ixracatının artım templəri XXI əsrin birinci onilliyində orta hesabla idə 9%-dən artıq təşkil etmişdirsə (hətta 2008-2009-cu illərdəki 20%-dən çox olan azalmaya baxmayaraq), bu müddət ərzində dünya üzrə ümumi məhsulun artım tempi 3%-dən çox olmamışdır.

Eyni zamanda, XXI əsrin ikinci onilliyinin əvvəlində (2010-2012-ci illər) keçən onilliklər ilə müqayisədə beynəlxalq ticarətin artım templəri istehsalın artım templərindən əhəmiyyətli dərəcədə geriləmişdi. 2012-ci ildə bu tendensiya qlobal mal dövriyyəsinin artım templərinin əhəmiyyətli dərəcədə azalması səbəbindən tamamilə qırılıb kəsilmişdir. Dünya iqtisadi böhranı nəticəsində beynəlxalq ticarət İkinci Dünya müharibəsindən indiyədək özünün ən güclü azalmasını yaşayamışdı. Dünya ticarətinin 2010-ci ildə tez bir zamanda bərpası (artım təqribən 22%), 2011-ci ildə zəifləməyə başladı (20%), 2012-ci ildə isə bu göstərici 0,2% təşkil edə bildi. Göstərilən rəqəmlər dünya əmtəə ixracatının nominal həcminin artmasını xarakterizə edir: onun fiziki həcmi 2011-ci ildə 5,2%, 2012-ci ildə isə - 2,3% artmışdı (WTO Annual Report 2013).

1.2. Dünya ticarətinin sonrakı inkişaf meylini əmtəə nomenklaturasının genişlənməsi və mürəkkəbləşməsi kimi adlandırmaq olar. Bu meyl özünü hazır sənaye məmulatları və xüsusilə də elmtutumlu mallarla, yarımfabrikatların və quraşdırma məmulatlarının artmasında və eyni zamanda isə kənd təsərrüfatı məhsulunun payının azalmasında biruzə verir.

Bu tendensiyanın təsiri nəticəsində artıq XX əsrin sonlarında beynəlxalq ticarət əmtəə (mal) tərkibi və əsas mal qrupları arasında nisbət əhəmiyyətli dərəcədə dəyişilmişdir. Məsələn, 1980-ci ildən 2011-ci illər ərzində xammal, yanacaq və ərzağın beynəlxalq ticarətdəki xüsusi çəkisi 44%-dən 33%-dən azalmış, hazır məhsulların və yarımfabrikatların payı isə 56%-dən 67%-dək artmışdır, özü də maşınqayırma sahələrinin dünya ixracatındakı xüsusi çəkisi

26,8%-dən 33,5%-dək artmışdır (WTO Statistics database. Time Series. Merchandise trade by commodity: http://stat.wto.org/). Və ancaq XXI ərin əvvəlində fundamental bazar amillərinin təsiri (formalaşmaqda olan bazar iqtisadiyyatı ölkələrində və xüsusilə də, Çində və Hindistanda) ilə şərtlənmiş «xammal canlanması» (2000-ci ildən 2011-ci ilədək yanacağın və digər mineral məhsulların qiyməti 3,7 dəfə artmışdı), bio-yanacaq bazarının inkişafı, ABŞ dollarının kursunun aşağı düşməsi, bazar möhtəkirlikləri (spekulyasiyaları) və hökumətlərin apardığı müxtəlif siyasətlər (subsidiyalar, ixracat məhdudiyyətləri və s.) nəticəsində hazır məhsuların dünya ticarətindəki payının artımını dayandıra bilmişdi.

**Şəkil 2: Regional ticarət sazişləri (RTA) bağlamış bir sıra təşkilatların qlobal ixracatının bütün dünyadakı payı, 2016-cı il üzrə**




**Mənbə**: https://www.wto.org/english/res_e/statis_e/wts2018_e/wts2018_e.pdf) (20.03.2018)

Şəkil 2-dən göründüyü kimi təkcə Avropa Birliyinin 28 ölkəsi ilə - EU(28) Şimali Amerika Azad Ticarəti Sazişi ölkələrinin (NAFTA, ABŞ, Kanada və Meksika) və Cənub-Şərq Asiya ölkələrinin Asossiasiyası (ASEAN) ölkələrinin bütün dünya üzrə sənaye mallarının ixracatında payı 55% təşkil etmişdir: müvafiq olaraq EU(28) – 34,3%, NAFTA – 13,8%, ASEAN – 7,6%. Qərbi, Mərkəzi və Cənubi Afrika ölkələrinin iqtisadiyyat və maliyyə birliklərinin, təşkilatlarının (WAEMU, CEMAC, ECOWAS, SADC) və eyni zamanda And ölkələrinin

birliyinin (CAN) xüsusi çəkisi aparıcı təşkilatların göstəricilərindən qat-qat aşağıdır.

Əməyin beynəlxalq bölgüsü qloballaşmanın sonuncu dalğasının təsiri nəticəsində tamamilə dəyişmişdir. Hazırki dövrdə elə bir şirkət tapmaq mümkün deyildir ki, o, təkbaşına sərbəst olaraq hazır məhsulun hasilatından tutmuş onun son istehlakçıya satışınadək olan bütün prosesə (zəncirə) tam nıəzarəti həyata keçirə bilsin. Bu mürəkkəb sikl mərhələlərə (halqalara) bölünür, və məsələn, dəmir filizi, xam neft, qum və s. digər materiallar son məhsula keçməmişdən əvvəl çoxlu sayda firmalar burada ticarət partnyorları, tərəf-müqabilləri (malgöndərən (təchizatçı) və alıcılar) kimi iştirak edirlər. Hazırda hər bir əmtəə (mal) unikal «malgöndərmə zəncirinə» malikdir ki, bunun altında «ümumi informasiya axınları ilə bağlı olan xammalın, materialların və hazır məhsulların axınlarına ilin malgöndərəndən (təchizatçıdan) son istehlakçıya kimi birgə nəzarəti həyata keçirən iqtisadi subyektlər şəbəkəsi başa düşülür» (Попадюк К.Н., 2005, 133). Bu zəncirlərin hər biri çox vaxt dövlətlərin sərhədlərini bir neçə dəfə keçirlər. Hazırda qlobal mal göndərmə zəncirlərinə transmilli şirkətlər tərəfindən nəzarət olunur və onların dünya ticarətindəki payı 80%-dək təşkil edir (UNCTAD-ın 2013-cü il ərzində dünya investisiyaları haqqında məruzəsi: Qlobal istehsalat sistemləri: investisiyaların və ticarətin inkişafının maraqlarında. İcmal. (Elektron resurs) http://unctad.org/en/PublicationsLibrary/wir2013overview_ru.pdf, 11).

Malgöndərmə zəncirlərinin qlobal miqyas səviyyəsinədək genişlənməsinin birbaşa nəticəsi kimi aralıq məhsulun göndərilməsi ilə bağlı olan beynəlxalq sövdələşmələrin sayının artması amili çıxış edir.

Onu da qeyd eləmək lazımdır ki, aralıq məhsulların bazarı uzun perspektivdə hazır məhsullar bazarı ilə müqayisədə daha tez artacaqdır ki, bu da, mərhələlər üzrə (qovşaqlar üzrə) və əməliyyatlar üzrə (texnoloji) ixtisaslaşmanın daha da dərinləşməsi ilə bağlıdır. Bəzi hesablamalara görə dünya ixracatının 60%-dək olan hissəsi aralıq məhsulun, yəni kompletləşdirici (tamamlayıcı) məmulatların və ehtiyat hissələrinin payına düşür.

1.3. Vacib bazis meyllərindən biri kimi beynəlxalq ticarətin coğrafi

strukturunun dəyişməsi çıxış edir. XX əsrin 90-cı illərinədək beynəlxalq ticarət çox bir hissəsi sənaye cəhətdən inkişaf etmiş ölkələr qrupunun payına düşürdü. Belə ki, 1980-ci ildə onların dünya ixracatında payı 66% təşkil edirdi. Hələ bir neçə onillik bundan əvvəl ən iri dünya ticarəti ölkələri-iştirakçılarının birincu onluğuna ancaq və ancaq «Böyük yeddilər» və digər inkişaf etmiş ölkələr daxil idilər. Hazırki dövrdə isə ABŞ-ın, Almaniyanın, Yaponiyanın əhəmiyyətinin qalması ilə yanaşı, inkişafda olan ölkələrin və birinci növbədə isə, Çinin rolunun artması və inkişaf etmiş ölkələrin payının nisbi azalması müşahidə olunur.

2. Beynəlxalq ticarətin XX əsrdə formalaşmış tendensiyaları (meylləri) həm birinci qrupa aid olan, həmçinin prinsip etibari ilə yeni meylləri də özündə cəmləşdirir ki, onların yaranması bazis amillərinin təsirinin xüsusiyyətləri ilə və yeni hallar ilə, məsələn, elmi-texniki tərəqqi ilə bağlıdır.

2.1. Bu cür amillərdən biri kimi ticarət siyasətinin liberallaşdırılması çıxış edir ki, bu da XX əsrdə birinci növbədə GATT/ÜTT-nin təsiri altında baş vermişdir. Belə ki, idxalat rüsumlarının orta səviyyəsi Tariflər və ticarət üzrə Baş sazişin (GATT) imzalanması zamanı 50% təşkil edirdisə, bir neçə çoxtərəfli danışıqlar raundundan sonra bu göstərici inkişaf etmiş ölkələrdə sənaye malları üzrə XXI əsrin ikinci yarısının əvvəlində 3-4%-dək aşağı düşmüşdür (Обойн М., 2012, 76).

2.2. Transmilli şirkətlərin beynəlxalq ticarətin inkişafına təsirinin güclənməsi – onun transmilliləşməsi - ən əhəmiyyətli tendensiyalardan (meyllərdən) biridir və bu da XX əsrdə formalaşmış və daha aydın özünü biruzə verməyə başlamışdır. Tamamilə dəqiq demək olar ki, müasir beynəlxalq ticarətin generatoru kimi tarnsmilli şirkətlər (TMŞ) çıxış edirlər və onların sayı dünyada UNCTAD-ın məlumatlarına görə 82 mindən artıq (və 80 mindən artıq filialları vardır) təşkil edir (UNCTAD-ın dünya investisiyaları üzrə məruzəsi: Aşağı karbonlu iqtisadiyyata investisiyalar. http://unctad.org/ru/docs/wir2010overview_ru.pdf, 11). UNCTAD-ın digər məlumatlarına görə cari qüzilliyin ikinci onilliyində trans-milli şirkətlərin xarici filialların payına dünya ixracatının üçdə birindən çox hissəsi

düşmüşdür (UNCTAD-ın dünya investisiyaları üzrə məruzəsi. http://www.unctad-docs.org/files/UNCTAD-WIR2011-Overviewru.pdf, 11).

Transmilliləşdirmə, malların istehsalının və onların xaricdə satışının keçmişdə mövcud olan sxemini dəyişir ki, bu zaman malların istehsalı əsasən bir ölkənin ərzisində cəmləşirdi, sonra isə məhsulun bir hissəsi digər ölkələrdə satılırdı. Hazırda bu praktika demək olar ki, keçmişdə qalır (xüsusilə də texnoloji mürəkkəb məhsullar üzrə) və özünün yerini inteqrasiya olunmuş iri beynəlxalq istehsal və satış sistemlərinin rəqabətinə verir. Bu sistemlər TMŞ-in birbaşa xarici investisiyalarına və innovasiyalarına əsaslanırlar ki, bunlar da öz səylərini müxtəlif fəaliyyət istiqamətlərində (bir qayda olaraq, daha riskli, elm- və kapital tutumlu istiqamətlər üzrə) cəmləşdirməyi bacarırlar.

Müasir beynəlxalq ticarət, bir tərəfdən, TMŞ-in istehsalı, satışı, təchizatı və Elmi-Texniki və Təchübə Konstruktor İşləri (ETTKİ) üzrə inteqrasiya olunmuş sistemin bir tərkib hissəsi kimi çıxış edir və burada əmtəə (mal) və investisiya axınları bir-biri ilə düyünlənir, istehsaldan qabaq, istehsal və istehsaldan sonrakı sferalarda rəngarəng əlaqələr yaranır. Digər tərəfdən isə, o, bu əlaqələrin səbəb və nəticəsinə, stumuluna çevrilir, onun mal axınları isə (həm sahəvi, həm də coğrafi) – müasir qloballaşdırılmış istehsalın təşkil olunması nəticəsi kimi çıxış edirlər. Bu zaman bir-birinə əks olan, lakin eyni zamanda bir-biri ilə bağlı olan iki prosesin eyni vaxtda təsiri müşahidə olunur. Bir tərəfdən, TMŞ-in xarici istehsalınının atımını müəyyən qədər müvafiq xarici ölkəyə ixracat əvəzləyir, lakin bununla birlikdə isə TMŞ-nin xarici fiallarının hərəkəti onun nxarici ticarət axınlarını stimullaşdırır. Bu proseslərin təsiri nəticəsində isə beynəlxalq ticarətin əsaslı və «irəliləmiş» hissəsi (əmtəə nomenklaturası baxımından) TMŞ-in müxtəlif kanallarından keçir: həm eyni bir şirkətin öz daxilində, həm müxtəlif TMŞ arasında və yaxud TMŞ ilə müxtəlif ölkələrin digər şirkətləri («qeyri transmillilər») arasında hərəkət baş verir.

Bu zaman TMŞ-in fəaliyyəti beynəlxalq ticarətin inkişafının iki xarakterik tendensiyasının meydana gəlməsinə əsas vermişdir.

2.3. firmadaxili ticarətin həcmlərinin artımı, yəni eyni bir TMŞ-in müxtəlif ölkələrdə yerləşmiş müxtəlif bölmələri arasında ticarət.

2.4. TMŞ-nin ticarət fəaliyyəti ilə birbaşa xarici investisiyaları arasındakı sıx əlaqələrin daimi olaraq artması.

Bu tendensiyaların təsiri beynəlxalq və xarici ticarətə müəyyən dayanıqlıq və qabaqcadan deyilə bilənlik gətirir. Buna o cəhət də az təsir göstərmir ki, TMŞ-nin ticarət fəaliyyətinin əsasında birdəfəlik kommersiya sövdələşmələri deyil, müvafiq alyanslar, əməkdaşlıq haqqında sazişlər və s. bazasında kompleks xarakterli uzunmüddətli iqtisadı əlaqələr dururlar.

2.5. Ayrıca bir meyl kimi xidmətlərlə ticarətin həcmlərinin artımına göstərmək olar. Məsələn, xidmətlərlə ticarətin həcmləri təkcə 2012-ci ildə 1980-ci il ilə müqayisədə 11 dəfə artıq olmuşdur. Bu zaman maliyyə, sığorta, telekommunikasiya və «digər kommersiya xidmətləri» kateqoriyasına dia edilən digər xidmətlərlə ticarət daha aktiv olaraq artır.

Digər amillərdən biri də qlobal e-kommersiya (e-commerce) dövriyyəsinin həcmlərinin nəzərə çarpan səviyyədə artmasıdır. Belə ki, təkcə 2016-cı ildə qlobal e-commerce həcmləri 27,7 trilyon ABŞ dolları təşkil etmişdir ki, bu da 2012-ci il müqayisədə (19,3 trilyon dollar) 43,5% çoxdur (https://www.wto.org/english/res_e/statis_e/wts2018_e/wts2018_e.pdf, p. 21).

Elektron kommersiya üzrə əməliyyatların genişlənməsi beynəlxalq kommersiya fəaliyyətinin coğrafiyasının artmasına, onun strukturunun daha da mürəkkəbləşməsinə gətirib çıxarır. Digər tərəfdən isə müasir informasiya texnologiyalarından geniş miqyasda istifadə olunması beynəlxalq səviyyədə həyata keçirilən kommersiya fəaliyyətinin sürətlənməsinə, onun fasiləsiz olaraq günün istənilən vaxtında və tez bir anda həyata keçirilməsinə səbəb olur.

Qlobal xidmətlər bazarında intellektual mülkiyyətlə bağlı olan sahələr xüsusi paya malik olmaqla maliyyə, telekommunikasiya, kompüter və informasiya xidmətlərini və digər xidmət növlərini üstələyirlər, bu göstəricilər fərdi, mədəni, rekreasiya xidmətləri, sığortalanma və pensiya xidmətlərindən fərqli olaraq bütün

digər növdən olan kommersiya xidmətlərində 8-10% xüsusi çəkiyə malikdirlər. Bütün bunlar da öz əksini şəkil 3-də tapmışdır .

**Şəkil 3: Qlobal xidmətlər bazarı**




**Mənbə:** WTO-UNCTAD-ITC estimates. (https://www.wto.org/english/res_e/statis_e/wts2018_e/wts2018_e.pdf) (20.03.2018)

Şəkil 3-dən göründüyü kimi intellektual mülkiyyətdən istifadə xərcləri bütün digər xidmətlər bazarı üzrə  göstəricilərlər müqayisədə üstünlük təşkil edirlər.

**Şəkil 4: 2016-cı ildə qlobal e-commece həcmləri (B2B və B2C üzrə)**

**(mlrd. US$ və faizlə pay)**




**Qeyd:  B2B – Business-to-business                B2C – Business-to-consumer**

**Mənbə:** US International Trade Comission https://www.usitc.gov/  (20.03.2018)

Şəkil 4-dən göründüyü kimi B2B (Business-to-Business) üzrə bazarın həcmi

(86,3%), B2C (Business-to-Consumer) üzrə bazarın həcmindən (13,7%) 6 dəfə çoxdur.

3. Beynəlxalq ticarətin öyrənilməsi üçün tendensiyalarin üçüncü qrupu xüsusi maraq doğurur. XXI əsrdə demək olar ki, bütün dünya təsərrüfatı prosesləri, o cümlədən də beynəlxalq ticarət, pz üzərində qloballaşmanın təsirini hiss edirlər, lakin bu, XX əsrin axırlarınadək fəaliyyətdə olan meyllərin hərəkətini dayandırmır.

3.1. XXI əsr üçün xarakterik olan mallar (əmtəə) ilə dünya ticarətinin inkişafının birinci tendensiyası inkişaf etməkdə olan ölkələrin rolunun artması və ən vacibi isə, onlar arasında ticarətin tez artması ilə bağlıdır.

XX əsrin 90-cı illərində beynəlxalq ticarətin 56%-i inkişaf etmiş ölkələr arasında mübadilənin payına düşürdü, dövriyyənin 33%-ni inkişaf etmiş və inkişafda olan ölkələr arasındakı və beynəlxalq ticarətin ancaq 8%-i isə inkişaf etməkdə olan ölkələr arasında mübadilənin payına düşürdü. İnkişaf etməkdə olab ölkələr beynəlxalq ticarətdəki özlərinin paylarını öz aralarında mal mübadiləsinin artırılması hesabına çoxalda bilmişdilər. Artıq 2011-ci ilə «Cənub-Cənub» istiqamətində sövdələşmələrin payı 24%-ə çatmış, ÜTT-nin proqnozlarına görə 2020-ci ilə bu göstərici dünya ticarətinin üçdə birini təşkil edəcəkdir (Paskal Lamy, 2013).

«Ernst & Young» şirkətinin mütəxəssislərinin fikrincə, 2020-ci ildə təkcə Çin və Hindistanın dünya ticarətindəki payı demək olar ki, 25%-ə çatacaqdır (Ernst & Young, Oxford Economics, 2011, 4).

İnkişaf etməkdə olan ölkələr əsas hərəkətverici qüvvəyə çevrilmişlər və onlar 2000-ci illərin əvvəllərindən və xüsusilə də, 2008-2009-cu illərdəki dünya iqtisadi böhranından sonra dünya iqtisadiyyatının bərpası dövründən başlayaraaq, öz həcmlərini 54% artıra bilmişlər. «Cənub-Cənub» istiqamətində daha parlaq artım Şərqi Asiyada olmuşdur.

Daha az inkişaf etmiş ölkələrin təsərrüfatının dar strukturu əsasən ilkin təbii resurslara və onların ixracatına söykənir, bəzən onların özləri kimi oxşar təbii şəraitə və resurs bazasına malik olan qonşu ölkələrlə mal mübadiləsinin aparılması

üçün heç bir stimul yaratmır. Lakin cari yüzilliyin əvvəllərində xammal mallarına qiymətlərin qalxması nəticəsində daha az inkişaf etmiş ölkələrin dünya ixracatındakı payı 2001-ci ildəki 0,6%-dən 2010-cu ildə 1,1%-dək qalxmışdır (Development and Globalization: Facts and Figures 2012, UNCTAD, 13).

Xammal mallarına qiymətlərin cari yüzilliyin əvvəlində artımı ticarət şəratinin əhəmiyyətli dərəcədə dəyişilməsi ilə müşayiət olunmuşdur. Bütövlükdə isə, nefti və təbii reesursları ixrac edən ölkələr mövcud olan ticarət şəraitlərindən udurdular, bu zaman sənaye malları ixracatçıları və xammal, xüsusilə də neft idxalatçıları isə zərərə düşürdülər. Ticarət şərtlərinin dəyişilməsi iqtisadiyyatın açıqlığına çox böyük təsir göstərə bilər və o cümlədən, real milli gəliri artıra və yaxud azalda bilər. Bütövlükdə isə ticarət şəratinin dəyişilməsindən bütün inkişafda olan ölkələr qazanc əldə edə bildilər.

3 2. Beynəlxalq ticarət daha vacib meyllərdən biri də onun coğrafi strukturu ilə bağlı olan regionlaşdırma tendensiyasıdır ki, bu da dünya mal dövriyyəsinin vacib inteqrasiya qruplaşmaları çərçivəsində cəmləşməsi ilə bağlıdır. Son onilliklər ərzində dünya iqtisadiyyatında regional ticarət sazişlərinin sayının artımı meyli nəzərə çarpır və güclənir, bunların vasitəsilə də saziş iştirakçıları qarşılıqlı ticarətdə səddlərin və maneələrin hamısını və yaxud çox böyük bir hissəsini aradan götürə bilirlər. ÜTT-nin normaları və qaydaları iştirakçı ölkələrə gömrük ittifaqları və azad ticarət zonaları (ATZ) yaratmağa heç bir qadağa qoymur.

Əlavə 1-də təqdim olunan cədvəlin göstəricilərinə görə hazırda dünya iqtisadiyyatında ən vacib iki inteqrasiya olunmuş birliyinin (EU və NAFTA) payına dünya ixracatının və idxalatının demək olar ki, yarıcı düşür.

Avropa Birliyi ölkələri (EU28) üçün regiondaxili sazişlər üzrə (RTAs) ticarət, ondan kənardakından daha çox əhəmiyyət kəsb edir (64% - 2016-cı ildə). Digər inteqrasiya olunmuş qurumlar üçün birliyin tərkibinə daxil olmayan partnyorlarla ticarətin aparılması regindaxilindəkindən daha vacib əhəmiyyət kəsb edir.

Baxmayaraq ki, inkişaf etməkdə olan ölkələr arasındakı iqtisadi inteqrasiyanın səviyyəsi bir sıra instusional göstəricilər üzrə Avropa Birliyi və

yaxud NAFTA ilə müqayisədə aşağıdır, xarici ticarət əlaqələrin inkişafı xüsusilə də Asiyada daha yüksək templə gedir və bu da öz əksini inkişaf etmiş ölkələrin iştirakı ilə olan inteqrasiya olunmuş vacib birliklərinin xüsusi çəkisinin bir qədər azalmasında tapır.

**Şəkil 5: Regional ticarət sazişləri (RTAs) üzrə ixracatın həcmləri, 2016-cı il, %-lə**

**Məhsulun ixracatının payı %**

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 7 | 28 | 9 | 36 | 13 | 72 | 80 | 72 | 14 | 31 |




**Mənbə**:(https://www.wto.org/english/res_e/statis_e/wts2018_e/wts2018_e.pdf, 74) (20.03.2018)

Şəkil 5-dən göründüyü kimi, əsas inteqrasiya olunmuş qrupların regiondaxili ticarətdə payı çox əhəmiyyətlidir.

Regionlaşdırmanın nəzərdən keçirilən tendensiyası çərçivəsində son illər ərzində çoxtərəfli ticarət sazişlərinin genişlənməsi prosesinin zəifləməsi və eyni bir zamanda isə, azsaylı iştirakçıların iştirakı ilə bağlanılan prefensial sazişlərin (xüsusilə də azad ticarət zonalarının yaradılması haqqında) sayının artması tendensiyası müşahidə olunur. Məsələn, son vaxtlar ABŞ, Kanada və Meksika arasında ikitərəfli sazişlərin imzalanması və bu zaman NAFTA birliyinin prinsiplərinin nəzərə alınmaması buna bir sübutdur. Bu cür sazişlərin xüsusiyyəti

ondan ibarətdir ki, onlar liberllaşma xarakteri daşıyırlar və bu zaman iki və ya çox partnyor (tərəf-müqabil) bir-birinə qarşılıqlı güzəştə gedirlər.

Yeni minillikdə bağlanılmış regional ticarət sazişlərinin sayı artmaqda davam edir (ÜTT-nin məlumatlarına görə 400-ə yaxın bu cür fəaliyyətdə olan müqavilələr mövcuddurlar), bunun mövcudluğu da, aparıcı ölkələr arasında olan ziddiyyətlrin kəskinliyi ilə bağlııdır.

3.3. beynəlxalq ticarətdə olan mühüm trendlərdən biri də qeyri-tarif maneələrinin təsirinin artmasından ibarətdir. GATT/ÜTT-nin fəaliyyəti, ikitərəfli ticarət sazişləri və ayrı-ayrı dövlətlərin iqtisadiyyatların açıqlığının artırılması üzrə səyləri nəticəsində beynəlxalq ticarətin tənzimlənməsinin tarif metodlarının əhəmiyyəti nisbətən azalmışdır. Lakin onların yerinə qeyri-tarif məhdudiyyətlərindən fəal surətdə istifadə olunması gəlir.

Gömrük rüsumlarından fərqli olaraq qeyri-tarif maneələrinin təsiri çox böyük bir çətinliklə kəmiyyətcə qiymətləndirilə bilər. Bir qayda olaraq, müqayisəlilik məqsədləri üçün advalor rüsum ekvivalenti şəklində qeyri-tarif maneələrinin dəyərini hesablayırlar. Son tədqiqatlar göstərir ki, qeyri-tarif məhdudiyyətləri tariflərin səviyyəsini demək olar ki, iki dəfə artırırlar. Bu zaman kənd təsərrüfatı məhsulu üçün göstərici, sənaye malları ilə müqayisədə daha çoxdur (World Trade Report , 2013, WTO, 9).

Aparılan tədqiqatın yekunu kimi aşağıdakı nəticələri qeyd eləmək olar ki, birincisi, qloballaşmanın müasir mərhələsində onun təsiri altında yuxarıda göstərilən tendensiyaların (meyllərin) qarşılıqlı təsiri müşahidə olunur vu da beynəlxalq ticarətin yeni keyfiyyətinin formalaşmasına səbəb olur. İkincisi, beynəlxalq ticarətin inkişafının fəaliyyətdə olan tendensiyalarının çoxsaylılığı, həmçinin onların qarşılıqlı təsiri və və bir-biri ilə qovuşması dünya təsərrüfat əlaqələri sisteminin obyektiv olaraq mürəkkəbləşməsi ilə bağlıdır. Üçüncüsü, TMŞ aparıcı bir qüvvə kimi müasir dünya iqtisadiyyatının «drayveri» kimi öz fəaliyyəti ilə dünya ticarətinin inkişafının ən müasir tendensiyalarının (meyllərinin) yaranmasına şərait yaradırlar.

Beləliklə, müasir mərhələdə dünya iqtisadiyyatının inkişafına qloballaşma prosesi çox böyük təsir göstərir və bu da öz növbəsində beynəlxalq iqtisadi münasibətlərdə yeni meyllərin formalaşmasını zəruri edir. Qloballaşmanın təsiri altında beynəlxalq iqtisadi münasibətlərin məzmunu da dəyişilir, yeni cəhətlər yaranır, yeni meyllər formalaşır. Mallar və xidmətlərlə beynəlxalq ticarət, beynəlxalq iqtisadi münasibətlərin bir forması kimi «qloballaşmanın zərbəsini» ilk olaraq öz üzərinə götürür. Buna görə də onun inkişafını yeni şəraitdə, yəni qloballaşma şəraitində nəzərdən keçirmək lazımdır.

İlk əvvəllər, formalaşma zamanı, beynəlxalq ticarətin dayanıqlı inkişafına: beynəlxalq əmək bölgüsü və istehsalın beynəlmiləlləşməsi; elmi-texniki inqilab; trans-milli şirkətlərin (TMŞ) aktiv fəaliyyəti; byn ticarətin liberallaşması; ticarət-iqtisadi inteqrasiyaşma proseslərinin inkişafı kimi amillər öz təsirlərini göstərirdilər. Bütün bunlar da öz növbəsində, beynəlxalq ticarətin həcmlərinin artmasına, onun əmtəə (mal) və coğrafi strukturunun dəyişilməsinə gətirib çıxarmışdı.

Statistik göstəricilər beynəlxalq ticarət dəyərcə həcmlərinin dəfələrlə artımını və onun əmtəə və coğrafi strukturlarının köklü surətdə dəyişməsini bir daha qeyd edirlər. Lakin daha çox maraq doğuran məsələlərdən biri, qloballaşma amillərinin təsiri altında beynəlxalq ticarətdə baş verən dəyişiklərdən ibarətdir.

Elmi ədəbiyyatda qloballaşma haqqında ilk dəfə T. Levitt özünün «Bazarların qloballaşması» məqaləsində qeyd etmişdir və burada o, beynəlxalq şirkətlər tərəfindən buraxılan ayrı-ayrı məhsulların qovuşması fenomenini təsvir etmişdir (Theodore Levitt, 1983). «Qloballaşma» ifadəsindən R. Robertson da istifadə etmişdi, o, özünün məqaləsində «globality» sözündən istifadə etmiş, sonradan bu fenomeni «globalization» kimi izah etmişdi. 1990-cı ildə Harvard biznes məktəbinin məsləhətçisi Keniçi Omaye «Sərhədsiz dünya» kitabını nəşr etmiş və burada o, qeyd eləmişdir ki, bütün əsas proseslər qlobal bazar məkanına tabe olunub, əsas subyektlər rolunu isə «qlobal firmalar» oynayırlar.

Müasir mərhələdə qloballaşma anlayışı çox tez-tez istifadə olunur: həm sosiologiyada, mədəniyyətşünaslıqda, tarixdə, coğrafiyada, həm də iqtisadi elmlərdə.

«Qloballaşma» ifadəsi öz-özlüyündə - bütün dünya ölkələrinin artmaqda olan iqtisadi qarşılıqlı asılılığını nəzərdə tutur və bu da, mallar, xidmətlər və kapitalın dünya axını ilə beynəlxalq sövdələşmələrin həcmlərinin və rəngarəngliyinin artması nəticəsində, həmçinin texnologiyaların daha sürətli və geniş diffuziyası (yayılması) səbəbindən baş verir.

Qeyd eləmək lazımdır ki, müəlliflərin demək olar ki, hamısı qloballaşmanın özünü təzahür etməsinin mövcud yanaşmalarını vahid kommunikasiya sisteminin inkişafı, xarici iqtisadi əlaqələrin liberallaşması, TMŞ-in fəaliyyətinin aktivləşməsi, kapitalın trans-milli axınlarının həcmlərinin və intensivliyinin artımı və s. ilə xarakterizə edirlər.

Beynəlxalq ticarətin inkişafının müasir mərhələsində yeni şəraitdə, qloballaşma şəraitində onu nəzərdən keçirmək lazımdır ki, onun mahiyyətini nə dəyişdirir – bu, artıq sadəcə «alqı-satqı» prosesi deyil, mikro- və makrosəviyyədə olan bütün elementlərin – malgöndərənlərdən (təchizatçılardan) tutmuş beynəlxalq təşkilatlaradək hamının qarşılıqlı fəaliyyətinin yeni keyfiyyətidir.

Beynəlxalq ticarətə qloballaşma şəratində təsir göstərən ən vacib amillərdən biri, şübhəsiz ki, elmi-texniki inqilabdır. Bu amilin təsiri altında beynəlxalq ticarətin inkişaf tendensiyaları aşağıdakılardan ibarətdir.

1. Elmi-teniki inqilab qloballaşmanın obyektiv amili kimi onda özünü ifadə edir ki, informasiya və biliklər alqı-satqı predmetinə çevrilirlər və onlar yaranma, yayılma və yerini dəyişmə prosesində müxtəlif formalara çevrilə bilirlər. Onlar qlobal iqtisadiyyatın mərkəzində yerləşmişlər. Artıq malların dəyərinin çox böyük bir hissəsi innovasiyalarin, tədqiqatların və sınaqların həcmlərindən asılıdır. Elm tutumlu məhsulun beynəlxalq ticarət axınları 1997-ci ildən başlayaraq daima artmaqdadır. Lakin, bu cür məhsul ilə satış qeyri-bərabər yayılmışdır. Bir çox ölkələr digərləri ilə müqayisədə emal sənayesinin daha yüksək-, ortatexnoloji

məhsullarını ixrac edirlər. Biliklərin istehsalçıları, onlardan istifadəyə görə royalti, lisenziya ödənişləri şəklində öz haqlarını alırlar.

Digər tərəfdən isə, elmi-texniki inqilabın beynəlxalq ticarətə təsirinin keyfiyyət tərəfi onun törəmələri vasitəsilə özünü biruzə verir.

Məsələn, daha çox diqqət internet texnologiyalarından istifadə olunmasına verilir, hansı ki, bunlar beynəlxalq ticarəti virtual bir səviyyəyə aparırlar və bu da özünü işgüzar əməliyyatların həyata keçirilməsi zamanı məlumatların ötürülməsivə mübadiləsi üçün qlobal elektron şəbəkələrdən istifadə olunmasında təzahüt etdirir. İnternet kommersiya münasibətlərinin diapazonunun genişlənməsinə şərait yaratmışdır. Elektron kommersiya, şirkətlərə, özlətinin sərhədyanı (trans-sərhəd) əməliyyatlarını daha effektiv və çevik keçirməyə, qlobal malgöndərənlərlə (təchizatçılarla) daha sıx qarşılıqlı fəaliyyət göstərməyə və sifarişçilərin sorğularına və gözləmələrinə daha tez münasibət göstərməyə imkan yaradır.

Beynəlxalq internet-ticarətdə yeni mobil-əlavələr yaranmış və onlardan istifadə olunmağa başlanılmışdır. Bunlar da özlüyündə həm əmtəə (mal), həm də malların satışı üçün vasitə kimi çıxış edirlər. Əlavələrin özləri istehlakçıya yaerəşdiyi yerdən və özünün sosial statusundan asılı olmayaraq alışları həyata keçirməyə böyük imkanlar yaradırlar. Dünyanın ən ucqar yerlərində olmalarından asılı olmayaraq istehlakçılar, alışı sərbəst qaydada nəzərdən keçirmək, onun keyfiyyətini həm vizual (baxışla), həm də virtual (məsələn, digər istehlakçıların rəyləri əsasında) qiymətləndirmək imkanını əldə edirlər. Məsələn, İnstaqramda «see now, buy now» texnologiyasının tətbiq olunması alıcıya imkan verir ki, İnstagram əlavəsində alınan malın, xidmətin xarakteristikalarını öyrənib onu almaq imkanını əldə edə bilsin.

## 3.2. Beynəlmiləlləşdirmə şəraitində Azərbaycanda beynəlxalq kommersiya fəaliyyətinin həyata keçirilən formalarının inkişaf perspektivləri

Müasir dünyada beynəlmiləlləşdirmə çox yaxşı inkişaf etmiş prosesdir, lakin beynəlxalq bazara çıxış dünyanın bir çox ölkələri üçün bir sıra amillərlə məhdudlaşmışdır ki, bunların arasında güclənməkdə olan qloballaşma və milli

mədəniyyətlər arasında fərqliliyi xüsusiə qeyd eləmək lazımdır. Lakin, geniş mənada qloballaşma və beynəlmiləlləşdirmə təkcə milli, mədəni, iqtisadi və psixoloji ölçülərlə deyil, həmçinin siyasi və texnoloji parametrlərlə müəyyən olunurlar.

Beynəlmiləlləşdirmənin problemləri XX əsrin ikinci yarısından başlayaraq elmi dairələrin maraq obyektinə çevrilmişdir. S.Andersson, C.Danninq, Y.Yoxanson və Y.Valne və digər alimlər problemin həllinə özlərinin töhfələrini vermişlər. Onların tədqiqatları, əsasən, beynəlmiləlləşdirmənin nəzəri modellərinin və strategiyalarının qurulmasına, şirkətlərin işgüzar fəallığının təhlilinə yönəldilmişdi. Beynəlmiləlləşdirmənin institusional mühitinin öyrənilməsi aktual və populyar idi və beynəlxalq biznes, sahibkarlıq və strateji menecment kimi sahələrdə aparılırdı.

Bu sahədə müxtəlif nəzəriyyələr (konsepsiyalar) mövcuddurlar:

İnkişafın texnoloji nəzəriyyəsi (Y.Şumpeter)

Firmanın resurs nəzəriyyəsi (E.Penrouz)

Məhsulların həyat dövriliyi fərziyyəsi (R.Vernon)

Transaksiya məsrəfləri nəzəriyyəsi (O.Uilyamsaon)

Ölkələrin rəqabət üstünlüyü nəzəriyyəsi (M.Porter)

Eklektik nəzəriyyə (C.Danninq)

Beynəlmiləlləşdirmənin Uppsal modeli-İsveç modeli (Y.Yoxanson və Y.Valne)

Gözlənilməz innovasiya pauzası (fasiləsi) haqqında fərziyyə (V.Poltoreviç).

Bunların hamısı beynəlmiləlləşdirmənin mahiyyətini müxtəlif cür izah edirlər. Məsələn, Y.Şumpeter özünün inkişafın texnoloji nəzəriyyəsini iqtisadiyyatın inkişafının uzun tarixi dalğası kimi təsvir edir. E.Penrouz artım və rəqabəti yeni oyuqlarda nəzərdən keçirir, R.Vernon belə hesab edir ki, həyat dövriliyinin təhlili inkişaf etmiş və inkişafda olan ölkələrin kapital resurslarının strukturu və innovatik imkanları arasında fərqliliyi başa düşməyə imkan verir. O.Uilyamsaonun transaksiya məsrəfləri nəzəriyyəsi beynəlmiləlləşdirmə proseslərini iki şərti alternativ – autsorsinq və inteqrasiya arasında seçimlə izah

edir. M.Porter özünün ölkələrin rəqabət üstünlüyü nəzəriyyəsində rəqabətə təsir göstərən beş qüvvəni formalaşdırır və beynəlmiləlləşdirməni fəaliyyət düzülüşü (konfiqurasiyası) kimi nəzərdən keçirir. C.Danninqin eklektik nəzəriyyəsi resurs nəzəriyyəsini, yerləşdirilmə nəzəriyyəsini, internalizasiya nəzəriyyəsini (yəni bir-birinə zidd görünənn baxışları birləşdirən) eklektik qaydada birləşdirir və OLI-paradiqmasını (Ownership, Location, Internalization, sahib olma-yerləşdirilmə-internalizasiya (beynəlmiləlləşdirmə) formalaşdırır. Beynəlmiləlləşdirmənin Uppsal modeli (Y.Yoxanson və Y.Valnenin İsveç modeli) beynəlmiləlləşdirməni empirik biliklərin toplanması prosesi kimi nəzərdən keçirir (şək. 6). Eyni zamanda beynəlmiləlləşdirmənin digər İsveç modeli – Halmştad universitetinin konsepsiyası (S.Anderson və İ.Viktor) kiçik firmaların beynəlmiləlləşdirməsini «qlobal doğulmuşlar» fenomeni baxımından nəzərdən keçirir.

Gözlənilməz innovasiya pauzası (fasiləsi) haqqında fərziyyəsində V.Poltoreviç qeyd edir ki, hər hansı bir geniş tələbat texnologiyasının (məsələn, nanotexnologiyanın) gecikməsi zamanı gözlənilməyən innovatik pauza yaranır.

Tədqiqatçılar və alimlər «beynəlmiləlləşdirmə» ifadəsininin özünü də müxtəlif cür izah edirlər.

Y.Yoxanson və Y.Valne (1977-ci il) «beynəlmiləlləşdirmə» ifadəsini «…elə bir inkişaf prosesi kimi izah edirlər ki, bunun vasitəsilə firma özünün beynəlxalq aidiyyatlılığnı xarici bazarlar haqqında toplanmış biliklər və beynəlxalq fəaliyyət təcrübəsi ilə artıra bilirlər (Johanson, J., 23-32).

L.Uelç və R.Luostarinen (1988-ci il) beynəlmiləlləşdirməni: «…firmaların beynəlxalq fəaliyyətə cəlb olunmasının artımı prosesi» kimi ifadə edirlər (Welch, L. S., Vol. 14, 36-64).

M.Forsman, S.Hinttu, S.Kokk (2006-cı il): Beynəlmiləlləşdirmə - «…xammalın, avadanlığın, maliyyənin və texnologiyaların, həmçinin hazır məhsulun beynəlxalq axınlarıdır ki, bunlar da ixracat-idxalat əməliyyatlarının yerinə yetirilməsi zamanı meydana çıxırlar» (Forsman, M., 2002, 1-12).

Jon Danninqə görə beynəlmiləlləşdirmə - «…mülkiyyətin və yerləşdiyi yerin üstünlüklərindən rasional istifadə olunması ilə bağlı olan xarici bazarlarda həyata keçirilən investisiyaların bir formasdır» (Dunning, J. H., 1-31).

Göründüyü kimi, beynəlmiləlləşdirmənin mahiyyət xarakteristikası çoxlu sayda izahlara malikdir və bu da onun mürəkkəbləyini və çoxcəhətliliyini göstərir.

İqtisadiyyatın beynəlmiləlləşdirməsinə ümumi cəhətlərlər, prinsiplər və qanunauyğunluqlar ilə yanaşı, fəaliyyət sferasindan asılı olaraq spesifik əlamətlər də xacdır. Beynəlxalq kommersiya fəaliyyətinə aşağıdakı spesifik əlamətlər xasdır:

**Şəkil 6: Beynəlmiləlləşdirmə üzrə Uppsala modeli**




**Mənbə:** Andersen, Otto (2011, 210)

- beynəlmiləl amillərin beynəlxalq kommersiya fəaliyyətinin bütün sahələrinə dərindən nüfuz etməsi;

- beynəlxalq kommersiya fəaliyyətnin investisiyalar və qarışıq sərmayələr əsasında müasirləşdirilməsi;

- yeni motivləşdirmə mexanizmlərinin, ctandartların, normativlərin, ÜTT qaydalarının, iqtisadi nizamlayıcıların və s. inkişaf etməsi;

- ölkələr arasında dayanıqlı iqtisadi əlaqələrin inkişaf etməsi.

Beynəlxalq kommersiya fəaliyyətinin inkişafına institusional mühit mühüm təsir edən amillərdən biridir. Dünya Bankının «Biznesin aparılması» layihəsinə görə (Doing Business, World Bank) 2018-ci ildə Beynəlxalq ticarət indeksinə görə Azərbaycan 83-cü yeri, kontraktların yerinə yetirilməsinin təmin olunması və icrasına görə isə – 38-ci yeri tutmuşdur (cədv. 8).

Beynəlxalq ticarət göstəricisi bir neçə göstəricidən yaranır və buraya həmçinin sərhəd və gömrük nəzarəti (sərf olunan vaxt və orta dəyər), ixracat və idxalat üçün lazım olan sənədlər, onlara sərf olunan vaxt və onların əldə olunması dəyəri daxildirlər.

**Cədvəl 8: Doing Business, World Bank 2018 üzrə ölkələrin reytinqləri**

| Ölkə | Biznesin asan aparılması reytinqi | Müəssisə lərin qeydiyyatdan keçməsi | Tikintiyə icazənin alınması | Elektrik təchizatı sisteminə qoşulma | Mülkiyyətin qeydiyyata alınması | Kreditlərin alınması | Minoritar investorların qorunması | Vergiqoyma | Beynəlxalq ticarət | Kontraktların yerinə yetirilməsinin təmin olunması | Ödəniş qabiliyyətinin olmamasının həlli |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Yeni Zenlandiya | 1 | 1 | 3 | 37 | 1 | 1 | 2 | 9 | 56 | 21 | 32 |
| Sinqapur | 2 | 6 | 16 | 12 | 19 | 29 | 4 | 7 | 42 | 2 | 27 |
| Danimarka | 3 | 34 | 1 | 16 | 11 | 42 | 33 | 8 | 1 | 32 | 7 |
| ABŞ | 6 | 49 | 36 | 49 | 37 | 2 | 42 | 36 | 36 | 16 | 3 |
| Gürcüstan | 9 | 4 | 29 | 30 | 4 | 12 | 2 | 22 | 62 | 7 | 57 |
| Rusiya | 35 | 28 | 115 | 10 | 12 | 29 | 51 | 52 | 100 | 18 | 54 |
| Qazaxıstan | 36 | 41 | 52 | 70 | 17 | 77 | 1 | 50 | 123 | 6 | 39 |
| Belarus | 38 | 30 | 22 | 25 | 5 | 90 | 40 | 96 | 30 | 24 | 68 |
| **Azərbaycan** | **57** | **18** | **161** | **102** | **21** | **90** | **10** | **35** | **83** | **38** | **47** |
| Çin | 78 | 93 | 172 | 98 | 41 | 68 | 119 | 130 | 97 | 5 | 56 |

**Mənbə:** Doing Business, World Bank 2018 məlumatları əsasında tərtib olunmuşdur (20.02.2019)

Qeyd eləmək lazımdır ki, cədvəl 8-ə görə ixracat üzrə sərhəd və gömrük nəzarətinə Azərbaycan üzrə 29 saat (məsələn, Rusiya üzrə - 72 saat), sənədlərin tərtibatına və qeydiyyatına – 25,4 saat (Rusiya üzrə - 33 saat) tələb olunur. Digər tərəfdən, gəlirin yüksək səviyyəsi olan İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı

(İƏİT) ölkələrində bu göstəricilər bir neçə dəfə aşağıdır: müvafiq olaraq – 12,7 və 2,4 saat. İxracatın dəyərinə bu proseslə bağlı olan bütün rəsmi yığımlar daxildirlər, o cümlədən sənədlərin tərtib olunması, gömrük prosedurаları və nəql olunması ilə bağlı məsrəflər daxildirlər. İdxalat əməliyyatları üzrə daha çox vaxt sərhəd və gömrük nəzarətinə sərf olunur – müvafiq olaraq 38,6 saat və 30 saat. Eyni zamanda, idxalat əməliyyatları üzrə sənədlərin tərtib olunmasına və qeydiyyatına 38 saat (Rusiya üzrə 42,5 saat) sərf olunur ki, bu da orta Avropa göstəriciləri ilə müqayisədə çoxdur (İƏİT üzrə müvafiq olaraq – 8,7 və 3,5 saat) (cədvəl 9).

**Cədvəl 9: Doing Business 2018 beynəlxalq ticarət üzrə reytinqlər**

| | **Azərbaycan** | Rusiya | Avropa və Mərkəzi Asiya | İƏİT yüksək gəlir səviyyəsi |
|---|---|---|---|---|
| Beynəlxalq ticarət Reytinq | **83** | 100 | 58 | 25 |
| **İxracat:** | | | | |
| Sərhəd və gömrük nəzarəti | | | | |
| Sərf olunan vaxt (saat) | **29** | 72 | 28,0 | 12,7 |
| Dəyər, ABŞ dolları ilə | **214** | 665 | 191,4 | 149,9 |
| Sənədlərin tərtib olunması | | | | |
| Sərf olunan vaxt (saat) | **33** | 25,4 | 27,9 | 2,4 |
| Dəyər, ABŞ dolları ilə | **300** | 92 | 113,8 | 35,4 |
| **İdxalat:** | | | | |
| Sərhəd və gömrük nəzarəti | | | | |
| Sərf olunan vaxt (saat) | **30** | 38,6 | 25,9 | 8,7 |
| Dəyər, ABŞ dolları ilə | **300** | 287,5 | 185,1 | 111,6 |
| Sənədlərin tərtib olunması | | | | |
| Sərf olunan vaxt (saat) | **38** | 42,5 | 27,3 | 3,5 |
| Dəyər, ABŞ dolları ilə | **200** | 152,5 | 94,7 | 25,6 |

**Mənbə:** Doing Business, World Bank 2018 məlumatları əsasında tərtib olunmuşdur (20.02.2019)

Beynəlxalq kommersiya fəaliyyətinin genişləndirilməsində və inkişaf etdirilməsində institusional mühitin araşdırılmasında mühüm rol oynayan bu reytinqdə Azərbaycan mühüm yerlərdən birini tutmağa namizəd olub və bu göstərici müxtəlif illər üzrə qalxıb-enmişdir və 2018-ci ildə 57 yerlə nəticələnmişdir (qrafik 6). Qrafikdən məlum olur ki, 2006-cı ildən başlayaraq respublikada biznes mühitinin yaxşılaşması istiqamətində məqsədyönlü işlər görülmüşdür.

Məsələ ondan ibarətdir ki, hansı birinci dərəcəli amillər beynəlmiləlləşdirmə haqqında qərar qəbul edilən zaman əsas amil kimi sayılırlar. Ümumiləşdirilmiş şəkildə obyektləri beynəlmiləlləşdirmə yolu ilə irəlidilən bütün amilləri şərti olaraq iki qrupa bölmək olar:

1. daxili amillər, bunlar, beynəlmiləlləşdirmə obyektinin özünün spesifil xüsusiyyətləri ilə şərtləniblər;

2. xarici amillər, bunlar, beynəlxalq xarici mühitin imkanları ilə bağlıdırlar.

**Qrafik 5: Azərbaycanın Doing Business reytinqində tutduğu yer**




**Mənbə:** Doing Business, World Bank 2018 məlumatları əsasında tərtib olunmuşdur (20.02.2019)

Amillərin birinci qrupu strategiyadan, məqsədli göstərişlərdən, ambisiyalardan, keçmişdən toplanmış təcrübədən və s. ibarətdir, ikinci isə - beynəlxalq xarici mühitin imkanlarından istifadə olunması, beynəlxalq menecmentin təşkilati formalarının seçilməsi, dünya bazarındakı rəqabətin şərtləri və digər amillərlə bağlıdır.

Xarici bazara çıxış, bir qayda olaraq, çox çətin bir şəraitdə qəbul olunur və bu, bazara çıxışın iki yanaşmalarından birinin seçilməsi ilə bağlı olur: birincisi, bazarın ekspansiyası (beynəlxalq bazara istiqamətlənmə, beynəlxalq seqmentləşdirmə və s.) – bu, kəmiyyət artımıdır, və ikincisi isə - daha effektiv yanaşma olan – keyfiyyətcə inkişafdan ibarətdir və bu yanaşma, ümumdünya qlobal şəbəkələrin imkanlarından, informasiya-kommunikasiya texnologiyalarından, beynəlxalq maliyyə bazarlarından və kadr potensialından istifadə olunmaını, formatlar, brendinq, təcrübə və qarşılıqlı münasibət vasitəsilə rəqabət üstünlüklərinin tapılıb müəyyən olunmasını nəzərdə tutur.

Beynəlxalq bazara çıxış çox mühüm bir əhəmiyyət daşıyır və bu da, həmin fəaliyyətin minimal effektivlik miqyasının ölkənin bütün daxili bazarının ölçüsünə nisbətən çox böyük olması ilə əsaslandırıla bilər. Beynəlmiləlləşdirmə amilləri öz tərkibinə və daxili elementlərinə görə çox müxtəlifdilər və buda əsasən, beynəlxalq bazara çıxış strategiyası (rəqabət üstünlüklərinin tətbiq olunması strategiyası, cəlbedici bazarların axtarılması strategiyası, müştərilərin arxasınca xarici bazarlara getmə strategiyası və i.a.) ilə bağlıdır.

Lakin, digər tərəfdən isə, beynəlxalq bazara çıxış bir sıra risklər və çətinliklərlə bağlıdır (şəkil 7). Şəkil 7-də göstərilən sığorta risklərinin təhlili göstərir ki, beynəlxalq bazarların potensial zəbt etmək istəyənlər siyasi və iqtisadi riskləri, əməliyyat risklərini və rəqabət risklərini, çoxsaylı problemləri nəzərə almalıdırlar və öz strategiyalarına daimi olaraq düzəlişlər etməlidirlər.

Beynəlmiləlləşdirmə amilləri qloballaşma amilləri ilə sıx surətdə bağlıdırlar və çox zaman onlarla müəyyən olunurlar. Müasir dünyada qloballaşmanın təsiri daha hissiyatlı və təsiredici amilə çevrilmişdir. Qloballaşmanın təsiri altında ayrı-ayrı ölkələrdə çox cəld və kəskin iqtisadi dəyişikliklər baş verə bilər. Qloballaşma həm də dövlətin tex bir zamanda müflisləşməsinə və yaxud onun dinamik inkişafına gətirib çıxara bilər.

Buna görə də, beynəlmiləlləşdirmə amillərinin qloballaşma amillərisiz nəzərdən keçirilməsi qeyri-səmərəli nəticələrə gətirib çıxara bilər. Dünya bazarının qloballaşma şəraitində yaranmış xüsusiyyətlərini və eyni zamanda,

qloballaşmanın çox vacib bir nəticəsi olan – qlobal rəqabəti və onun xarakterinin dəyişilməsini nəzərə almadan beynəlmiləlləşdirmənin mahiyyəti öz fəlsəfəsini itirir.

Kommersiya fəaliyyətinin beynəlmiləlləşdirməsi müxtəlif formalarda həyata keçirilə bilər – ixracat ticarət ilə, xarici ölkələrdə nümayəndəliklərin, ticarət firmalarının, birgə müəssisələrin yaradılması ilə, istehsalın digər yerlərə köçürülməsi ilə, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin (ETTKİ) həyata keçirilməsi ilə, digər ölkələrdə marketinq işləmələrini yerinə yetirməklə və s.

**Şəkil 7: Ölkələr risklərinin təhlilinin strukturu**




Belcsak H. P., 2001 istifadə edilərək müəllif tərəfindən tərtib olunmuşdur

Kommersiya fəaliyyətinin beynəlmiləlləşdirməsinin rasional formasının seçilməsi zamanı əsas diqqət firmanın strateji məqsədlərinin və onun ölkədə və onun xaricində fəaliyyətinin konkret şərtlərinin müəyyən olunmasına

yönəldilməlidir. Məsələn, beynəlmiləlləşdirmənin daha üstün ixracar mərhələsinin seçilməsindən, firmanın tələbdəki sikliliyin dəf edilməsindən, iqtisadi şəraitlərdəki fərqliliyin həyata keçirilməsindən, satış həcmlərinin artmasından asılıdır. Reallaşdırma üçün şərtlər kimi dünya rəqabətinin amilləri, marketinqin diferensiasiya olunması zəruriyyəti, fəaliyyət göstərmə şəraitlərindəki fərqliliklər, idxalat üçün səddlərin olması amilləri çıxış edirlər.

Xarici bazara çıxışın (ingilis variantında «entry mode») dünya təcrübəsi 3 bazis strateji istiqaməti nəzərdə tutur: yəni eksternalizasiyadan internalizasiyaya doğru gedən yol ixracatdan keçir (buraya nəzarətin aşağı səviyyədə olması, risklərin aşağı dərəcəliliyi  və yüksək çeviklik xarakterikdir); tərəf-müqabillik (partnyorluq) – idarəçilik üçün birgə mülkiyyətin olması, risklərin bölüşdürülməsi; biznesin iyerarxik qurulması – burada nəzartin yüksək səviyyədə olması, risklərin yüksək olması, çevikliyin aşağı olması üstünlük təşkil edir.

Kommersiya fəaliyyətinin beynəlmiləlləşdirməsinin optimal formasını seçərkən hər şey müxtəlif sayda amillərdən asılı olur ki, bunlardan firmanın məhsul seçimi, onun hazırlanması texnologiyası üzrə strategiyasını, marketinqi, istehsalın yerləşdirilməsini göstərmək olar. Ümumiləşdirilmiş şəkildə kommersiya fəaliyyət beynəlmiləlləşdirmə nin seçimi alqoritmi aşağıdakı bir neçə mərhələdn keçir:

1. Marketinq strategiyasınıın müəyyən olunması.
2. İstehsalın yerləşdirilməsi variantının müəyyən olunması.
3. Bu variantların əsasında beynəlxalq kommersiya fəaliyyətinin beynəlmiləlləşdirməsinin məqsədəuyğun formasının müəyyən olunması.

Bizim fikrimizcə, beynəlmiləlləşdirmənin strateji planı aşağıdakı mərhələlərdən ibarət olmalıdır:

kommersiya müəssisələrinin dəstəklənməsi və onların  artımlarının həvəsləndirilməsi;

beynəlmiləlləşdirmə prosesində innovatik texnologiyalardan və birinci növbədə isə, rəqəmsal texnologiyalardan aktiv istifadə etmək və onları tətbiq etmək;

insan kapitalının hərtərəfli inkişaf etdirilməsi;

kommersiya müəssisələrinin ümumi kommersiya siyasətinin və resurslarının imkanlarından istifadə olunması;

yüksək əlavə dəyərə malik olan xarici sərmayələrin (investisiyaların) aktiv olaraq cəlb olunması;

dövlət və xüsusi (özəl) bölmələrin əməkdaşlığının hərtərəfli möhkəmləndirilməsi.

Aydındır ki, bu istiqamətdə əsas iş dövlətin üzərindədir. Onun tərəfindən kommersiya müəssisələrinə maliyyələşdirmə üzrə, həmçinin informasiya və hüquqi dəstəyin verilməsi, onlara xarici bazarları fəth edərkən özlərinin zəif və güclü tərəflərini müəyyən etməyə yardımçı olması vacib məsələlərdən biridir.

Beynəlmiləlləşdirmə planının işlənib hazırlanması özünə bir sıra xarakteristikaları daxil edir ki, bunlardan - qəbul edən tərəfin seçimi, kommersiya fəaliyyətinin beynəlxalq mühiti, hüquqi təsir etmə sferaları və hüquqi sistemin vəziyyətinin partnyorların qarşılıqlı münasibətlərinə təsiri, investisiya mühiti və xarici ölkələrdə vergi və əmək qanunvericiliklərinin xüsusiyyətləri, danışıqların aparılması və müqavilələrin bağlanılmasına hazırlıq zamanı işgüzar münasibətlərin milli xüsusiyyətlərinin nəzərə alınması kimi xarakteristikaları qeyd etmək olar.

Kommersiya fəaliyyətinin beynəlmiləlləşdirilməsi layihəsinin həyata keçirilməsi planının işlənilib hazırlanması qaydası və onun strukturu xarici partnyorun axtarılıb tapılması, onun qiymətləndirilməsi və seçilməsi metodlarından, xarici firmalar haqqında mötəbər və gercək informasiya mənbələrinin olmasından daha çox asılıdır. Bu məsələdə müsbət rolu firmanın kartının tərtib olunması, partnyor əlaqələrinin qurulması kanallarıının işlənib hazırlanması oynayır. Bu cür layihənin maliyyə məsələləri baxımından isə, partnyorun maliyyə vəziyyətinin qiymətləndirilməsinin konkret metodlarının və üsullarının və onlara dünya uçot sisteminin xüsusiyyətlərinin təsirinin müəyyən olunması çox mühüm əhəmiyyət kəsb edir.

Xarici firmalarla birgə fəaliyyətin təşkil olunması bazarda mövcud olmağın düşünülmüş mərhələvari siyasətinin həyata keçirilməsini nəzərdə tutur; bu, xarici

ticarət müdaxiləsi (ekspansiyası) kimi, yəni malların və xidmətlərin ixracatı, texnologiyaların satışı və s. şəklində və xarici ekspansiya (özünün şəxsi satış və istehsalat şəbəkəsinin yaradılması) şəklində ola bilər. Birləşmə və digər firmalar tərəfindən udularaq qovuşma, xarici filialın yaradılması, xarici ölkədə törəmə müəssisə kimi filialın açılması və yaxud assosiativ şirkətin açılması zamanı beynəlmiləlləşdirmə dərəcəsi yüksək olsa da, bunlar yüksək kapital tələb edirlər.

**Şəkil 8: Firmanın fəaliyyətinin ardıcıl olaraq beynəlmiləlləşdirilməsi modeli**




**Mənbə:** Andersen, Otto (2011, 213)

Bu cür model (şəkil 8) satışın xaricdə genişləndirilməsinə yönəldilmişdir və o, əmtəə ixracatının ardıcıl surətdə beynəlxalq sahibkarlıq fəaliyyətinin yeni formaları ilə əlavə olaraq doldurulmasını əks etdirir.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Qeyd eləmək lazımdır ki, beynəlxalq kommersiya əməliyyatları hazırki dövrdə özlüyündə sadəcə olaraq «alqı-satqı» əməliyyatlarından ibarət deyildir, əksinə, bu, bu əməliyyatlara daxil olan bütün elementlərin keyfiyyətcə qarşılıqlı fəaliyyətindən ibarətdir.

İndiki şəraitdə beynəlxalq kommersiya fəaliyyətinin müasir inkişaf meylləri içərisində vacib yeri elmi-texniki tərəqqi tutur. Müasir dövrdə istehsal olunan malların və göstərilən xidmətlərin dəyərinin çox bir hissəsi innovasiyaların, tədqiqatların, sınaq və təcrübələrin həcmindən asılıdır. Elmtutumlu məhsulların beynəlxalq ticarət axınları 1997-ci ildən bu günədək daim yüksək templərlə artmaqdadır. Bir çox ölkələr digərləri ilə müqayisədə emal sənayesinin daha çox yüksək-, orta texnoloji məhsullarını ixrac edirlər. Bilik istehsalçıları ondan istifadəyə görə royalti, lisenziya ödənişləri şəklində haqq alırlar.

Digər tərəfdən, İnternet texnologiyalarından istifadə olunmasına daha çox diqqət yetirilir və bu sahə beynəlxalq kommersiya fəaliyyətini daha çox virtual səviyyəyə «dartıb aparır». Bütün bunlar öz təzhürünü ilk növbədə, işgüzar kommersiya əməliyyatlarının keçirilməsi zamanı məlumatların ötürülməsi və mübadiləsi zamanı qlobal elektron şəbəkələrindən istifadə olunmasında göstərir.

Beynəlxalq internet-ticarətdə mobil proqram əlavələri meydana çıxmış və onlardan istifadə olunur - həm əmtəə (mal) kimi, həm də malların satış vasitəsi kimi. Bu cür əlavələr istehlakçının özünə yerləşdiyi məkandan, sosial statusundan asılı olmayaraq alışları həyata keçirməyə şərait yaradır. Dünyanın müxtəlif hissəsində yerləşərək, istehlakçılar alışı sərbəst olaraq nəzərdən keçirə bilir, onun keyfiyyətini həm vizual, həm də virtual olaraq qiymətləndirə bilər və digər istehlakçıların rəylərini də öyrənə bilirlər. Məsələn. «see now, buy now» texnologiyasının tətbiq olunması, alıcıya Instaqram əlavəsi vasitəsi ilə aldığı malın, xidmətin xarakteristikasını öyrənməyə və onu əldə etməyə imkan yaradır. İnstaqram saytını milyonlarla istifadəçi daxil olur.

Beynəlxalq kommersiya meyllərinin «virtuallaşması» beynəlxalq hesablaşmalarda dəyişikliklər yaratmışdır. Belə ki, internet-mağazalardan alınan mallara görə hesablaşmaların yeni texnologiyaları meydana çıxmışdır. Beynəlxalq alışlar üzrə hesablaşmalarda ticarət valyutralarından istifadə olunur, Belə ki, Amazon şirkəti özünün valyutasını buraxmışdır və bu valyuta Amazon App Store əlavəsində istifadə olunur. Bu virtual pula proqram əlavəsini almaq və onların daxilində alışlar etmək mümkündür: Amazon Coins valyutasının nominalı – 1 ABŞ sentinə bərabərdir. «Bitkoin» sistemi də populyarlaşıb və ondan da artıq qlobal miqyasda ödəniş vasitəsi kimi istifadə olunur. Bu da ilk növbədə onun digər ödənişlərlə müqayisədə yüksək dərəcədə anonimliyi və bir çox istifadəçilər üçün əlçatan olması ilə bağlıdır.

Müasir İnternet istehlakçı, istehsalçı və satıcı arasında mövcud olan münasibətləri dəyişir və onu daha yüksək keyfiyyət səviyyəsinə çıxarır. Əgər əvvəllər malın satılmasının vacib kriterisi kimi qiymət və keyfiyyət çıxış edirdisə, indiki zamanda belə meyar fərdiləşdirilmiş tələbatların təmin olunmasından ibarətdir. Yəni beynəlxalq əmtəə (mal) elə adaptasiya olunmalı, konfiqurasiya olunmalı (xarici görünüşə gətirilməlidir), elə göndərilməlidir ki, istehlakçıların tələbatları maksimal səviyyədə ödənilə bilinsin.

Ənənəvi of-layn mağazaları xidmət keyfiyyətini qaldırmaq məqsədilə öz servislərini iri internet-riteylerlərin səviyyəsinə uyğun olaraq təkmilləşdirirlər, mağazalarda innovatik texnologiyalardan istifadə edirlər.

Beynəlxalq kommersiya fəaliyyətinin müasir meylləri içərisində çoxsaylı şirkətlərin əlavə olunmuş dəyərin qlobal zəncirləri konsepsiyasına cəlb olunmasından ibarətdir. Bu konsepsiyanın mahiyyəti ondan ibarətdir ki, məhsulun istehsalında bir çox ölkələr iştirak edirlər və bununla da onun maya dəyərini aşağı salır, ayrı-ayrı tərkib hissələrinin istehsalı zamanı ixtisaslaşmanın köməyi ilə məhsulun keyfiyyətini yaxşılaşdırırlar. UNCTAD-ın məlumatlarına görə bütün dünya üzrə əlavə olunmuş dəıyərin 80%-i şirkətlərin nəzarətində olan istehsalat və ticarət zəncirində yaradılır ki, bu şirkətlər malın yaradılması prosesini xırdalayır və onların məkanca yerləşdirilməsini ayrı-ayrı fraqmentlərə bölürlər. Ölkələr,

məhsulun istehsalı üçün lazım olan tərkib hissələri idxal edə bilir və yaxud milli məhsulun bir hissəsini digər ölkələrdə istehsalda istifadə etmək üçün ixrac etmək imkanına malik olurlar. Lakin, elmi-texniki tərəqqinin təsiri altında bu istiqamətdə qlobal dəyişiklərin olma ehtimalı yüksəkdir.

Qlobal əlavə olunmuş dəyər zəncirlərin digər məqamı əlavə olunmuş dəyərin qlobal dəyər zəncirinin müxtəlif mərhələlərində yaradılması ilə bağlıdır. Əgər bunlar elmi-tədqiqat və təcrübi-konstruktor işləri, istehsal mərhələlərində baş verirlərsə, bu zaman ölkələrin ənənəvi beynəlxalq ticarət vasitəsilə qarşılıqlı fəaliyyətləri mümkündür. Distribusiya, marketinq, pərakəndə satış mərhələlərində həm B2B, həmçinin B2C səviyyəsində internet vasitəsilə qarşılıqlı təsir göstərmə mühüm rol oynayır.

Müasir mərhələdə beynəlxalq ticarət siyasətində qlobal dəyişikliklər baş verməkdədir. Bu dəyişikliklər yeni internet free trade konsepsiyasına və free-inter trade siyasətinə keçidlə bağlıdırlar. Bu da yeni qaydaların sistemləşdirilməsinin, tənzimlənməsinin, yeni qaydaların işlənib hazırlanmasının zəruriliyi ilə bağlıdır ki, bütün bunlar öz növbəsində ənənəvi beynəlxalq ticarətin texnoloji internet beynəlxalq ticarətə istiqamətlənməsinə imkan yaradacaqdır.

Bu cür siyasətin formalaşması beynəlxalq virtual internet-ticarətin inkişafı ilə şərtləşəcəkdir və bu yolda çoxlu sayda maneələr yaranacaqdır ki, onları dəf etmək lazım gələcəkdir. Müasir mərhələdə bu cür maneələr: alış zamanı vergi dərəcələrinin qaldırılması (müəyyən məbləğdən yuxarı olan), çatdırılma müddətlərində məhdudiyyətlər, malların çatdırılmasının yüksək məbləği, elektron kisələrin elektron qaydada sındırılması ilə bağlı olan kiberfırıldaqçılıqlar, internet-mağazalar tərəfindən malların və xidmətlərin vicdansız satışı və s. ilə bağlıdır. İnternet vasitəsilə ticarət müəyyən növlərdən olan cinayətlərin və fırıldaqların meydana gəlməsinə səbəb olmuşdur. Bundan başqa, hökumətlər vergi bazasının eroziyası və transfert qiymətyaranma ilə məyus ola bilərlər.

Müasir mərhələdə beynəlxalq kommersiya fəaliyyətinin inkişafı yolunda olan iqtisadi maneələr: informasiya-kommunikasiya texnologiyaların infrastrukturunun yaxşı inkişaf etməməsi və onlardan istifadə olunması, enerji

təchizatının qeyri-etibarlığı və yüksək dəyəri, kredit kartlarından istifadənin məhdudluğu, alıcılıq qabiliyyətinin lazımi səviyyədə olmamması və maliyyə sisteminin zəif inkişaf etməsi ilə bağlıdırlar.

Sosial-siyasi maneələrə: normativ-hüquqi bazanın zəif inkişafı (bu da insanların və müəssisələrin şəbəkə operatorlarına olan etbarlılıq dərəcəsinə təsir göstərir), mədəni amillərdən asılı olaraq şəxsi əlaqələrə daha çox üstünlik verilməsi, həmçinin cəmiyyətdə nağdı puldan istifadə olunmasına üstünlük verilməsi ənənəsinin mövcudluğu daxildirlər. Və nəhayət, koqnitiv maneələrə: informasiya-kommunikasiya texnologiyaları savadlılığının aşağı səviyyədə olması, istehlakçılar və müəssisələr arasında elektron ticarətlə bağlı olan məlumatlılığın və biliklərin lazımi səviyyədə olmaması aid oluna bilərlər.

«Elektron ticarətin ekosisteminin» - amillər sisteminin, institutların və infrastrukturun, effektiv elektron ticarət üçün zəruri olan yaradıcı mühitin, - dəyişilməsi nəticəsində hazırki dövrdə bu maneələrin çoxunu dəf etmək mümkündür.

Beynəlxalq təşkilatlar, ö cümlədən, ÜTT, nəhəng internet-riteylerlər və başqaları üçün isə bu, yeni sazişlərin yaradılması, virtual beynəlxalq ticarətin etik kodeksinin işlənib hazırlanması deməkdir.

Qeyd olunanlar beynəlxalq kommersiya fəaliyyətinin yeni səviyyəyə keçməsini sübuta yetirir ki, burada ənənəvi forma yeni – virtual beynəlxalq kommersiya fəaliyyəti ilə əvəz olunur və bütün bünlar qloballaşma amillərinin təsiri altında baş verir. Demək olar ki, hazırda yeni texnoloji internet beynəlxalq ticarət formalaşmaqdadır.

Formalaşan internet-iqtisadiyyat müəyyən əlamətlərin mövcudluğu ilə xarakterizə olunur: digər iqtisadi sistemlərin texniki bazisindən fərqli olan özünə məxsus olan şəxsi texnoloji əsas; dayanıqlı əks əlaqələr; internetin iqtisadiyyata nüfuzunun «kritik kütləsi»; özünə məxsus olan infrastruktur; sistem yaradıcı institutların mövcudluğu.

Texnoloji internet beynəlxalq ticarət üçün onun formalaşmasını və inkişaf etməsini göstərən bir sıra əlamətlər də xarakterikdir: alıcı və satıcı cəmiyyətinin mövcudluğu; texnoloji bazanın – virtual saytların, domenlərin, internet-bankinqlərin və s. mövcudluğu; formalaşmaqda olan normativ-hüquqi baza.

Beləliklə, yuxarıda qeyd olunanlar əsasında aşağıdakı nəticələrə gəlmək olar:

Beynəlxalq kommersiya fəaliyyəti beynəlxalq əmək bölgüsü, beynəlmiləlləşdirmə, trans-milli şikətlərin fəaliyyəti və bir sıra digər amillərin təsiri altında yaranmış və inkişaf etmişdir.

Müasir qloballaşma şəraitində beynəlxalq kommersiya fəaliyyəti yeni keyfiyyətə transformasiya olur: informasiya və biliklər alqı-satqı obyektinə çevrilirlər, yeni satış texnologiyaları meydana çıxırlar, elə yeni əmtəə (mal) yaranır ki, onlar əmtəənin ənənəvi anlayışından fərqli olaraq heç bir fiziki xarakteristikalara malik deyildilər, məsələn, mobil elektron proqram əlavələri.

Qloballaşma amillərinin təsiri altında beynəlxalq ticarət əməliyyatlarına görə aparılan ödəniş sistemlərində, dəyərin yaranmasının qlobal zəncirində təkamül baş verir.

Qlobal dünyada yeni ticarət siyasəti formalaşır ki, bunu da «interliberallaşdırma» adlandırmaq olar; bunun mahiyyəti beynəlxalq ticarətdə meydana çıxan problemlərin həll olunmasında, yeni qaydaların və nizamlanma mexanizmlərinin formalaşmasında öz əksini tapır.

Beynəlxalq birlik bu cür məsələlərin həll olunması üçün lazım olan qaydaların və əsasnamələrin zəruriliyi haqqında hələ indi dialoqa başlamışdır və rəqəmsal iqtisadiyyatla bağlı olan hansı məsələlərin Ümumdümya ticarət təşkilatının səlahiyyətlərinə, hansıların isə digər beynəlxalq təşkilatların səlahiyyət dairəsinə aid olması üzrə razıllığa gəlmək lazımdır. Hazırda çox tez bir dəyişən bir zamanda və nüfuzlu oyunçiların özlərinin dar kommersiya maraqlarının rəhbər tutduqları vaxtda öz üzərinə qaydaların yerinə yetirilməsi üzrə düşünülməmiş

öhdəliklərin götürülməsi sonradan çox pis nəticələrə və fəsadlara gətirib çıxara bilər.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

## Azərbaycan dilində


1. «Azərbaycan Respublikasının Konstitusiyası». Bakı, Qanun -1999
2. Dövlət Statistika Komitəsinin statistik materialları – 2018
3. «Azərbaycan Respublikasının Mülki Məcəlləsi». Qanun - 2000
4. «Azərbaycan Respublikasının Gömrük Məcəlləsi» (https://www.gov.az.html)
5. Azərbaycan Respublikasının ”Haqsız rəqabət haqqında“ Qanunu -1995
6. «İdxal-ixrac əməliyyatlarının tənzimlənməsi» Təlimat.
7. Azərbaycanın xarici ticarəti üzrə Dövlət Statistika Komitəsinin statistik materialları – 2018 (www.stat.gov.az)
8. Abbasbəyli A.N. (2006) «Beynəlxalq münasibətlərin proqnozlaşdırılmasının nəzəri əsasları», Bakı – 292 səh.
9. Baxışov M. (2002) «Beynəlxalq münasibətlər nəzəriyyəsi», Bakı – 208 səh.
10. Babaoğlu H. (2012) «Dünya siyasəti və beynəlxalq münasibətlər». Bakı, Çinar-Çap – 568 səh.
11. Məhərrəmov A.M., Aslanov H.H.. (2008) «Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi», Bakı – 240 səh.


## Xarici dildə


1. Аакер Д. (2007). «Стратегическое рыночное управление». Пер. с англ. СПб.: Питер - 496 стр.
2. Грачёв Ю.Н. (2010) «Внешнеэкономическая деятельность. Организация и техника внешнеторговых операций». Учебно-практическое пособие. Библиотека журнала «Внешнеэкономический бюллетень», М.: ЗАО «Бизнес-школа «Интел-Синтез» - 592 стр.
3. Дж. Вуд, Т. Колоши. (2010) «Переговоры: мастерство создания взаимовыгодного процесса», Журнал «Маркетинг», № 4.
4. Евдокимов А. И. (2003) «Международные экономические отношения», М.: ТК Велби – 930 стр.
5. Кабатова Е.М. (2012) «Лизинг: правовое регулирование, практика», М.: Изд-во «Инфра -М» - 203 стр.
6. «Международные экономические отношения» / Под ред. Рыбалкина В.Е., М.: ЮНИТИ-ДАНА, 2012 – 623 стр.

7. «Мировая экономика и международные экономические отношения» / Под ред. Булатова А. С. и Ливенцева Н.Н., М.: Магистр, 2008 – 672 стр.
8. Обойн М. (2012) «Международная торговля в период глобального экономического кризиса» // «Вестник Санкт-Петербургского университета». Сер. 5. № 3, стр.76
9. Половцева Ф. П. (2012) «Коммерческая деятельность»: учебник для студентов вузов / Ф. П. Половцева. - М. : ИНФРА-М – 248 стр.
10. Попадюк К.Н., 2005. «Влияние жизненного цикла товара на изменения параметров цепи поставок» // Журнал «Маркетинг в России и за рубежом», № 2, стр. 133.
11. Свинухов В.Г. (2005) «Таможенно-тарифное регулирование внешне-экономической деятельности и таможенная стоимость». Учебник, М. Экономистъ - 271 с.
12. Синецкий Б.И. (2010) «Основы коммерческой деятельности»: Учебник.- М.: Юристь – 526 стр.
13. Смитиенко Б. М. (2005) «Международные экономические отношения», М.: ИНФРА-М – 528 стр.
14. Тертышник М.И. (2017) «Экономика предприятия»: учеб. пособие для студентов вузов / М. И. Тертышник ; Байкал. гос. ун-т экономики и права. - 2-е изд. - М. : ИНФРА-М. - 327 стр.
15. Фаминский И. П. (2004) «Международные экономические отношения», Экономистъ. – 786 стр.
16. Фомичев В. И. (2000) «Международная торговля», М.: ИНФРА-М. – 446 стр.

1. Andersen, Otto (2011) «On the ınternatıonalızatıon process of fırms: a crıtıcal analysıs » https://pdfs.semanticscholar.org/dafc
2. Belcsak H.P. (2001) «Country risk assessment» // Clark B. W. Handbook of international credit management. 3rd ed. L.: Gower Publishing Co. – 643 P.
3. Dunning, J. H. (1988) «The eclectic paradigm of international production: a restatement and some possible extensions» / J. H. Dunning // Journal of International Business Studies. - Vol. 19, № 1. - P. 1-31
4. Ernst & Young, Oxford Economics. (2011) «Trading Places: The Emergence of New Patterns of International Trade» / Ernst & Young, Oxford Economics – Ernst & Young, 4
5. Forsman, Maria. (2002) «Internationalization from a SME perspective» / M. Forsman, Susanna Hinttu, Sören Kock. 18th Annual IMP Conference, September, Lyon. - P. 1-12.

6. Johanson, J. (1977) «The internationalization process of the firm - a model of knowledge development and increasing foreign market commitment» / J. Johanson, J. Vahlne // Journal of International Business Studies. - Vol. 8, № 1. - P. 23-32
7. Kenichi Ohmae (1994) «The Borderless World: Power and Strategy in the Global Marketplace», HarperCollins. – 223 P.
8. Paskal Lamy. (2013) «Economic engagement with emerging countries key to Europe's growth». (Elektron resurs) Giriş rejimi: http://www.wto.org/english/news_e/sppl_e/sppl282_e.htm
9. Theodore Levitt. (1983) «The Globalization of Markets». Autumn (Fall). – p. 92 https://hbr.org/1983/05/the-globalozation-of-markets/
10. Welch, L. S. (1988) «Internationalization: Evolution of a Concept» / L. S. Welch, R.K. Loustarinen // Journal of General Management. - Vol. 14, № 2. - P. 36-64
11. Welch, L. S. (1993) «Inward-Outward Connections in Internationalization» / L. S. Welch, R.K. Loustarinen // Journal of International Marketing. - № 1. - P. 44-56
12. Development and Globalization: Facts and Figures 2012, UNCTAD, 13
13. Doing Business, World Bank 2018
14. Ernst & Young, Oxford Economics, 2011, 4
15. UNCTAD-ın 2013-cü il ərzində dünya investisiyaları haqqında məruzəsi: Qlobal istehsalat sistemləri: investisiyaların və ticarətin inkişafının maraqlarında. İcmal. (Elektron resurs) Daxilolma rejimi: http://unctad.org/en/PublicationsLibrary/ wir2013overview_ru.pdf), s. 11
16. UNCTAD. Handbooks of statistics. 2017. https://unctad.org/tdstat42_en.pdf
17. CIA World Factbook
18. Dünya Bankı: https://golos.io/ru--yekonomika/@romapush/mirovaya-ekonomika-v-cifrakh-2017-g-i-prognoz-izmenenii-na-2020-i-2030-gg
19. IMF, World Economic Outlook Database, April 2017/ https://www.iep.ru/files/Gaidarovskie_chtenia/2017/bishkek/dsm_25.09.17.pdf
20. WTO Statistics database. Time Series. Merchandise trade by commodity. (Elektron resurs) Daxilolma rejimi: http://stat.wto.org/
21. World Trade Report, 2013, WTO, 9
22. https://www.wto.org/english/res_e/statis_e/wts2018_e/wts2018_e.pdf, 74
23. https://knoema.ru/atlas/topics
24. https://www.wto.org/english/res_e/statis_e/wts2018_e/wts2018_e.pdf, 178
25. https://unctad.org/en/PublicationsLibrary/tdstat42_en.pdf
26. http://unctad.org/en/PublicationsLibrary/ wir2013overview_ru.pdf

# Əlavələr

Əlavə 1

**Ən mühüm inteqrasiya olunuş birliklərin dünya ixracatında və idxalatında payı**

| | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Bütün dünya üzrə cəmi, milyard ABŞ dolları ilə** | | | | | | | | | | | |
| **İxrac** | **14026** | **16165** | **12561** | **15301** | **18338** | **18496** | **18953** | **18968** | **16519** | **16029** | **17730** |
| **İdxal** | **14331** | **16572** | **12782** | **15511** | **18503** | **18708** | **19015** | **19120** | **16769** | **16287** | **18024** |
| **EU (28)** | | | | | | | | | | | |
| İxrac | 5366 | 5955 | 4614 | 5184 | 6092 | 5809 | 6077 | 6159 | 5392 | 5380 | 5904 |
| İdxal | 5655 | 6358 | 4809 | 5421 | 6330 | 5951 | 6012 | 6146 | 5326 | 5344 | 5878 |
| **NAFTA** | | | | | | | | | | | |
| İxrac | 1841 | 2035 | 1602 | 1964 | 2283 | 2372 | 2418 | 2494 | 2293 | 2215 | 2377 |
| İdxal | 2701 | 2907 | 2177 | 2682 | 3091 | 3193 | 3196 | 3299 | 3150 | 3061 | 3283 |
| **ASEAN** | | | | | | | | | | | |
| İxrac | 865 | 990 | 814 | 1050 | 1240 | 1254 | 1270 | 1291 | 1161 | 1152 | 1309 |
| İdxal | 775 | 939 | 727 | 954 | 1154 | 1223 | 1242 | 1232 | 1096 | 1090 | 1251 |
| **MERCOSUR** | | | | | | | | | | | |
| İxrac | 296 | 375 | 277 | 349 | 449 | 436 | 425 | 387 | 301 | 285 | 324 |
| İdxal | 229 | 308 | 228 | 306 | 382 | 376 | 398 | 372 | 292 | 233 | 255 |
| | **2007** | **2008** | **2009** | **2010** | **2011** | **2012** | **2013** | **2014** | **2015** | **2016** | **2017** |
| **Ümumi dünya üzrə dövriyyədə xüsusi çəki, %** | | | | | | | | | | | |
| **EU (28)** | | | | | | | | | | | |
| İxrac | 38,3 | 36,8 | 36,7 | 33,9 | 33,2 | 31,4 | 32,1 | 32,5 | 32,6 | 33,6 | 33,3 |
| İdxal | 39,5 | 38,4 | 37,6 | 35,0 | 34,2 | 31,8 | 31,6 | 32,1 | 31,8 | 32,8 | 32,6 |
| **NAFTA** | | | | | | | | | | | |
| İxrac | 13,1 | 12,6 | 12,8 | 12,8 | 12,5 | 12,8 | 12,8 | 13,1 | 13,9 | 13,8 | 13,4 |
| İdxal | 18,8 | 17,5 | 17,0 | 17,3 | 16,7 | 17,1 | 16,8 | 17,3 | 18,8 | 18,8 | 18,2 |
| **ASEAN** | | | | | | | | | | | |
| İxrac | 6,2 | 6,1 | 6,5 | 6,9 | 6,8 | 6,8 | 6,7 | 6,8 | 7,0 | 7,2 | 7,4 |
| İdxal | 5,4 | 5,7 | 5,7 | 6,1 | 6,2 | 6,5 | 6,5 | 6,4 | 6,5 | 6,7 | 6,9 |
| **MERCOSUR** | | | | | | | | | | | |
| İxrac | 2,1 | 2,3 | 2,2 | 2,3 | 2,4 | 2,4 | 2,2 | 2,0 | 1,8 | 1,8 | 1,8 |
| İdxal | 2,1 | 2,3 | 2,2 | 2,3 | 2,4 | 2,3 | 2,2 | 2,0 | 1,8 | 1,8 | 1,8 |

Mənbə: (https://www.wto.org/english/res_e/statis_e/wts2018_e/wts2018_e.pdf, 178) (20.03.2018)

**Qrafik 6: Müxtəlif ölkələr qruplarının onilliklər ərzində orta artım templəri, 1980-2016 illər, əvvəlki dövrə nisbətən %-lə**




**Mənbə:** IMF, World Economic Outlook Database, April 2017/ https://www.iep.ru/files/Gaidarovskie_ chtenia/2017/bishkek/dsm_25.09.17.pdf (20.03.2018)

## Cədvəllərin siyahısı

Cədvəl 1: Dünya ticarəti üzrə 2017-ci il üzrə idaxalat və ixracatın həcmləri ................................9
Cədvəl 2: Yüksək texnoloji məhsulların 2016-cı il üzrə idaxalatının həcmləri, mlrd. ABŞ dolları ........................................................................................................................10
Cədvəl 3: Müxtəlif iqtisadiyyatlar və ölkələr üzrə mallarla xarici ticarət, milyard ABŞ dolları ilə ........................................................................................................................11
Cədvəl 4: Beynəlxalq ticarətin həcmlərinin dinamikası, milyard dollar ......................................15
Cədvəl 5. ÜDM-nin həcminə görə TOP-10 ölkələr. Dünyanın nəhəng iqtisadiyyatları ...............19
Cədvəl 6: Müxtəlif ölkələr qruplarının onilliklər ərzində orta artım templəri, 1980-2016 illər, əvvəlki dövrə nisbətən %-lə ........................................................................................22
Cədvəl 7: Lisenziyaların və kvotaların əsas növləri...................................................................36
Cədvəl 8: Doing Business, World Bank 2018 üzrə ölkələrin reytinqləri ....................................64
Cədvəl 9: Doing Business 2018 beynəlxalq ticarət üzrə reytinqlər ............................................65

## Şəkillərin siyahısı

Şəkil 1: Global ticarət axınları 2016-cı il üzrə ........................................................................13
Şəkil 2: Regional ticarət sazişləri (RTA) bağlamış bir sıra təşkilatların qlobal ixracatının bütün dünyadakı payı, 2016-cı il üzrə ......................................................................................48
Şəkil 3: Qlobal xidmətlər bazarı..................................................................................................53
Şəkil 4: 2016-cı ildə qlobal e-commece həcmləri (B2B və B2C üzrə) .......................................53
Şəkil 5: Regional ticarət sazişləri (RTAs) üzrə ixracatın həcmləri, 2016-cı il, %-lə ....................56
Şəkil 6: Beynəlmiləlləşdirmə üzrə Uppsala modeli ....................................................................63
Şəkil 7: Ölkələr risklərinin təhlilinin strukturu...........................................................................68
Şəkil 8: Firmanın fəaliyyətinin ardıcıl olaraq beynəlmiləlləşdirilməsi modeli ............................71

Qrafiklərin siyahısı

Qrafik 1: Bütün dünya üzrə ÜDM-in artım templəri, % ....18
Qrafik 2: ÜDM-nin həcminə görə TOP-10 ölkələr. Dünyanın nəhəng iqtisadiyyatları ....19
Qrafik 3. Dünyanın müxtəlif ölkə qruplarının ÜDM-də payı, Beynəlxalq Valyuta Fondunun məlumatlarına əsasən, 2017-ci il üzrə ....20
Qrafik 4:. Beynəlxalq ticarətin dünya üzrə ÜDM-də xüsusi çəkisi (1980–2016-cı illər) ....21
Qrafik 5: Müxtəlif ölkələr qruplarının onilliklər ərzində orta artım templəri, 1980-2016 illər, əvvəlki dövrə nisbətən %-lə ....82
Qrafik 6: Azərbaycanın Doing Business reytinqində tutduğu yer ....66